Bu bir xalq qəzetidi

ƏDALƏT

## Şahin Mustafayev: Azad edilən ərazilərdə 2 milyard kubmetr su ehtiyatları var



*İşğaldan azad edilən ərazilərdə digər təbii resurslarla bərabər kifayət qədər zəngin su resursları da mövcuddur. Bunu Ağdamda səfərdə olan baş nazirin müavini Şahin Mustafayev deyib.*

*Ş.Mustafayev bildirib ki, təqribi hesablamalara görə, bu ərazilərdə 2 milyard kubmetr su ehtiyatları var: "Bu ehtiyatlar tələbatı tam ödəməyə imkan verir. Cənab Prezidentin bəyan etdiyi kimi ölkədə su mənbələrinin xəritəsi hazırlanır. Bu xəritənin üzərində iş gedir. Çalışırıq ki, qısa müddətdə xəritənin ilk layihəsini hazırlayıb təqdim edək. Xəritə elektron formada hazırlanır. Eyni zamanda su resurslarının yenidən qiymətləndirilməsi vacibdir. Bunun üçün yeraltı su həcmlərinin dəqiqləşdirilməsi üçün müşahidə-kəşfiyyat quyularının qazılması nəzərdə tutulur və Ağdam rayonu da istisna deyil".*

## "Şərq Tərəfdaşlığı" sammitinin tarixi açıqlanıb



**"Şərq Tərəfdaşlığı" sammitinin 2021-ci ilin dekabrında keçirilməsi planlaşdırılır.**

Bu barədə Avropa İttifaqının Xarici Siyasət Xidməti məlumat yayıb.

Məlumata görə, sammitinin keçirilməsinə hazırlıq kontekstində Aİ-nin Azərbaycan, Gürcüstan və Ermənistana dəstəyini ifadə etmək üçün Avstriya, Litva və Rumıniya xarici işlər nazirləri Aleksandr Şallenberq, Qabrielius Landsbergis və Boqdan Auresku Cənubi Qafqaza səfər edəcəklər.

XİN başçıları Aİ Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Yüksək Nümayəndəsi/Avropa Komissiyası sədrinin müavini Cozep Borrellin tapşırığına əsasən, iyunun 25-26-da bölgəyə səfər edəcəklər.

Onların Azərbaycan, Gürcüstan və Ermənistan liderləri ilə görüşü planlaşdırılır.

Nazirlərin Azərbaycan, Gürcüstan və Ermənistan liderləri ilə görüşü planlaşdırılır.

XİN başçıları səfərin sonunda, iyunun 26-da Aİ-nin Tblisindəki nümayəndəliyində mətbuat konfransı keçirəcəklər.

## Azərbaycan Dünya Bankının pandemiyaya görə ayırdığı kreditdən imtina edib



**Azərbaycan Dünya Bankının pandemiyaya görə ayırdığı kreditdən imtina edib.**

**Maliyyə Nazirliyindən verilən məlumata görə, Dünya Bankı tərəfindən koronavirus infeksiyasına qarşı mübarizədə bütün ölkələrə təqdim olunan "Sürətli COVID-19 Aləti" layihəsi çərçivəsində güzəştli kredit vəsaitinin cəlb olunmasına Azərbaycan tərəfi də maraq göstərib və müvafiq danışıqlara başlayıb. Lakin kreditin ayrılması istiqamətləri, şərtləri və prosedurları Azərbaycan tərəfini qane etmədiyindən həmin danışıqların aparılması dayandırılıb və bu barədə Dünya Bankına məlumat verilib. Hal-hazırda Dünya Bankından sözügedən kreditin alınması gündəmdə deyil.**

## Tural Gəncəliyev: Geri qayıtmaq hüququmuzdan istifadə edə bilmirik

Bax:səh-3

## Azərbaycan və Rusiya XİN rəhbərləri arasında telefon danışığı olub



**Xarici işlər naziri Ceyhun Bayramov və Rusiyanın xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyindən verilən məlumata görə, nazirlər bölgədə mövcud olan cari vəziyyət, üç ölkənin liderləri tərəfindən imzalanan birgə bəyanatların icrası ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Telefon danışığı zamanı, həmçinin bölgənin münaqişədən sonrakı mərhələdə inkişafı məsələləri müzakirə edilib və bu xüsusda, üç ölkənin Baş nazirlərinin müavinlərinin rəhbərliyi altında fəaliyyət göstərən üçtərəfli İşçi Qrupunun fəaliyyəti vurğulanıb.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 66 (5898) 24 iyun 2021-ci il | Qiyməti 30 qəpik

## Müdafiə sənayesi naziri Minskə gedib



**İyunun 23-26-da Belarusun Minsk şəhərində "MİLEX-2021" 10-cu Beynəlxalq Silah və Hərbi Texnika sərgisi keçiriləcək.**

Müdafiə Sənayesi Nazirliyindən verilən məlumata görə, Belarus, Rusiya və digər xarici ölkələr tərəfindən istehsal edilən ən müasir silah və hərbi texnika modellərinin nümayiş etdiriləcəyi sərgidə Azərbaycanı müdafiə sənayesi naziri Mədət Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir.

Tədbir çərçivəsində, həmçinin iştirakçı dövlət və hökumət təmsilçiləri, rəsmi nümayəndə heyətlərinin rəhbərləri ilə görüşlər nəzərdə tutulub.

Görüşlər zamanı Müdafiə Sənayesi Nazirliyi ilə müvafiq qurumlar arasında hərbi-texniki sahədə əlaqələrin inkişaf etdirilməsi və yeni birgə layihələrin reallaşdırılması istiqamətində müzakirələr aparılacaq.

# Baş Prokurorluqda konfrans



**Dünən Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilatçılığı ilə intihar və intihara cəhd edilməsi hadisələrinin baş verməsinin minimuma endirilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi ilə əlaqədar çoxsaylı dövlət qurumları və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə yüksək səviyyəli konfrans keçirilib.**

**Baş Prokurorluqdan bildirilib ki, tədbiri giriş sözü ilə açan Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə ardıcıl islahatların aparılmasını, vətəndaşların maddi rifah halının yaxşılaşmasını, sosial müdafiəsinin daim diqqət mərkəzində saxlandığını qeyd edərək Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müstəsna təşəbbüsü nəticəsində əhalinin bütün təbəqələrin dövlət qayğısı ilə əhatə olunduğunu bildirmişdir. Konfransda çıxış edən Təhsil Naziri Emin Əmrullayev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, eləcə də Milli Məclisin, Baş Prokurorluğun, Ədliyyə, Daxili İşlər, Təhsil, Səhiyyə, Gənclər və İdman Nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və digər dövlət qurumlarının, eləcə də qeyri-hökumət təşkilatlarının məsul əməkdaşları intiharların qarşısının alınması, bu kimi halları doğuran faktorlar və onların aradan qaldırılmasına dair məruzələrlə çıxış etmiş, mövzu ətrafında faydalı fikir mübadiləsi aparılmaqla intihar hadisələrinin ictimailəşməsində mətbuat orqanlarının daha həssas fəaliyyətinin önəmi xüsusi qeyd edilmişdir. Konfransın yekununda aidiyyəti qurumların iştirakı ilə intihar hadisələrin baş verməsinin minimuma endirilməsi istiqamətində qabaqlayıcı və digər zəruri tədbirlərin görülməsi məqsədilə müvafiq qurumlararası İşçi Qrupun yaradılması qərara alınmışdır.**

## Rus sülhməramlıları Qarabağda sülh və təhlükəsizliyə etibarlı zəmanət verirlər



**Rusiyanın həlledici töhfəsi ilə Qarabağda münaqişə dayandırıldı. Rus sülhməramlıları bölgədə sülhə və təhlükəsizliyə etibarlı zəmanət verir, humanitar vəziyyətin yaxşılaşdırılması, ərazilərin minalardan təmizlənməsi və sosial infrastrukturun bərpası üçün çox şey edirlər.**

Bu barədə Rusiya Prezidenti Vladimir Putin Beynəlxalq təhlükəsizlik üzrə IX Moskva Konfransının iştirakçılarına videomüraciətində bildirib:

"Rusiya qonşu ölkələrin təhlükəsizliyi və firavanlığı üçün üzərinə düşən məsuliyyəti heç vaxt unutmur. Regional münaqişələrin qarşısının alınması, ortaq qitəmizdə sülhün və sabitliyin möhkəmlənməsinə töhfə verməyə davam etmək niyyətindəyik".

## Azərbaycanda əhalinin 19 faizi vaksinasiya olunub



**Azərbaycanda vaksinasiya olunan əhalinin sayı açıqlanıb.**

Ölkə əhalisinin 19 faizi koronavirus əleyhinə peyvənd olunub. Ölkə əhalisinin 81 %-i isə hələ vaksinasiya prosesindən keçməyib.

Qeyd edək ki, hazırda ölkədə "CoronaVac", "Vaxzevria", "Sputnik V", "Pfizer" peyvəndlərindən istifadə olunur. Peyvəndləmə könüllü və dövlət hesabına aparılır.

## Türkiyə tarixində ən çox kokain ələ keçirilib

**Türkiyənin cənubunda yerləşən Mersin limanında son bir həftə ərzində keçirilən əməliyyat nəticəsində 1 ton 763 kq kokain ələ keçirilib.**

Məlumatı Türkiyə Ticarət Nazirliyi yayıb. Bildirilib ki, nazirliyin Gömrük Mühafizə Xidmətinin əməkdaşları ötən həftə Mersində Türkiyə tarixində ilk dəfə olaraq 1,3 ton kokain ələ keçirmişdi. Ötən gün isə 463 kiloqram kokain tutulub. Nəticədə bir həftə ərzində 1 ton 763 kq bu narkotik maddə ələ keçirilib.

## MDB ölkələri Müdafiə Nazirləri Şurasının iclası keçiriləcək



**İyunun 23-24-də Rusiya və Özbəkistanda MDB-yə üzv dövlətlərin Müdafiə Nazirləri Şurasının iş planına uyğun olaraq toplantısı keçiriləcək.**

Məlumatı "RİA Novosti" yayıb. Bildirilib ki, toplantı əvvəlcə Rusiyada, sonra Özbəkistanda olacaq. MDB-yə üzv dövlətlərin Müdafiə Nazirləri Şurasının belə toplantıları iş planına əsasən müntəzəm olaraq keçirilir.

## Bərdədə yanğın



**Bərdə rayonunda ev yanıb.**

Fövqəladə Hallar Nazirliyindən verilən məlumata görə, rayonun Mirzəxan Qaraqoyunlu kəndində ümumi sahəsi 66 $m^2$ olan birmərtəbəli 4 otaqlı evin 2 otağının yanar konstruksiyaları və dam örtüyü 30 $m^2$ sahədə yanıb. Evin qalan hissəsi yanğından mühafizə olunub.

**Yanğın yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.**

## Cəlilabad sakinindən tapança götürülüb



**Cəlilabad sakininin üzərindən tapança aşkarlanıb. DİN Mətbuat Xidmətinin Lənkəran regional qrupundan verilən məlumata görə, Cəlilabad RPŞ-nin əməkdaşları tərəfindən daxil olmuş məlumat əsasında keçirilən əməliyyat tədbiri nəticəsində üzərində qanunsuz olaraq odlu silah gəzdirməkdə şübhəli bilinən Cəlilabad rayon sakini H.Eyvazov saxlanılıb. Ondan üzərində "Pistole Model 27 Kal - 7.65" yazılmış 1 ədəd tapança, içərisində 8 ədəd patron olan həmin tapançaya aid sandıqça aşkar olunaraq götürülüb.**

**Faktla bağlı Cəlilabad RPŞ-də araşdırma aparılır.**

## Tanışlarını bıçaqlayan şəxslər həbs edilib



**İyunun 18-i Kürdəmir rayonu ərazisində Yaşar Baxşıyevin xəsarət alması barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Kürdəmir rayon prokurorluğundan verilən məlumata görə, aparılmış ilkin araşdırmalarla zərərçəkmişin tanışları Xəyal Heydərov və Tural Cəbrayıllının şəxsi münasibətlər zəminində aralarında yaranmış münaqişə zamanı Yaşar Baxşıyevə çoxsaylı bıçaq xəsarətləri yetirərək qəsdən öldürməyə cəhd etmələrinə əsaslı şübhələr müəyyən edilib. Faktla bağlı Kürdəmir rayon prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.2.1 ( bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən adam öldürməyə cəhd) və 29, 120.2.5-ci ( tamah məqsədi ilə və ya sifarişlə, habelə zərərçəkmiş şəxsin orqanlarından və ya toxumalarından istifadə etmək məqsədi ilə adam öldürməyə cəhd) maddələri ilə cinayət işi başlanıb.

Xəyal Heydərov və Tural Cəbrayıllı qeyd edilən maddələrlə təqsirləndirilən şəxs qismində cəlb edilməklə barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə istintaq davam edir.

## "Bəxtinizi bir daha sınayın..."

Bax:səh-4

Mehman CAVADOĞLU

# Yerevan ciddi sınaq qarşısında



**Ermənistanda növbədənkənar seçkilərinin nəticələri sürpriz olmadı. Paşinyanın qələbəsinə həm daxili, həm də xarici ekspert və politoqlar lap başlanğıcdan şübhə etmirdi. Mübahisəli məqam, sadəcə, qələbənin miqyasıyla bağlıydı. Onun rəqiblərini bu qədər böyük üstünlüklə yenəcəyini heç kim, iddialı bəyanatlarına baxmayaraq, ola bilsin, heç özü də gözləmirdi.**

**Müharibədən ağır məğlubiyyətlə çıxmış istənilən ölkə başçısının istefa verməsi təkcə siyasi zərurət yox, həm də mənəvi borcdu. Amma o nəinki istefa vermədi, əksinə, erkən seçkilərə gedərək özünün zədələnmiş nüfuzunu bərpa elədi, xalqdan yeni legitimlik mandatı aldı. Kim nə deyir desin, bu qələbə hakimiyyətə yiyələndikdən sonra daha çox ucuz şoularla gündəm yaradan baş nazirin möhtəşəm siyasi perfomansıydı. Əsl nonses idi.**

Bax:səh-2

## GÜNÜN LƏTİFƏSİ

**Kəndlərin birində 32 yaşlı müəllimənin 18 yaşlı şagirdə qoşulub qaçması xəbərini eşidən məktəb direktoru növbədən kənar iclas keçirir.**

40-50 yaşlı müəllimələrə:

**- Məndən xəbərsiz bir addım da atmırsınız, bundan sonra sizi məktəbə qardaşlarınız aparıb gətirəcək!**

Yaşlı müəllimələrdən biri:

**- Müdir, mənim qardaşım 10 ildi rəhmətə gedib.**

Müdir:

**- Kəs səsini, sən indidən qaçmağa bəhanə axtarırsan!**

# İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosu qəbul edib.**

**Migel Anxel Moratinos dedi:**

-Siz mənim nə qədər şad olduğumu, yenidən burada olmaqdan necə məmnun olduğumu və Sizin ən böyük uğurlarınızdan birini dünən görməkdən nə dərəcədə şad olduğumu təsəvvürünüzə belə gətirə bilməzsiniz. Düşünürəm ki, günüm çox təsirli keçdi.

**Prezident İlham Əliyev:** Bəli, siz hər şeyin şahidi oldunuz.

**Migel Anxel Moratinos:** Ağdamda bəyanatımda, yekun bəyanatımda dedim ki, mən bir növ qarışıq hisslər keçirirəm. Birincisi, siyasi və peşəkar həyatımda heç vaxt görmədiklərimin şahidi oldum. Heç nə yoxdur, tamamilə dağıntıdır. İnsan kədərlənir ki, XXI əsrdə belə bir halın necə şahidi olmaq olar? İkincisi, düşünürəm ki, Ağdama səfərim yaxşı keçdi, çünki Sizin xüsusi nümayəndəniz mənə gələcək üçün planı göstərdi. Bu, böyük baxışdır, cənab Prezident. Yolları, insanların məşğul olduğunu, dinamikanı görmək imkanı böyük qürur hissi verir. Azərbaycan hər zaman inkişaf edib və bu inkişaf daha da güclənəcək. Mən özümü hər zaman Azərbaycanın dostu hesab etmişəm, bu dəfə də Sizinlə olmaqdan və BMT Sivilizasiyalar Alyansının ali nümayəndəsi qismində yeni missiyamda Sizin səylərinizi, Xarici İşlər Nazirliyini və Mədəniyyət Nazirliyinizi dəstəkləməyə çalışmaqdan qürur duyuram.

Məni qəbul etdiyinizə və birlikdə görə biləcəyimiz işləri nəzərdən keçirmək imkanına görə təşəkkür edirəm.

**Prezident İlham Əliyev dedi:**

-Ölkəmizə, həmçinin işğaldan azad edilmiş ərazilərə səfər etdiyinizə görə təşəkkür edirəm. Siz öz hissləriniz barədə danışdınız. Düşünürəm ki, hər kəs eyni hissləri keçirir. Mən müharibədən sonra ilk dəfə Ağdama səfər edəndə qəmginlik hissi, kədər hissi, eyni zamanda, şəhərin yenidən qurulması ilə bağlı qətiyyət hissi keçirirdim. Yəqin sizə məlumat verilib ki, bir aydan da az vaxtda biz artıq yenidənqurma prosesinə başladıq. Siz gördünüz, hər şey dağılıb. Eyni zamanda, təkcə Ağdam rayonunda 97 min mina basdırılıb. Biz Ermənistandan yalnız Ağdam rayonu üzrə mina xəritələrini ala bilmişik, digər rayonlarda yüz minlərlə mina var. Onlar xəritələri bizə verməkdən imtina edirlər və bizdə artıq 100-dən çox ölən və yaralanan oldu. Müharibə başa çatandan sonra minalardan, piyada əleyhinə və tank əleyhinə minalardan 30-a yaxın adam həlak oldu, 100-dən çox mülki şəxs yaralandı, o cümlədən bu ayın əvvəlində 2 jurnalist həlak oldu.

Bilirsiniz ki, onlar şəhərləri müharibə zamanı, Birinci Qarabağ müharibəsi zamanı deyil, ondan sonra dağıdıblar. Onlar bunu Birinci Qarabağ müharibəsi dayanandan sonra demək olar ki, 30 il ərzində sistematik şəkildə bir neçə səbəbdən dağıdıblar. Birincisi, bütün tikinti materiallarını götürmək üçün. Çünki evlər sökülmüş, daşlar aparılmışdır. Bu, oğurluq idi. İkinci səbəb azərbaycanlılara geri qayıtmağa imkan verməmək idi. Çünki onlar düşünürdülər ki, total dağıntıdan sonra heç kim qayıtmayacaq. Təkcə şəhərlərdə deyil, kəndlərdə də, - siz digər istiqamətlərə gedəndə, məsələn Cəbrayıla, siz Füzulidə də olmusunuz, - Zəngilanda, Qubadlıda vəziyyət eynidir. Bütün kəndlər, bütün şəhərlər dağıdılıb. İndi biz onları minalardan təmizləməli, həmçinin paralel olaraq yenidənqurmaya başlamalıyıq. Biz artıq bütün səylərimizi toplamışıq, bütün resurslarımızı səfərbər etmişik. Böyük infrastruktur layihələrinə artıq başlanıb. Sizə bəlkə də bununla bağlı məlumat verilib. Biz onları yenidən quracağıq və düşünürəm ki, bu miqyasda dağıntıdan inkişafa, insanlar üçün layiqli yaşayış standartlarına doğru dünyada nadir təcrübə nümayiş etdirəcəyik. Həmin ərazilərə səfər etdiyinizə görə təşəkkür edirəm. Bu, həqiqətən də sizin müharibədən, uzun müddət davam edən işğaldan əziyyət çəkmiş insanlara rəğbətinizin, dəstəyin göstəricisidir.

# Azad edilmiş ərazilərimizdə daha bir modul tipli yeni hərbi hissə istifadəyə verilib

***Azad edilmiş ərazilərdə dislokasiya olunan Azərbaycan Ordusu bölmələrinin hərtərəfli təminatı və qoşun xidmətinin təşkili, eləcə də şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən həyata keçirilən tədbirlər davam edir. Şəxsi heyətin xidməti və döyüş fəaliyyətinin təşkili, eləcə də məişət şəraitinin təmin edilməsi məqsədilə müasir avadanlıqla təchiz olunmuş müxtəlif təyinatlı qurğulardan ibarət növbəti modul tipli yerləşmə məntəqəsi istifadəyə verilib.***



***Müdafiə Nazirliyindən verilən məlumata görə, açılış mərasimində çıxış edən hərbi birlik komandiri general-mayor Mais Bərxudarov bildirib ki, hərbi qulluqçuların zəruri ehtiyaclarını təmin edəcək bu modul tipli qurğularda silah otağı, yataqxana, yeməkxana, mətbəx, eləcə də hamam-sanitar qovşağı mövcuddur. Eyni zamanda kompleksdə zabit və gizirlər üçün xidməti otaqlar, tibb məntəqəsi, ehtiyat qidaların saxlanması üçün ərzaq anbarı, əşya anbarı, dizel yanacağı ilə işləyən elektrik generatorlar, qazanxana, qurutma otağı, o cümlədən döyüş növbətçiliyinin və qoşun xidmətinin yüksək səviyyədə təşkili və aparılması üçün bütün imkanlar yaradılıb.***

***Qeyd edilib ki, yeni alınan səyyar avadanlıqlar sayəsində şəxsi heyət daim isti yemək və məişət xidmətləri ilə təmin ediləcəkdir. Azad edilmiş ərazilərimizdə yerləşən hərbi hissələrə, mövqe və postlara yeni yolların çəkilməsi, elektrik, su və qaz xətlərinin quraşdırılması, eləcə də döyüş növbətçiliyinin, qoşun xidmətinin təşkili ilə bağlı görülən müvafiq işlər və modul tipli yeni hərbi hissələrin tikintisi planlı şəkildə davam edir.***

# "Ədalət" qəzetinin baş redaktoru İradə Tuncaya

**Hörmətli İradə xanım!**

**"Ədalət" qəzetinin 22 iyun 2021-ci il tarixli sayında Orxan Saffarinin imzası ilə "Ramiz Rövşəndən ağır gələn Ramiz" adlı məqaləsini təəssüf hissi ilə oxudum.**

**Bildirmək istəyirəm ki, müəllif həmin yazını çapa verməmişdən öncə mənim vatsap nömrəmə göndərmişdi. Mən də onun Ramiz Rövşənlə bağlı yazdığı fikirlərə öz iradımı bildirmişdim. Təəssüf ki, müəllif mənim iradımı nəzərə almamış və mənimlə şair dostum Ramiz Rövşəni üz-üzə qoymuşdur.**

**Ümumiyyətlə, bu yazı sözə, söz adamına bir hörmətsizlikdir. Sizdən xahiş edirəm ki, Azərbaycan ədəbiyyatında öz yeri, oxucusu olan şairlərin bir-birinə qarşı qoyulmasına cəhd edən bu cür yazıların qəzetinizdə yer almasına izn verməyəsiniz. Bir müəllif olaraq Orxan Saffari isə bu cür mövqe ilə gündəmə gəlməyə cəhd etməsin. Bu heç də xoş niyyət deyil.**

**Hörmətlə,**
**Ramiz Qusarçaylı**

# Dayanma-durma qaydalarını pozanlar məsuliyyətə cəlb olunub

**Daşkəsən Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi bölməsinin əməkdaşları rayonun küçə və prospektlərində dayanma-durma qaydalarının düzgün təmin edilməsi ilə əlaqədar tədbirləri davam etdirir.**





Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə regional qrupundan verilən məlumata görə, rayonun müxtəlif nöqtələrində dayanma-durma, parklanma qaydalarını pozan, eləcə də avtobus dayanacaqlarını, piyada səkilərini zəbt edən nəqliyyat vasitələrinin sürücüləri ilə yol polisi əməkdaşları maarifləndirici söhbətlər aparıb.

Dayanma-durma qaydalarını kobud şəkildə pozan avtomobillərin sahibləri barəsində inzibati protokollar tərtib olunub

**Bundan başqa keçirilən digər bir tədbir zamanı təhlükəsizlik kəmərindən, avtomobilin işıq cihazlarından, yəni dönmə siqnallarından düzgün istifadə etməyən sürücülər aşkarlanaraq onlarla profilaktik söhbətlər aparılıb. Sürücülərin diqqətinə çatdırılıb ki, təhlükəsizlik kəməri kəskin dayanma zamanı və ya avtomobil zərbə alarkən insanın yerində qalmasını təmin edir. Bu isə insanı avtomobil salonunun hissələrinin zərbəsindən qoruyur və yaxud maşından bayıra doğru atılmasının qarşısını alır. Ümumilikdə 18 nəfər sürücü inzibati məsuliyyətə cəlb edilib.**

# Qisasçılıq erasının başlanğıcı: "Xankəndi mitinqi" və "prezident idarəçiliyi" iddiası

**Ötən gün Azərbaycanın Qarabağ bölgəsinin rus sülhməramlılarının nəzarətində olan hissəsində - Xankəndi şəhərində ermənilər aksiya keçirdi.Məlumatı erməni mediası xəbər verdi. Rusiyanın humanitar yardımları ilə yarı zor, yarı xoş Qarabağda məskunlaşdırılmış ermənilər qondarmalığı çoxdan təsdiqlənmiş "Artsax"ın elə qondarma da "prezidenti" olan Arayik Arutyunyanın istefasını tələb etdilər.**

Mitinqdə yalnız qondarma "başçı" deyil, Nikol Paşinyan da hədəf seçilərək qınandı. Yəqin ki, Rusiya mediasının təbliğatının "çaşdırma" kampaniyası qarabağlı erməniləri bərk çaşdırıb. Beləki onlar qərara gəliblər ki, hər iki "baş" erməni müharibə vaxtı yalan məlumat yaymaqla, üstəgəl yarıtmaz fəaliyyət göstərməklə Ermənistanı müharibədə uduzdurub, kapitulyasiyaya imza atdırıb. Qarabağlı ermənilərin fikrincə günahkar məhz bi iki "başçı"dır.

Amma anlamırlar ki. Azərbaycan öz ərazisini əbədi olaraq yadelliyə



peşkəş edəsi deyildi və bir gün gücünü səfərbər edərək erməni işğalına son qoyacaqdır. Bu həqiqəti anlayan az sayda erməni var ki, onlarda hazırda Nikol Paşinyanın mövqeyini dəstəkləyirlər.

### *"Xankəndi mitinqi"nin yaranma səbəbləri*

***Xankəndi mitinqinin yaranma səbəblərini bilmək üçün ilk öncə 20 iyunda Ermənistanda keçirilən növbədənkənar parlament seçkisinə diqqət etmək lazımdır. Hamınızın bildiyi kimi qərbin və Rusiyanın da diqqəti bu seçkilərə yönəlmişdi və Rusiyanın kütləvi informasiya vasitələrində Ermənistanın eks-prezidenti Köçəryanın siyasi blokunun xeyrinə kütləvi və aqressiv təbliğat müşahidə olunurdu. Amma səsvermənin nəticəsi Ermənistan ictimaiyyətinin fikirləri ilə üst-üstə düşdü - seçicilərin əksəriyyəti Nikol Paşinyanın rəhbərlik etdiyi hazırkı hakimiyyəti dəstəklədi.***

Seçkilərin tam şəffaf və demokratik şəraitdə keçirilməsi də dünya ictimaiyyətinin nəzərindən qaçmadı. Hətta MDB-nin müşahidə missiyasının rəhbəri İlhom Nematov :"Ermənistanda parlament seçkiləri qanunvericiliyə və Seçki Məcəlləsinin tələblərinə uyğun keçirilib. Müşahidəçilər nəticələrin şübhə altına ala biləcək heç bir ciddi pozuntu aşkar etməyib. Seçki komissiyaları seçkilərin yüksək səviyyədə keçməsini təmin edib-deyə bəyanat verdi.

Bu o demək idi ki, Paşinyanın Mülki Müqavilə Partiyası 53,92 faiz səslə qalib gəlib.

Onun əsas rəqibi, Rusiyanın dəstəklədiyi Robert Köçəryan isə 21,04 faiz səs toplayıb. Bir sözlə, Paşinyana əks qütbdən mane olan və sabiq baş naziri tənqid, bəzən də təhqir etməkdən çəkinməyən Sərkisyan, Köçəryan, Ter-Petrosyan birliyi məğlubiyyətə uğradı." Uduzmaq" qarşı tərəfi təbii ki, hiddətləndirməyə bilməzdi. Qasrşı tərəf - "möhtəşəm üçlük" məğlub olaraq "seçki saxtakarlığı" iddiasını ortaya atmağa çalışsa da, seçkini seyr edən siyasi icmalçılar da bu seçimin erməni xalqının uğuru hesab etdi. Əli "seçki saxtakarlığı" iddiasından da çıxan üçlük əlacı qarışıqlıq yaratmaqda gördü. Bu isə Yerevanda mümkün deyildi.

**Rusiyalı politoloq Sergey Markov:**

- Nikol Paşinyanın məhz bu siyasətini seçicilərin 54%-i dəstəklədi. Müharibə partiyası tam məğlubiyyətə düçar oldu. Köçəryan Bloku 21%, onun müttəfiqi Serj Sərkisyan 5% səs topladı. Erməni cəmiyyəti Paşinyana hətta II Qarabağ savaşındakı ağır məğlubiyyəti belə bağışladı. Ona görə ki, erməni ictimaiyyəti artıq savaşmaq istəmir. O, Köçəryanın müharibə çağırışlarından qorxub. Erməni xalqı sülh proqramının reallaşmasını, kommunikasiyaların açıqlmasını, iqtisadi inkişafı istəyir. Paşinyanın qələbəsi Cənubi Qafqaz üçün yeni üfüqlər açır və Azərbaycanla Ermənistan xalqlarının tarixi barışığı üçün imkanlar yaradır. Erməni ictimaiyyəti faktiki olaraq, Azərbaycanla 10 noyabr razılaşmasına səs verdi. O, Rusiya ilə dostluq şəraitində Azərbaycanla sülhə və müharibəyə qarşı səs verdi.

**Rusiyalı tarixçi, politoloq Oleq Kuznetsov:**

- Ermənistan Kremlin hegomoniyasından daha bir addım uzaqlaşdı və bu ona özünəməxsus inkişaf perspektivi vəd edir.

İnkişaf perspektivi isə yalnız Azərbaycanın Qarabağ və sərhədlə bağlı qanuni tələblərinə qarşılıq verəndən sonra mümkündür.Rus təbliğatı isə növbəti dəfə öz vecsizliyini, mənasızlığını və satqınlığını bir daha göstərdi.

**Rusiyalı politoloq, millətlərarası münaqişələr üzrə mütəxəssis Yevgeni Mixaylov:**

-"Paşinyana etimad krediti verildi. İndi o, dinc və firavan ölkə yaratmalıdır. Deməк ki, erməni milləti Azərbaycan və Türkiyə ilə sülh şəraitində olacaq bir ölkədə yaşamaq istəyir. Bütün sərhədlərin açılmasına nail olacaq bir ölkədə. Bütün dünyada normal hesab ediləcək bir ölkədə. Dünən Ermənistanda keçirilən seçki bütün regiona və Ermənistanın özünə sabahkı gün üçün şans verdi. Bu seçkilərin nəticələri Ermənistanı dövlət kimi qoruyub saxlaya bilər. Bundan başqa, bu, Ermənistanı iqtisadi cəhətdən inkişaf etdirməyə imkan verəcək. Erməni xalqı başa düşür ki, onların ölkəsi "revanşizm" ideyasını və millətçilik cəhdlərini unutmalıdır:

### *"Xankəndi mitinqi" qisası və ola biləcək qisaslar*

Seçkiyə məhz Yerevanda etiraz etməyə gücü, potensialı çatmayan əsas rəqib Köçəryan seçkilərlə bağlı MDB, KTMT, ATƏT PA da daxil olmaqla, bütün beynəlxalq müşahidəçilər müsbət rəyindən sonra etirazını havadarı Rusiyanın "qanun" olduğu məkanda etməyi uyğun bildi. Maraqlıddır ki, Paşinyanı qələbə münasibətilə ilk təbrik edən Arayik Arutunyan da qisas mitinqində öz "payı"nı aldı.

Seçkidən həmən sonra Xankəndidə belə bir mitinqin təşkili yeni hökumətə qarşı hücumların başlanğıc nöqtəsi kimi də hesab oluna bilər.

Erməni siyasi şərhçi Tevos Arşakyanın "bu "köhnə qvardiya" (Sərkisyan, Köçəryan, Ter-Petrosyan) belə asanlıqla təslim olmayacaq. Paşinyanı çətin günlər gözləyir" açıqlaması yaxın gələcəkdə yeni iğtişaş və qarışıqlığın gözlənilən olmasından xəbər verir.

Hətta tarixçi, hərbi ekspert Oleq Kuznetsov sonuncu açıqlaması ilə erməni siyasi şərhçi Tevos Arşakyanın səsləndirdiyi fikirləri bir növü təsdiqləmiş oldu: İndi bir çox xarici politoloqu düşündürən bir sual qalır: Köçəryanın 2018-ci ilin yazında eks-prezident Sərkisyana qarşı baş tutan hiyləgər "Paşinyan planı"na oxşar bir planı varmı? Yəni Robert insanları səsvermənin nəticələrinin saxtalaşdırılmasına inandırıb, seçkinin qeyri-legitimliyi bəhanəsilə hakimiyyəti devirmək üçün küçələrə çıxara bilərmi?

**Hesab etmirəm ki, bu, baş verə bilər və bunun da yeganə səbəbi var: Köçəryan Ermənistanda bütün sosial-siyasi potensialını səfərbər edib bu növbədənkənar parlament seçkilərində iştrak etdi. Bu güc onun maksimumu idi. Amma Köçəryanın bir gizli silahı da var: o, hərbi çevrilişə hazırlaşa bilər".**

Köçəryanın radikal düşüncələrini və əvvəlki hakimiyyəti zamanı yeritdiyi siyasəti nəzərə alsaq, əlbətdə ki, qonşu dövləti sakit həyat tərzi gözləmədiyinin qənaətinə gəlirik. Hesab edirik ki, Rusiya Qafqazda, xüsusən Ermənistanda nüfuzunu Köçəriyanın vasitəsilə möhkəmlətmək üçün plan qurmuşdu və plan iflasa uğradı. Siyasətində hər zaman çığallıq və radikallıq nümayiş etdirən Rusiya Ermənistanda özünün seçdiyi siyasi fiqur Köçəriyanın əli ilə "peşman " edəcəyinə əminik. 20 iyun da bitən seçkinin nəticələrindən qaynaqlanan növbəti proseslərin gedişatın, inkişafını izləməyə dəyər!Paşinyanı qarşıda daha böyük "qisas"lar gözlədiyini seyr etməyə hazır olmalıyıq!

Bu gün Ermənistan Prezidenti Armen Sərkisyan maraqlı bir aşıqlama verib:

"Əminəm ki, bizim ilk növbədə İT sahəsində böyük inkişaf potensialımız var, lakin bundan öncə biz gərək konstitusiyanı dəyişək, prezident idarəçiliyinə qayıdaq.

Hazırkı konstitusiya ilə Ermənistan nə prezident, nə də parlamentli respublikadır. Belə çıxır ki, insanların böyük hakimiyyəti var, amma məsuliyyəti yoxdur"

**Aha, deyəsən, həqiqətəndə . Paşinyanı qarşıda daha böyük "qisas"lar gözlədiyini seyr etməyə hazır olmalıyıq!**

**Əntiqə Rəşid**

*Mehman Cavadoğlu*

# Yerevan ciddi sınaq qarşısında

**Ermənistanda növbədənkənar seçkilərinin nəticələri sürpriz olmadı. Paşinyanın qələbəsinə həm daxili, həm də xarici ekspert və politoqlar lap başlanğıcdan şübhə etmirdi. Mübahisəli məqam, sadəcə, qələbənin miqyasıyla bağlıydı. Onun rəqiblərini bu qədər böyük üstünlüklə yenəcəyini heç kim, iddialı bəyanatlarına baxmayaraq, ola bilsin, heç özü də gözləmirdi.**

**Müharibədən ağır məğlubiyyətlə çıxmış istənilən ölkə başçısının istefa verməsi təkcə siyasi zərurət yox, həm də mənəvi borcdu. Amma o nəinki istefa vermədi, əksinə, erkən seçkilərə gedərək özünün zədələnmiş nüfuzunu bərpa elədi, xalqdan yeni legitimlik mandatı aldı. Kim nə deyir desin, bu qələbə hakimiyyətə yiyələndikdən sonra daha çox ucuz şoularla gündəm yaradan baş nazirin möhtəşəm siyasi perfomansıydı. Əsl nonses idi.**

**Amma tək bu deyildi. O, hakimiyyətdə olduğu qısa müddət ərzində bir çox uğurlu islahatlara imza atmış, xüsusilə korrupsiyayla mübarizə sahəsində ciddi nəticələr əldə etmişdi. Bu mübarizənin əsas hədəflərisə indi onun qanına susamış sonuncu iki prezident, məmurlar və onların yaxın ətrafı və qohum-əqrəbalarıydı. Seçkinin əsas müxalif favoriti sayılan Robert Köçəryan bu prosesə birbaşa həbsxana qapısından çıxaraq qatılmışdı və həmin qapının hələ də üzünə açıq saxlandığını yaxşı anlayırdı. Patriotizm ritorikasıyla ört-basdır edilməyinə rəğmən, seçkiyə qatılmaq qərarı, əslində, ondan ötrü şəxsi təhlükəsizliyini təmin etmək istəyindən başqa bir şey deyildi.**

**Bu seçkilərdə Kremlə daha çox Paşinyanın qələbəsinin sərf elədiyi barədə nə qədər fərqli rəylər və arqumentlər səslənsə də, Moskvanın marağının Köçəryanın üstündə fokuslaşdığı danılmaz gerçəklikdir. Hazırkı ölkə rəhbərinin "10 noyabr" anlaşmasında imzası olan birisi kimi gələcək proseslərdə daha konstruktiv mövqe sərgiləyəcəyinin məntiqli görünməsinə baxmayaraq, Köçəryanla işləmək Kreml üçün qat-qat rahat idi, indiki siyasi reallıqlar fonunda onun özünü qırğı yox, boz qarğa kimi aparacağı şübhə doğurmurdu. Üstəlik, Paşinyan kimi "həftə səkkiz mən doqquz" Qərb paytaxtlarının qəbul otaqlarını yağır eləməklə Putinin son zamanlar , onsuz da, gərilmiş əsəblərində əlavə qıcıq yaratmayacaqdı. Moskva Köçəryanın qələbəsindən daha çox məmnun qalardı, hətta buna maksimum səy də göstərdi. Amma demokratik seçkilərin bir üstünlüyü də odur ki, ona barmaq eləmək olsa da, mütləq müdaxilə mümkün deyil. Köçəryanın hazırkı nüfuzu (oxu: nüfuzsuzluğu) müqabilindəsə barmaq gücü yetərli ola bilməzdi, necə ki ola bilmədi.**

**Seçkilərin MDB, KTMT qarışıq bütün digər beynəlxalq müşahidəçilər tərəfindən müsbət qiymətləndirilməsi seçkisonrası mübarizə şansını da sıfıra endirdi. Odur ki, ilk nəticələrin məlum olduğu saatlarda rəhbərlik elədiyi blokun parlamentə qatılmayacağını anonslayan Köçəryan cəmi bir gün sonra yalnız özünün parlamentdə oturmayacağını bəyan eləməklə dolayısı da olsa nəticələrlə barışdığını bildirdi. Yəni, sıravi deputatlığı özünə rəva görmədi.**

**Serj-Sərkisyanın durumusa lap acınacaqlıdı. Onun rəhbərlərindən biri olduğu "Şərəfim var" bloku heç seçki baryerini keçə bilmədi, yalnız seçki məcəlləsinin verdiyi imtiyazlar hesabına parlamentdə 6 deputatla təmsil olunmaq şansı qazandı ki, bu da əslində, Paşinyanın təbliğat kampaniyası dövründə əlində gəzdirdiyi çəkiclə üçüncü prezidentin siyasi tabutuna vurduğu son mismardan başqa bir şey deyildi.**

**Seçki nəticələrinin hətta ən ötəri təhlili Ermənistan cəmiyyətinin bugünkü ovqatı haqqında maraqlı nüansları ortaya çıxardır. Paşinyanın bölgələrdə daha çox səs alması, paytaxt Yerevanda 50 faizin altında qalması ölkədə xalqla elita arasında yaranmış dərin uçurumun bariz nümunəsidir. Ermənistan paytaxtı diaspordan yemlənən "miatsum", "dənizdən-dənizə Böyük Ermənistan", "qədim xalq" kimi xəstə ideyalara mübtəla olmuş siyasətçilərin, ictimai xadimlərin, alimlərin, ziyalıların cəmləşdiyi qapalı bir düşərgədir. Üstəlik, Birinci Qarabağ Müharibəsinin qalibi qismində Ermənistanda hakimiyyətə yiyələnmiş və 20 il meydan sulamış Qarabağ klanının dövründə bu kiçik və kasıb ölkəni talamaq üçün orda məskunlaşmış Qarabağ ermənilərinin at oynatdığı bir şəhərdir. Ancaq İkinci Qarabağ Müharibəsində Azərbaycanın şanlı qələbəsi sadə erməniləri sanki qəflət yuxusundan ayıltdı. İdeya dəllallarının populyarlığı azaldı, Qarabağ soyğunçularının büründükləri əzabkeşlik libası yırtıldı. Erməni xalqının əksəriyyəti sülhü və inanaq ki, həm də qonşularla dinc-yanaşı yaşamağı seçdilər.**

**Bu kiçik "lirik-siyasi" ricətdən sonra ölkədəki siyasi proseslərin gələcək gedişini proqnozlaşdırmağa çalışaq. Paşinyanın "Vətəndaş Müqaviləsi" bloku yeni parlamentdə mütləq söz sahibidir. O, heç bir maneəsiz hökuməti formalaşdıracaq, istədiyi qanun və qərarları qəbul edəcək. Düzdür, müxalifət arasıra dava-dalaş salaraq içəridəki yeknəsək ab-havaya bir az fərqli çalarlar qatacaq. Amma hakimiyyət kürsüsünə bu cür dava-dalaşlar sayəsində yüksəlmiş, üstəlik, ağır məğlubiyyətdən sonra aylarla davam edən küçə etirazlarını son nəticədə öz xeyrinə dəyişərək hakimiyyətini daha da möhkəmləndirmiş bir siyasətçi üçün bütün bunlar milçək vızıltısından başqa bir şey olamayacaq, sadəcə, ürək bulandıracaq.**

**İndi müxalifətin cığallıq edərək mərəni pozmaq üçün parlamentdə iştirakdan birdəfəlik imtina eləməkdən başqa yolu qalmayıb. Hərçənd, bu riskli variant Paşinyan üçün göydəndüşmə olardı. Hazırkı reallıq daha bir erkən seçkinin Qarabağ klanını Ermənistanın siyasi səhnəsindən birdəfəlik silib atacağına şübhə yeri qoymur. Odur ki, Köçəryan-Sərkisyan cütlüyünün belə bir varianta gedəcəyi ağlabatan görünmür. Son günlərin hadisələri göstərir ki, onlar başqa yol seçiblər, elə bir ssenari üzərində çalışırlar ki, həmin ssenarinin realaşması təkcə Qarabağ klanının yox, bütün Ermənistan siyasi elitasının sonunun başlanğıcı ola bilər.**

**Artıq yeni planın variantın ilk işartıları görünməyə başlayıb. Ötən əsrin sonlarında olduğu kimi təcrübə meydanı kimi yenə Dağlıq Qarabağ seçilib. Paşinyanın yaxın adamı olan Araik Arutunyanın (xatırladaq ki, onun qondarma rejimin rəhbərliyinə "seçilməsi" bilavasitə Paşinyanın havadarlığı sayəsində mümkün olmuşdu) baş nazirin Yerevandakı seçki qərargahından çıxarkən görüntülənməsi yanan ocağa səpilən nöyüt effekti doğurdu. Əvvəlcə Xankəndində əleyhdarlarının, sonra buna cavab olaraq tərəfdarlarının qarşılıqlı ittihamlarla müşayət olunan mitinqləri keçirildi. Bu mitinqlərin tezliklə Yerevana adlayacağı və daha sərt qarşıdurmalara nədən olacağı hazırkı siyasi düşmənçilik fonunda olduqca real görünür.**

**Erkən seçkiylə nəticələnən sonuncu dinc mübarizənin yekunda Qarabağ klanını məyus elədiyi üçün növbəti küçə qarşıdurmasının yalnız söz davasıyla məhdudlaşacağı ağlabatan deyil. İndi bu klan özünün ən odioz lideri Köçəryanın dəfələrlə sınaqdan çıxardığı başqa qisas variantı üzərində gəzişməyə başlayıb. Elektoratları kasıb olsa da, Qarabağda hələ də "10 noyabr" anlaşmasının ziddinə rus sülhməramlılarının gözü qarşısında at oynadan, mühüm hissəsi bəlkə də çoxdan Yerevanın ayrı-ayrı kvartallarında məskunlaşmış qeyri-qanuni silahlı dəstələr sarıdan korluq çəkmirlər. A. Arutunyandan çox Köçəryanın bir nömrəli adamı və əlaltısı olan Vitali Balasanyana bağlı bu silahlıların əksəriyyəti son müharibənin fərariləri olsalar da, Yerevanı alqana boyamaq üçün yetərli gücə malikdirlər.**

**Ermənistanın qanlı iç savaş astanasında olduğu hər ötən gün daha real görünür. Çünki əli dirsəyinə kimi nəinki Azərbaycan xalqının, hətta 1999, 2008-illərdə törətdiyi qətliamlar və çoxsaylı siyasi qətillərlə öz xalqının qanına batmış Köçəryanın - bu siyasi görəşənin yenidən qana susadığı aydın görünür. Təşnəsini söndürmək üçün məqam axtardığı hər addımından, hər sözündən hiss olunur.**

# Daşınmaz əmlaka dair müqavilələr bağlanılarkən vətəndaşların hüquqlarının notarius tərəfindən müdafiəsi

**Respublikamızda uğurla aparılan sosial-iqtisadi siyasət nəticəsində mülki dövriyyə və mülki-hüquq münasibətlərinin dairəsi genişlənmişdir. Bu dinamikaya uyğun olaraq, mülki-hüquqi əqdlərin sayı artmaqda davam edir.**

Mülki-hüquq münasibətlərində vətəndaşlarımızın hüquqlarının və qanuni mənafelərinin qorunması daim diqqət mərkəzində saxlanılır. Vətəndaşlara göstərilən hüquqi xidmət səviyyəsinin artırılması və onların hüquqlarının mötəbər müdafiəsi notariat fəaliyyətinin vacib istiqamətlərini təşkil edir.

***Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsinə əsasən, hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır. Qanunvericiliklə müəyyən edilmiş qaydada keyfiyyətli hüquqi yardım göstərmək vəzifəsi olan subyektlərdən biri də notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olan şəxslər - notariuslardır. Belə ki, "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hüquqi hərəkətləri apararkən notariuslar obyektiv və qərəzsiz məsləhətlər verməklə, eləcə də sənədlərin tərtib və təsdiq edilməsi yolu ilə fiziki və hüquqi şəxslərə keyfiyyətli hüquqi yardım edir. Notarius öz vəzifələrini yerinə yetirərkən fiziki və hüquqi şəxslərə aparılan notariat hərəkətləri ilə bağlı hüquq və vəzifələrini izah edir, bu hüquqların həyata keçirilməsi və qanuni mənafelərinin qorunması üçün köməklik göstərir, hüquqi məlumatsızlığın onlara vura biləcəyi ziyanın qarşısını almaq məqsədilə notariat hərəkətlərinin aparılması nəticələri barədə onlara xəbərdarlıq edir.***

Notarius marağı olmayan tərəf - arbitr olaraq bağlanan müqavilənin qanuniliyinin təminatçısı kimi çıxış edir, vətəndaşların hüquqlarının lazımi müdafiəsi və gələcəkdə mübahisəli vəziyyətin yaranmaması üçün qanunvericilikdə nəzərdə tutulmuş bütün tədbirləri yerinə yetirir. Notariuslar həmçinin "ilkin ədalət mühakiməsini həyata keçirən" müstəqil və qərəzsiz arbitr kimi mülki-hüquqi xarakterli mübahisəsiz məsələləri həll edir, bununla da məhkəmələrin və digər dövlət orqanlarının iş yükünü azaldır.

Notariat cəmiyyətdə mülki dövriyyənin iştirakçılarının hüquqlarının qorunmasını, xüsusi mülkiyyətin müdafiəsini, o cümlədən əmlak hüquqlarının mübahisəsizliyini və şübhəsizliyini təmin edir. Notariuslar mübahisəsiz hüquqları və faktları - əqdləri və etibarnamələri təsdiq edir, miras əmlakın mühafizə olunması üçün tədbirlər görür, vərəsəlik hüququ haqqında şəhadətnamələr verir, yaşayış evlərinin, mənzillərin açıq hərracdan əldə olunmasına dair şəhadətnamələr verir, sənədlərin bir dildən başqa dilə tərcüməsinin düzgünlüyünü, şəxsin sağ olması və ya müəyyən yerdə olması faktını, şəxslə fotoşəkildəki şəxsin eyniliyini, sənədlərin təqdim olunduğu vaxtı təsdiq edir.

Notariat mülki-hüquqi dövriyyənin iştirakçılarının hüquqlarının və qanuni mənafelərinin daha əhəmiyyətli dərəcədə qorunmasını əsasən əmlaka dair əqdlərin bağlanması və öhdəliklərin icrası zamanı həyata keçirir. Aparılan əməliyyatlar arasında daşınmaz əmlaka sərəncam verilməsi barədə müqavilələrin rəsmiləşdirilməsi vətəndaşların hüquqlarının müdafiəsi və təsdiqi baxımından mühüm yer tutur. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 144-cü maddəsinə əsasən, daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələr notariat qaydasında təsdiqlənməlidir. Təsdiqləmə zamanı notarius və ya qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər əşyaya dair sərəncam verən tərəfin sərəncam hüququnu və müqavilənin qanunauyğunluğunu yoxlamalıdır. Onlar təsdiqlədikləri müqavilənin yanlışlığı üçün məsuliyyət daşıyır. Həmin Məcəllənin 337-ci maddəsinə görə, Məcəllədə müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd etibarsızdır.

Göründüyü kimi, daşınmaz əmlaka sərəncam (alqı-satqı, bağışlama, dəyişdirmə, ipoteka, renta və s.) verilməsinə dair müqavilələrin notarial formasına riayət edilməməsi onun etibarsızlığına səbəb olur və heç bir hüquqi nəticə yaratmır.

Qeyd olunmalıdır ki, notarial formaya riayət edilməsi müqavilələrin etibarlılığını təmin edir, tərəflərin onun məzmunu barəsində qarşılıqlı razılaşmalarını aydınlaşdırır, dəqiqləşdirir və müqavilənin bağlanması faktını təsdiq edir.

***Notarial təsdiq həmçinin, gələcəkdə yarana biləcək mübahisələrin qarşısını alır, müəyyən faktların məhkəmədə sübut edilməsi imkanını təmin edir. Bu məqsədlə notariuslar məsələyə obyektiv və qərəzsiz yanaşaraq konkret hallarda tətbiq olunacaq hüquq barədə, eləcə də ediləcək hərəkətlərin nəticəsi haqqında tərəflərə izah verir, müqavilənin məzmununun tərəflərin həqiqi niyyətlərinə uyğun gəlib-gəlmədiyini, iradə ifadəsini əks etdirib-etdirmədiyini araşdırır, yalnız bundan sonra qanunvericiliyin tələblərinə uyğun olaraq əqdin düzgün qaydada təsdiq edilməsini və rəsmiləşdirilməsini həyata keçirir. Bəzən mülki hüquq subyektlərində vacib əhəmiyyətli yanılma nəticəsində əqd və onun elementləri barəsində qeyri-düzgün, yalnış təsəvvür yaranır, iradə və onun xaricən ifadəsi bir-biri ilə ziddiyyət təşkil edir.***

Tərəflərin həqiqi niyyətlərinin, daxili iradəsinin müəyyən edilməsi və hüquq və vəzifələrinin düzgün qaydada izah edilməsi bir sıra hallarda əqdin predmeti, mahiyyəti, qarşı tərəfin şəxsiyyəti və s. barədə yanılmanın qarşısını almaqla, gələcəkdə vacib əhəmiyyətli yanılma nəticəsində əqdin etibarsız hesab edilməsini aradan qaldırır, bununla da mülki dövriyyənin sabitliyinin qorunmasına xidmət edir.

Notarius tərəfindən əqdlər təsdiq edilərkən əqddə iştirak edən şəxslərin şəxsiyyəti və fəaliyyət qabiliyyətli olması aydınlaşdırılır, hüquqi şəxslərin hüquq qabiliyyəti, nümayəndə vasitəsilə aparıldıqda isə onun səlahiyyəti yoxlanılır. Əqdin iştirakçılarından hər hansı birinin ruhi xəstəliyi və ya ağıl zəifliyi nəticəsində öz hərəkətinin əhəmiyyətini başa düşə və ya öz hərəkətlərinə rəhbərlik edə bilməməsi, yaxud spirtli içkilərdən və ya narkotik vasitələrdən, psixotrop maddələrdən sui-istifadə etməsi, habelə qumara qurşanması nəticəsində öz ailəsini ağır maddi vəziyyətə salmasını, yaxud digər israfçılıq hərəkətləri ilə ailəsini dolanacaq xərclərindən məhrum etməsini güman etmək üçün notariusun əsasları vardırsa, şəxsin isə fəaliyyət qabiliyyətinin olmamasına və ya fəaliyyət qabiliyyətinin məhdud olmasına dair məhkəmə qətnaməsi yoxdursa, notarius əqdin təsdiq edilməsini təxirə salır və şəxsin fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilməsi haqqında məhkəmə qətnaməsinin olub-olmadığını aydınlaşdırır.

***Belə ki, mülki qanunvericiliyin tələblərinə görə, 14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayanların, habelə məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxslərin adından əqdləri yalnız onların qanuni nümayəndələri olan valideynləri, övladlığa götürənləri və qəyyumları bağlaya bilər. 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar və məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti məhdudlaşdırılmış şəxslər isə qanuni nümayəndələrinin (valideynlərindən biri öldükdə, xəbərsiz itkin düşdükdə, bu halı təsdiq edən müvafiq sənədlər olduqda onlardan birinin), habelə övladlığa götürənlərin və ya himayəçilərin razılığı ilə əqdləri bağlaya bilərlər.***

Həmçinin notariuslar tərəfindən qanunvericiliklə nəzərdə tutulmuş qaydada və hallarda qəyyum və himayəçilərin müvafiq səlahiyyətlərinin və ya razılıqlarının, ümumi əmlak barəsində sərəncam verilərkən ərin (arvadın) razılığının olması və digər məsələlər yoxlanılır.

Ər-arvaddan birinin daşınmaz əmlak üzərində sərəncam vermək barədə notariat qaydasında təsdiq edilən və (və ya) qeydiyyata alınan əqdləri bağlaması üçün digər tərəfin notariat qaydasında təsdiq edilmiş razılığı lazımdır.

Beləliklə, müqavilənin rəsmiləşdirilməsi zamanı onun etibarlılıq əsası kimi çıxış edən yuxarıda sadalanan halların, eyni zamanda qanunvericilikdə nəzərdə tutulan digər halların yoxlanılması və bununla da mülki dövriyyə iştirakçılarının hüquq və qanuni mənafelərinin müdafiəsi qanunverici tərəfindən məhz notariusların fəaliyyət dairəsinə aid edilmişdir.

Daşınmaz əmlaka sərəncam müqavilələrinin mötəbərliyini və hüquqi baxımdan icrasının tamlığını təmin etmək məqsədilə tərəflərin bir-birinə ödəməli olduqları pul məbləğləri notariusun bankda açdığı depozit hesabı vasitəsilə həyata keçirilir.

***Eyni zamanda notarius fiziki şəxslər tərəfindən torpaq, yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsinə görə hesablanmış sadələşdirilmiş verginin depozit hesabından dövlət büdcəsinə ödənilməsini təmin edir. Müqavilələr rəsmiləşdirilərkən depozit hesabına köçürülən pul vəsaitinin itirilməsi riskinin qarşısını almaq məqsədilə notariusun depozit hesabına mədaxil edilmiş fiziki şəxslərə məxsus vəsaitlər "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sığortalanır və həmin pul vəsaitləri üzrə kompensasiya 100 faizi həcmində ödənilir. Həmçinin, qanunvericiliyin tələbinə əsasən, xüsusi qaydada notariat fəaliyyətinin həyata keçirilməsi zamanı vurula biləcək ziyanın ödənilməsini təmin etmək məqsədilə belə fəaliyyətlə məşğul olmaq istəyən şəxs tərəfindən öz məsuliyyəti də sığortalanır.***

Daşınmaz əmlak üzərində sərəncam verilməsinə dair müqavilələr təsdiq edilərkən əmlakın mülkiyyət sənədinin elektron formasını, bu əmlak üzərində dövlət reyestrində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışı, habelə əmlaka sərəncam verən şəxsin subay olub-olmamasını və yaşayış evində yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər barədə məlumatları notariusun "Elektron notariat" informasiya sistemi vasitəsilə əldə etməsi tərəflər üçün əqdin rəsmiləşdirilməsi prosedurunu asanlaşdırır və vaxt itkisinin azaldılmasını təmin edir.

Notarius daşınmaz əmlak üzərində sərəncam verilməsinə dair müqaviləni təsdiqlədikdən dərhal sonra onu elektron formada informasiya sistemləri vasitəsilə və təsdiqlənmiş yazılı formada sifarişli poçt göndərişi vasitəsilə daşınmaz əmlakın dövlət reyestrinə göndərir. Belə müqavilə, ondan irəli gələn mülkiyyət və digər əşya hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının aparılmasına dair ərizə hesab olunur və həmin müqavilə əsasında müvafiq hüquqlar dövlət qeydiyyatına alınır.

Əks olunan hüquqi əsaslar və gerçəklik fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin daha etibarlı şəkildə müdafiə olunmasına, mülki dövriyyənin sabit və mübahisəsiz şəkildə təmin edilməsinə, daşınmaz əmlak ilə bağlı əməliyyatların peşəkar səviyyədə rəsmiləşdirilməsinə, hüquqdan sui-istifadə hallarının qarşısını almaqla qanunçuluğun və hüquq qaydasının təmin edilməsinə yönəlmişdir.

**Notariuslar insanların konstitusion hüquqlarının qorunmasında və onların mülki hüquqlarının həyata keçirilməsində qanunvericilik bazasının və respublikamızda yaradılan informasiya-texniki imkanların yaratdığı şəraitdən səmərəli şəkildə istifadə etmək və notariat xidmətindən məmnunluğu təmin etmək üçün daim vətəndaşlarımızın xidmətindədir.**

**Nizami Tağıyev,**
**Bakı şəhəri 4 saylı Notariat ofisinin notariusu**

# Düşmənə göz dağı Azərbaycan Silahlı qüvvələri





**Təməli 1918-ci il 26 iyun tarixində o zaman ki, Azərbaycan höküməti tərəfindən qoyulan Azərbaycan Silahlı qüvvələri yarandığı gündən keşməkeşli yollar keçib. Cümhuriyyət hökumətinin 1920-ci ildə sovet hökumətinin tərkibinə keçməsi ilə Azərbaycan Silahlı qüvvələrində müstəqilliyinə son qoyuldu. Sovet Sosialist Respublika ittifaqının tərkibində heç bir fəaliyyətinə icazə verilməyən Azərbaycan ordusu 70 ildən sonra Azərbaycan hökümətinin 1991-ci ildə öz azadlığına qovuşması ilə müstəqilliyini əldə etdi. Amma bundan sonra Azərbaycan silahlı qüvvələrini yeni çətin və ağır sınaqlar gözləyirdi. Özünü yeni bərpa etməyə çalışan ordu Azərbaycana qarşı ərazi iddiaları qaldıran Ermənistan ordusu ilə üz-üzə qaldı.**

Məmləkətin ağır günlərində düşmənə qarşı qeyri-bərabər döyüşlərə başlayan silahlı qüvvələri silah, texnika və rəhbərlik baxımından çatışmazlıqlar qarşısında qaldılar.

Birinci Qarabağ müharibəsində Ermənistan tərəfi Rus hökuməti tərəfindən Sovet hökumətindən qalma ağır texnika və canlı qüvvə baxımından çox güclü təchiz olunmuşdur.

Bu səbəbdən də torpağın müdafiəsi qeyrətli Azərbaycan oğullarının ümidinə qalmışdı. Bütün bunlarsa Azərbaycan silahlı qüvvələrinin birinci Qarabağ müharibəsində düşmənə qalib gəlməsində yetərli olmadı. Nəticədə torpaqlarımızın 20 faizi düşmən əsarətinə keçdi.

Bu zaman Azərbaycan xalqı 1993-cu ildə Heydər Əlirza oğlu Əliyevi təkidli tələblə hakimiyyətə gətirdilər.

Heydər Əliyevin rəhbər seçilməsi ilə xalqda dönüş yarandı. Məhz onun göstərişi ilə 1994-cü ildə Horadiz əməliyyatı keçirildi. Bu əməliyyat Azərbaycan ordusunda inkişafın başlamasına səbəb oldu.

Sürətlə inkişaf yolu keçən Azərbaycan silahlı qüvvələri ən müasir silahlarla təchiz olundu. Heydər Əlirza oğlu Əliyevin 2003-cü il vəfatından sonra layiqli davamçısı olan İlham Heydər oğlu Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycan silahlı qüvvələri daha da güclənməyə başladı. Uzun illərdir davam edən sülh danışıqları öz nəticəsini verməyincə cənab Ali Baş Komandanın göstərişi ilə Azərbaycan milli ordusu bütün cəbhə boyu əks-həmlə əməliyyatına başladı.2020-ci il 27 sentyabr tarixində başlayan vətən müharibəsi noyabr ayının 10-u düşmən Ermənistanın kaptulyasiya aktını imzalamasiyla nəticələndi.

Vətən müharibəsi adlandırılan qırx dörd günlük döyüşdə düşmənə sarsıdıcı və ağır zərbələr vuran Azərbaycan milli ordusu gücünü bütün dünyaya göstərdi. Bu qalibiyyət Azərbaycan oğullarının qanı bahasına əldə olundu. Bu döyüşdə Füzuli rayonu da qeyrətli oğullarını itirdi.

Onlardan biri Nəsirov Elmir Zülfü oğludur. Azərbaycan ordu sıralarında müddətdən artıq həqiqi hərbi xidmət keçən Elmir N saylı hərbi hissədən döyüşlərə qatılaraq vətən uğrunda canından keçmişdir.

Şəhid Elmirin haqqında atasından götürdüyüm müsahibə:

**- Övlad kimi necə övlad idi?**

-Övlad kimi əvəzolunmaz övlad idi. Mən onda heç bir səhv hərəkət demək olar ki,görmədim. Daim valideynlərinin, dostlarının, yoldaşlarının hörmətin saxlayan övlad olub. Əhmədbəyli sakinləri onun yoxluğuyla barışa bilmirlər. Kənd sakinləri hələ də o şoku yaşayır, mənim övladıma çox böyük dəyər verirlər.

**-Necə oldu ki, hərb sənətini seçdi?**

-Orta məktəbi əla bitirmədi,ali məktəbə getmək fikri olmadı. Günlərin bir günü evdə oturmuşdum. Geldi ki, ata, uşaqlar hərbiyə düzəlir. Mən də getmək istəyirəm. Məsləhətin nədir bu mövzuda?

-Dedim ki,mən nə deyim, seçim sənindir. Ürəyinin səsinə qulaq as. O zaman belə bir sual verdim. Sen nəyin xatirinə oraya gedirsən? Dedi,ata,mən vətənimi, qulluğu sevirəm. Mən də xeyir-dua verdim. Belə oldu.

**-Neçə ildi hərbidə işləyirdi?**

-8 ildi hərbidə işləyirdi. Orta məktəbi bitirdikdən sonra Naxçıvanda N saylı hərbi hissədə qulluq elədi. Ordan xidməti başa vurduqdan sonra qayıdaraq tank bölməsində müddətdən artıq həqiqi hərbi xidmətə düzeldi. Xidmət etdiyi hərbi hissədə yoldaşları arasında böyük xətir-hörmətə sahib idi. Elmir tuşlayıcı operator vəzifəsində çalışırdı. Bakıda tuşlayicilar arasında keçirilən yarışın ikiqat qalibi olmuşdu. Rusiyanın Moskva şəhərində keçiriləcək beynəlxalq yarışa getməyə hazırlaşırdı. Vətən müharibəsinin başlanması səbəbindən ona bu yarışa getmək nəsib olmadı.

Elmir aprel döyüşlərində də böyük nailiyyətlər qazanmışdır.Bu döyüşlərdə düşmən ordusunun dəqiq zərbə ilə üç tankını məhv etmişdir.

Vətən müharibəsində öz tankı vurulduqdan sonra oradan sağ çıxsa da, amma geri qayıtmayıb. Digər bir tanka minərək Füzuli rayonu Qorqan kəndinə qədər irelileyiblər.

**- Şəhid xəbəri nə vaxt gəldi?**

- Bunlar birinci eşalonu yararaq aşağı Seyidəhmədli,Əbdurrəhmanli və Qorqan qədər irəlilədilər. Elə həmin istiqamətdə də Sentyabr ayının 27-də şəhadətə ucalmışdı. Amma biz onun ölüm xəbərini oktyabr ayının 28-də aldıq. Onun nəşi bir ay neytralda qalmışdı. Tankdan çıxarmaq mümkün olmurdu. Dəfələrlə aid olduğu hərbi hissəyə müraciət etsəm də, mənə dəqiq cavab verilmirdi. Bildirildi ki, səbirli olun. Nəhayət, övladımın nəşi oktyabr ayının 28-də mənə təhvil verildi.

Nə qədər ki,Elmir kimi oğullarımız var bu məmləkət daim var olacaq.

**Nəvai Bayram oğlu**

*Emin Piri*

# Zamanın bayraqdarı



*"Bayrakları bayrak yapan üstündeki kandır*
*Toprak eğer uğrunda ölen varsa vatandır"*

*Türk şairi Mithat Camal Kuntayın dediyi kimi, bayrağı şərəf-ləyaqət simvoluna çevirən, onu özündən bir hissə, namusun bilmənə səbəb onun təmsil etdiyi ölkə, dövlət uğrunda aparılan savaş, mübarizədir. O mübarizə ki, onun dalğalanması, görüntüsü ruhunda azacıq həssaslıq, sevgi olan şəxsdə qürur toxumlarını cücərdir. Öz uğurun kimi şərəf, ləyaqət hissinə boğulursan.*

*Bu qürur toxumunu cücərdən isə o bayrağın hər rəngi, hər sm üçün vətən oğullarının, qızlarının apardığı mübarizə, tökdüyü qanlar, axıtdığı tərdir.*

*İstər Çar Rusiyasının müstəmələkə sistemindən çıxaraq əzablı yollarla addımlarkən, istərsə sovet işğalı dövründə ziyalıların beyindən-beyinə, ürəkdən ürəyə ötürülən üçrəngli bayraq Azərbaycan xalqının genetik yaddaşına, bir növ səcdəgahına çevrilib.*

*İstər 1988-ci ildən başlayan xalq hərəkatı dövründə, istərsə müstəqillik illərinin ağrılı, əzablı, istərsə qürurlu günlərində qəlb köynəyimiz olub. Hər rəngi müqəddəsləşən bayraq damarımızda üçrəngli qana çevrilib.*

## Zamanın bayraqdarı: Lələtəpə

*Uğrunda canlar keçildikcə bu bayraq sadəcə bir parça deyil, canımızdan bir parçaya dönür. Simvolik anlamdan dalğalandığı, dalğalanmasını istədiyimiz, bütün yerlər vətənləşir.*

*Bayraq özü də bir vətənə çevrilir.*

*2016-cı il aprel döyüşləri zamanı Lələtəpə yüksəkliyi bir təpə olmaqdan əlavə bir simvol idi. Xalqın məğlubluq simptomlarını üzərindən atdı, qırılmış qürurunu özünə qaytardı. Lələtəpə üzərində dalğalanan bayraqla daha da böyük anlam, simvolluq daşımağa başladı. O yüksəklik, Lələtəpə zamanın bayraqdarıdır.*

*Öz bayraqdarlığı ilə şəhidliyin, mübarizliyin rəmzidir. O rəmz ki, vətən oğullarının qanını, vətən eşqini, alın tərini tərənnüm edir.*

## Taleyin qisası?!

*Cümhuriyyət dövründə erməni təsirləri, basqınları, mübahisəli ərazi problemləri ucbatından Naxçıvanda baş verən özbaşnalıqlar bayrağımızın orada dalğalanmasını gecikdirir və ya buna imkan vermirdi.*

*Taleyin ironiyasına bax ki, xalq hərəkatından sonra bu bayraq ilk olaraq elə Naxçıvanda rəsmi olaraq dalğalandı. Bəlkə də tarixin haqlı, ədalətli qisası idi.*

*Azərbaycan Xalq Cümhuriyyətinin 9 noyabr 1918-ci ildə qəbul etdiyi üçrəngli bayraq ikinci dəfə Naxçıvanda - 1990-cı il noyabrın 17-də ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə muxtar respublikanın Dövlət Bayrağı kimi qəbul olunub. Azərbaycan SSR-dəsə bu yalnız 1991-ci ilin 5 fevralından etibarən qüvvəyə mindi.*

## *TÜRKÜN BAYRAĞINI KÜLƏKDƏN ÖNCƏ*

*Şərqdə ilk demokratik cümhuriyyəti quranlar, qadın azadlığı, insan haqları yolunda addımlarıyla bir karvan önündə gedən sarvan rolunu oynamış Azərbaycan qısqanılmalı deyil, qürur duyulası bir məbəd olmalıdır.*

*Türk dünyasının zəfər çağlarının, dövlət uğurlarının tarixən yaşandığı bu torpaqlar.*

*Türk dünyasının bir parçası, türk bayrağını ucaldığı Azərbaycan.*

*Şair Sabir Yusifoğlunun söylədiyi kimi:*

*Türkün bayrağını küləkdən öncə*
*Başların üstündə yellədən qandı.*
*Günəşdən süzülən işıq selitək,*
*Doğudan Batıya yol gedən qandı.*

*Dünyanın yolları alın yazımız,*
*Dünyanın hər günü bu qandan keçib.*
*Türkün bayrağından keçən olmayıb,*
*Əyilib altından yüz dövran keçib.*

*Silməz yaddaşından batan qanları,*
*Zamanın hökmüylə barışan deyil.*
*Tamam bambaşqadı qan qrupumuz,*
*Hər axıb gedənlə qarışan deyil.*

*İçimdə yalquzaq yanğısı ilə*
*Ulayan həsrətdən qaynayır qanım.*
*Ayı-ulduzuyla göz qamaşdıran*
*Günəş parçasına oynayır qanım.*

*Türkün bayrağını küləkdən öncə*
*Başların üstündə yellədən qandı.*
*Günəşdən süzülən işıq selitək,*
*Doğudan Batıya yol gedən qandı.*

## Şəhidlərin qanıyla aydınlanan tarix

*Hər nə qədər bayraqdakı qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə müasirləşməni, inkişafa istəyi ifadə etsə də xalq arasında qırmızı rəng şəhidlərin qanıdır deyə də simvolizə olunur. Qırmızı rəng üzərində aypara və ulduz.*

*Gecə düşərkən şəhidlərin qanı üzərinə düşən aypara o qanı aydınladır, xalqa keçmişini, gəldiyi yolu parıldayan şəhid qanıyla xatırladır...*

## Birlik, bütövlük rəmzi

*İstər Səfəvi dövlətini qurarkən talış, türk həmrəyliyi, istər müasir dövrdə Qarabağ savaşında qanların, tərlərin qarışması bu bayrağı bir bütünlük, bütövlük rəmzinə çevirir.*

*Ləzgisiylə, talışıyla, kürdüylə, avarıyla, yəhudisiylə və.s.i bu bayrağı bərabərlik, birlik, qardaşlıq simvoluna çevirir.*

*Onun uğrunda vuruşan hər kəs onun bayraqdarıdır.*

*26 iyun-Silahlı Qüvvələr Günü münasibətiylə hər birinizi təbrik edirəm.*

*Yazarın arxivi.*
*İyun, 2020*

# Öldürə bilməyən ölüm

**(I Qarabağ savaşında şəhid olmuş əziz dayım oğlu Əlfinin xatirəsinə elegiya)**

**Toyunu gözləyirdim. Şad xəbərini eşidib sevinmək həvəsindəydim... Sən dəlidolu, sevinc, şadlıq, nikbinlik müjdəsiydin... Dünyanın ən qayğısız varlığıtək elə hey deyir, gülürdün. Üz-gözündən gülüş, təbəssüm əskik olmurdu.**

... Sən ölümü düşünmür, görmürdün(Bu cavan yaşda axı ölümü kim fikirləşir ki!) O isə lap başının üzərindəymiş. Elə sən doğulandan arxanca gəzir, hər addımını izləyirmiş(Ölüm sən demə, istənilən zaman biz yaşda olur). Və ölüm bir himə bənd imiş. İmkan, qəfil fürsət gözləyirmiş ki, kəsə başının üstünü.

Ölüm qəfil girdi aramıza. Qoymadı doyunca bu torpaqda gəzib, həyatın əsl mənasını anlayasan.

Çətin olsa da kövrək, uşaq tək yumşaq, məsum



dayım möhkəm dayanıb, bərk durub. Bu amansız, zalım ölümün kürəyini "yerə vurub". Yoxsa dözməz, tab gətirə bilməzdi bu əbədi ayrılığa. Ayrılıq bəlkə də ölümün bədii adıdır.Nə bilim... Bircə onu bilirəm ki, yaxınının ölümünü hər kəs tam yaşaya bilmir.

Ah çəkməklə dərd çıxmır candan. Dərdi çəkməlisən. O, sənindir, həmişə səninlədir. Dərdin müalicəsi mövcud deyil. O, müalicə olunmur. O, ömrün sonunadək səninlə yanaşı addımlayacaq.

Sənsiz darıxır, yaşaya bilmirdimi, bu torpaq. Torpaq niyə tələsdi, bu namərd ölüm küləyi hardan əsdi:

*Ay ellər ovucla qanımı içən,*
*Yağı düşmənim də məyus olmasın.*
*Axsın göz yaşı sel tək sevincdən,*
*Kimsənin qəm üçün gözü dolmasın.*

Mən sevinc gözləyirdim. Ürəkdən şadlanmaq həvəsindəydim. Amma, sən saydığını say, gör fələk nə sayır, qardaş. Kabus rəngli ölüm kağızın gəldi. Bir söz yaxın düşə bilmədi dilimə. Sevgidən nifrətə bir addımdırsa, sən demə olumdan ölümə qədər olan yol bundan da az, yaxın imiş. Hərə bir ömür yaşayır bu dünyada. Göz qırpımını xatırladan bir ömür. Amma kim və necə yaşayır? Bax bu sualdır hələ, qardaş! Vətən, torpaq yolunda canını fəda etmək ölüm deyil, vallah. Bu müqəddəsliyin ən əlçatmaz, ünyetməz zirvəsinə ucalmaqdır. Zirvədə də hər şey qürurlu, sınmaz, qırılmaz, yenilməzdir. Orda hər şey azaddır, sonsuzdur:

*İnsan insan olur öz hünəriylə,*
*Millət millət olur xeyri, şəriylə,*
*Torpağın bağrına cəsədləriylə,*
*Azadlıq toxumu əkdi şəhidlər.*

İndi sən bizi cismən tərk etsən də əziz xatirən həmişə qəlbimizdə, yaddaşımızın aynasındadır.

Qədirbilən xalqımız mərd, igid, qeyrətli oğullarını heç zaman unutmur, onların xatirəsini əziz tutur,ehtiramla yad edir... Kəndimizdəki, vaxtı ilə sən oxuduğun orta məktəbə sənin adın verilib. Məktəbin həyətində üzündə o qayğılı günləri yaşayan, sifət cizgilərinə Vətən ruhlu ağır bir dərd yükü hopmuş büstün qoyulub. Balaca həmkəndlilərimiz, şagirdlər büstünün önündən qırmızı qərənfilləri əskik etmirlər. Onlar mərasimlərdə burda toplaşır, sabahın vətənpərvərləri, səni olacaqlarına and içirlər. Onlara baxır, belə qeyrətli övladları olan Vətənin həmişə azad nəfəs alacağına bir daha inanırsan.

Dayıma baxıram. Qəlbinə, ruhuna yaxşı bələdəm. Bilirəm ki, təkcə sənə yox, torpaq uğrunda şəhid olan bütün şəhidlərimizə görə dərdli, nisgillidir. O, balasını anır və millətinə yanır. Artıq azad nəfəs alan torpaqlarımızın azadlıq müjdəsi onu ovundurur. Məlhəm olur yarasına.

...Ayrılarkən dayıma təsəlliverici bir söz deyə, tapa bilmədim.

Bəzən elə şeylər var ki, onları sözlə ifadə etmək mümkün olmur. Hətta dilin zənginliyi belə, köməyinə çata bilmir. Axı necə deyəydim ki, Allah səbr versin, son qəmin olsun dayı. Deyə bilmədim, dilim gəlmədi. Elə demək məncə oğlunu unut deməkdir. Bunu səmanın ənginliyində dolaşan ruhun bağışlamazdı mənə. Axı sən ölməmisən , qardaş! Müqəddəssən! Müqəddəssən ağuşuna əbədi qovuşduğun bu torpaq kimi.

Heç özüm də bilmirəm ağlıma nələr gəldi, nə düşündüm. Təkcə pıçıldadığım misralar yadıma düşür:

*Sevmək*
*sevilməkdən asan.*
*Gülmək*
*ağlamaqdan asan.*
*Ölmək*
*doğulmaqdan asan.*
*Təkcə yaşamaq ağır, çətin...*

**Adil MİSİRLİ**

# Yanğınlar nədən yaranır?

## Son vaxtlar meşələrin və taxıl sahələrinin yanması böyük narahatlıq yaradır

**Havaların istiləşməsi bir tərəfdən işimizi asanlaşdırsa da, digər tərəfdən müəyyən çətinliklərin yaranmasına gətirib çıxarır. Heç kimə sirr deyildir ki, isti havalarda meşələrin, taxıl sahələrinin və biçənəklərin tez yanma ehtimalı mövcuddur. Belə ki, otlar quruduğuna və hava da çox isti keçdiyinə görə hər hansı qığılcımdan, siqaret kötüyünün yerə atılmasından yanğınların baş verməsi qaçılmaz olur.**

Hər il yay vaxtı respublikamızın ərazisindəki meşə zolaqlarında, taxıl sahələrində, biçənəklərdə yanğınların tez-tez baş verməsi adi hala çevrilib. Bəs necə etmək lazımdır ki, heç olmasa isti yay günlərində yanğınların əhatə dairəsi daha da genişlənməsin, təbiətimizə və meşə zolaqlarımıza, eləcə də təsərrüfatlarımıza ziyan dəyməsin?!





Təbii ki, bu suala birmənalı cavab vermək mümkün deyil. Ən azından ona görə ki, bir çox halda məsuliyyətsiz insanların və ayrı-ayrı şəxslərin diqqətsizliyi nəticəsində bu cür yanğınlara münbit şərait yaranır. Elə bir il olmaz ki, Fövqəladə Hallar Nazirliyinin Yanğından Mühafizə Qurumunun və eləcə də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları yay vaxtı insanlar arasında maarifləndirmə və izahat işləri aparmasınlar. Bu izahat işləri həm sahibkarlar arasında, həm də insanlar arasında davamlı olaraq aparılıb. Düzdür, bundan nəticə çıxaranlar da var. Amma deyəsən, nəticə çıxarmayanlar daha çoxdur. Əgər belə olmasaydı, son 10-15 gündə respublikamızın meşə zolaqlarında, taxıl sahələrində və biçənəklərdə yenidən yanğınlar tüğyan eləməzdi.

Hansısa bir ailə, hansısa bir insan isti günlərdə meşəyə istirahətə gedir, orda ocaq qalayır, kabab bişirir, samovara od salır, yaxşıca istirahət edir, evə qayıdanda isə nə ocağı söndürür, nə də ocaqda qalan közü. Bir balaca külək əsən kimi də ocaqdakı közü qurumuş otların arasına aparır və nəticədə meşə yanğını baş verir. Meşə yanğını olanda da onun əhatə dairəsi daha da genişlənir. Xüsusən də dağlıq yerlərdə olan meşələrdə yanğını söndürmək çox müşkül bir məsələdir.

Bir çox halda həmin yanğını söndürmək üçün helikopterlərdən və təyyarələrdən istifadə olunur. Amma görürsən ki, görülmüş ciddi tədbirlərə baxmayaraq, bu cür yanğınları söndürmək günlərlə, həftələrlə vaxt aparır. Düzdür, onu söndürmək gec-tez mümkündü. Ancaq bu məsələlər çox çətinliklə öz həllini tapır.

Bir neçə gün bundan əvvəl Şəki rayonunda biçilmiş və biçilməmiş taxıl sahələrinə od düşüb. Yanğının Fövqəladə Hallar Nazirliyinin əlaqədar qurumu vaxtında söndürməyi bacarıb. Görünən odur ki, maariflənmə və təbliğat işlərinə baxmayaraq əhali arasında bu məsələlərə barmaqarası yanaşan insanlar hələ də az deyil. Çünki kimsə maşınla, ya da piyada taxıl sahəsinin yanından keçərkən siqaret kötüyünü söndürməyə ərinir və onu pəncərədən tullayır. Bu cür səhlənkar hadisələr isə nəticədə hektarlarla taxıl sahəsinin yanmasına gətirib çıxarır. Hansısa fermerin il boyu çox çətinliklə becərdiyi taxılı bir göz qırpımında, bir məsuliyyətsiz adamın səhlənkarlığı məhv edir. Görün, indi bu nə qədər həmin fermerə ziyan vurur.

Hələ də bir məsələni anlamaq mümkün deyil. Ən azı ona görə ki, insanlar bir çox halda vətəndaş məsuliyyətini yaddan çıxarırlar. Yaddan çıxarırlar ki, meşəyə gedəndə, taxıl sahələrinin yanından keçəndə, biçənəklərdə olanda siqaret kötüyünü yana-yana ətrafa atmaq çox böyük təhlükədir. O qədər böyük təhlükədir ki, bu bizim meşələrimizə, taxılçılıq sahəsinə milyonlarla manat ziyan vura bilər. Məgər bunu anlamaq, məgər bunu başa düşmək bu qədər çətindir?!

Bizim fikrimizcə, burda çətin bir şey yoxdur. Sadəcə olaraq, hər bir insan o meşəni, o taxıl sahəsini, o biçənəkləri özününkü kimi təsəvvür etməlidi. Ta düşünməli deyil ki, əşşi, mənə nə?! Yanan mənim sahəm deyil ki?! Təbii ki, bu düşüncə ilə təbiətimizə, meşələrimizə, taxılçılığımıza yanaşmaq bizi çox çətin problemlərlə üzləşdirə bilər. Yəni, meşələr yanırsa, ağaclar, təbiətin ”ağciyəri” məhv olur. Taxıl sahəsi od tutubsa, çörəyimizin qıtlığı gözlənə bilər.

Ona görə də kimliyindən asılı olmayaraq meşələrə, taxıl sahələrinə, biçənəklərə gedəndə diqqətli olmalı, çəkib söndürmədikləri siqaret kötüklərini hara gəldi tullamamalıdılar. Təbii ki, bu hərəkətlərə görə inzibati tənbeh və cinayət məsuliyyəti də var. Əgər hüquq-mühafizə orqanları araşdırsalar ki, meşəni, taxıl sahəsini kimsə qəsdən yandırıb, onun barəsində həbs qətiimkan tədbiri seçilir və məhkəmənin hökmü ilə cəza təyin edilərək həbsxanaya göndərilir.

**Biz bu hadisələrin hüquqi tərəfini də xatırlayırıq ki, vətəndaşlarımız ya bilərəkdən, ya da bilməyərəkdən bu cür hadisələrə rəvac verməsinlər. Çünki meşənin, taxıl sahələrinin, biçənəklərin yanması bizim iqtisadiyyatımıza, ekologiyamıza və kənd təsərrüfatımıza dəyən çox ağır zərbədir. Gəlin, birlikdə adını sadaladığımız bu sahəni yanğınlardan qoruyaq!**

**Faiq QİSMƏTOĞLU**

# "Bəxtinizi bir daha sınayın..."

**Yəqin ki, sosial şəbəkələrdə tez-tez onlayn lotoreya elanları çıxır. Guya Azərbaycanda kimsə onlayn lotoreyada 100 min manat olub. Bəzən bu oyunlarda məşhur simaların iştirak edilməsi və yüksək əbləğdə pul udması iddia olunur. Bundan başqa internet ünvanınıza da tez-tez gələn mesajlarda bildirilir ki, adınız bir neçə seçilmiş şəxs arasında qalib olub və bir neçə yüz min dollar mükafat qazanmısınız. Bu pulun alınması müqabilində isə sənədləşmə işlərinə sizin bank hesabınıza transfer etmək üçün müəyyən miqdarda vəsaitin köçürülməsini tələb edirlər. Bu mesajlar müxtəlif adlarla- Yeni il Bayramı, Futbol üzrə Dünya Çempionatı, Facebook oyunları və s. yüzlərlə adlarla göndərilə bilər. Lotoreya nümünələrinə isə internet üzərində xeyli sayda rast gəlmək mümkündür. Sadəcə axtarış sistemlərində "Lottery scams" yazmağınız kifayət edir. Əgər hər hansı biriniz bu tip mesajlarla qarşılaşdınızsa, birmənalı olaraq gözardı etməyiniz tövsiyyə olunur.**

Lotereya italyan sözü olub, bizim dildə "bəxt" miənasını verir. Mütəxəssislər demək olar ki, bütün Avropa dillərində kökü "lot" olan sözlər çox olsa da, bütün dünya əhalisi bu sözü başa düşür, həm sevir, həm də ona nifrət edir...

Lotereya püşk nəticəsində təsadüfən ortalığa çıxan nömrələrdən bəhrələnən qumar oyunudur. Avropada rəsmi rəqəmlər lotoreyanın 1466-cı ili göstərsə də, çox qədimlərə gedib çıxır. Çünki qumarın yaranışı dərrakəli insanla yəni, "homo-sapiens"lə bir vaxta düşüb desək, bəlkə də yanılmarıq. Çünki insan həmişə başqasını hər hansı vasitə ilə aldadıb əllindəkiləri alıb. Alimlərin fikrincə, qədim yunan mifiologiyasında lotoreya məsələsinə toxunulur. Miflərdə deyilir ki, Zefslə döyüşəcək döyüşçünü ayırd etmək üçün döyüşçülər qızıl dəbilqədəki daşları çəkirdilər.

***Bibiliyada da püşk məsələsinə toxunulub: "Allah Musaya İsrail oğullarını saymağa və püşkə onların arasında İordanın səhralarında dolaşmaq vaxtlarını müəyyən etmək əmrini verdi".***

***Qədim Romada və Çində lotereyanın ilkin variantları barədə tarixi qaynaqlardan məlumat əldə etmək mümkündür. Məlumatlara görə, eramızdan 100 il əvvəl Çini idarə edən Xan sülaləsi "KENO" oyununu xatırladan lotereya təşkil edilib. Buradan əldə edilən vəsait ölkənin müdafiəsinə, həmsiinin Çin divarının hörülməsinə sərf olunub.***

Eramızdan əvvəl Romada İmperator Avqustun göstərişi ilə ictimai lotoreyalar keçirilirdi. Buradan əldə edilən vəsait Romanın abadlaşdırılmasına, yolların, körpülərin çəkilməsinə, binaların təmirinə xərclənib. Bundan başqa, bayramlarda "plebey"lərə "xoşbəxtlik kağızları" paylanırdı.

Azərbaycanda ilk rəsmi lotoreyalar Çar Rusiyasının dövrünə təsadüf edir. Kommunistlər hakimiyyəti zəbt edən kimi, 1918-ci ildə lotoreyanın burjuaziya qalığı elan edərək Xalq Komissarları Sovetinin dekreti ilə ləğv ediblər. Lakin 1921-ci ildə onun keçirilməsinə yenilən icazə verilir.

SSRİ-də lotereyaların təşkili dövlətin inhisarında idi. Lotoreyaları partiya, komsomol və həmkarlar ittifaqlarının aktivistlərinin arasında həvəsləndirici mükafat kimi yayırdılar. Ayda bir dəfə keçirilən lotoreyalarda uduşlar 30 qəpikdən başlayıb "Moskviç" və "Jiquli" avtomobilinə qədər qalxırdı...

***Sovet lotereyaları tarixində ən məşhuru "Sportloto" idi. Bu lotoreyada böyük məbləğlər oynadığından əhali buna çox maraq göstərirdi. 20 il fəaliyyətdə olan "Sportloto" lotereyası 500 milyard rubl dövlətə gəlir verdi və 1980-ci ildə Moskva Olimpiadasının maliyyələşdirilməsində əhəmiyyətli rolu oynadı.***

Bu gün Avropada uduş fondu 100 milyon avro ilə ölçülən lotoreyalar oynanılır. Bunlardan "EuroMillions", İtaliyanın "SuperEnalotto", İspaniyanın "El Gordo", "La Primitiva", Böyük Britaniyanın milli Lotereyası "U.K. National Lottery", Almaniyanın "Germany Lotto 6?49", Fransanın "France Loto"nu misal çəkə bilərik.

### İnadkarlıq...

Uğur çox sürüşkən şeydir, hər kəsə onun quyruğundan tutmaq qismət olmur. Xüsusən də, söhbət böyük miqyaslı uğurdan gedirsə, iş daha da çətinləşir.

Xorvatiyanın Dubrovnik şəhərinin sakini sübut edib ki, uzun illər səbrlə gözlədikdən sonra uğur əldə etmək mümkündür. 30 yaşlı xorvatiyalı 30 il lotoreya oynayıb və nəhayət ki, uğur onun üzünə gülüb. O, 30 il ərzində o hər həftə lotoreya bileti alıb. Bu optimistin qəribə bir planı olub. 30 il ərzində, uğur qazanana qədər, o hər həftə lotoreya biletində eyni işarələri qeyd edib.

***Kimin ağlına gələrdi ki, inadkar oyunçunun cəhdləri bir gün öz sözünü deyəcək. Heç yarım əsr keçməmiş, "Xorvatiya Lotoreyası"nın rəsmiləri onun kombinasiyasının uğur qazandığını deyiblər. Beləliklə, Dubrovnik sakininin 4 dollarlıq lotoreya bileti "Cek Pot" udub və 2.3 milyon dollar qazanıb. Doğrudur, onun bu illər ərzində lotoreya biletlərinə nə qədər pul xərcləməsi də heç kimə bəlli deyil...***

Qərb mətbuatı yekdil şəkildə Dubrovnik sakinini dünyanın ən xoşbəxt adamı adlandırıb. Dubrovnik sakini etiraf edib ki, bütün bu illər ərzində dostları onun cəhdlərini boş vaxt itkisi adlandırırdı. Amma bu onu həvəsdən salmayıb və o yenə uzun illər boyu lotoreya biletində öz ailəsinin həyatındakı vacib günləri simvolizə edən şifrələri işarələməkdə davam edib.

Dünyanın ən xoşbəxt adamı lotoreyada qazandığı pulları da öz ailəsinin və yaxınlarının həyat şəraitini yaxşılaşdırmaq üçün istifadə edəcəyini deyib.

Lotoreya tarixindən ən şanslı qalib isə Rumıniya sakini Mandeldir. 14 dəfə çekpot udan Mandel bütün qazanclarını sadəcə bəxtinə borclu deyil. İxtisasca iqtisadçı olan bu şəxs lotereyada qalib olmaq üçün xüsusi formul hazırlayıb. Bu formul 6 addımdan ibarət olmaqla sistemi yanıltmağa imkan verirdi.

***Mandel adlı bu şəxsin ilk iki lotereya uduşu vətəni Rumıniyada baş tutub. Həmin vaxtlar onun maaşı cəmi 88 dollar təşkil edirdi. Sonrakı 12 lotereya qalibiyyəti isə İsraildə olarkən baş tutub. Mandel lotareyada qalib gəlmək üçün maraqlı üsula əl atıb. O, lotareyaları toplu şəkildə alaraq öz evində onların kopiyasını çıxarırmış və onların kombinasiyasını yaradırmış. Onun hiyləsindən xəbər tutduqdan sonra Mandeli İsraildə 20 ay müddətinə azadlıqdan məhrum edirlər. İşin maraqlı tərəfi ondan ibarətdir ki, onun bu davranışı qanun pozuntusu sayılmırdı. Lakin Mandelin uğurlarından sonra Amerika və Avstraliya kimi ölkələr lotareyada olan belə fırıldaqları qanunla nizamladı və cəza tətbiq etməyə başladı. Amma Mandel öz məqsədinə çoxdan nail olmuşdu. Beləki, 14 dəfə qalib gəldikdən sonra o, təqaüdə çıxmış və Sakit Okean sahillərindəki adalardan birində özünə yeni həyat qurmuşdu.***

Onun uğurunun sirri nə idi? 1 ilə 40 arasında altılı kombinasiyanı təyin etmək. Bu isə öz növbəsində 3 838 380 kombinasiya deməkdir.

Cek pot dəyəri mümkün kombinasiyadan 3 dəfə çox olan lotereyaları tapmaq.

Bütün kombinasiyaları almaq üçün yetərincə pul toplamaq. Mandel Virciniya ştatındakı lotereyanı qazanmaq üçün bu işə 2524 investor cəlb etməyə nail ola bilmişdi.

Kombinasiyaların hamısının əks olunduğu lotereyaları dərc etmək. Əvvəl bu qanuni sayılsa da indi həbs olunmağı gözə almalısınız.

Biletləri səlahiyyətli bilet dilerlərinə vermək...




### "Milli piyanqo..."

***Azərbaycan müstəqillik əldə edəndən sonra keçid dövründə yaşanan kasıbçılıq insanları lotreyalara bağladı, desək, yanılmarıq. Hazırda respublikamızda "5 /36", "Bingo", "Ailə Sevinci", "Uğur" kimi lotoreyalar oynanılırdı ki, bunların da cek-potu 100 min manatı nadir hallarda keçirdi. Hazırda "5/36", ""6/60", "4+4" lotoreyaları oynanılır ki, son illərdə 200-300 min manat məbləğində udanlar olub.. Bunların həm də onlayn variantı var.***

Psixoloq Vuqar Səlimovun fikrincə, lotoreyanın qumardan fərqi dövlət tərəfindən rəsmiləşdirilməsidir. Bu səbəbdən, o, təhlükəsiz qumar növu sayılır. İnsanlar az pul verib çox pul qazanmaq ümidi ilə lotoreyalara özləri də bilmədən çoxlu vəsait sərf edlirlər. Bu da təbiidir, ən azından nəsə udmaq ehtimalı realdır. Amma kazinolar da insanlar mütləq uduzurlar... Eyni zamanda, lotoreyalar idarə olunandır. Bir çoxları nəsə udmaq ümidini tam itirəndən sonra bundan əl çəkir. Çünki bu kimi azart oyunlar insanda asılılıq yaradır. Mən yenə də belə bir asılılığın əleyhinəyəm. Lotoreyalar var ki, rəsmidir, hökümət tərəfindən həyata keçirilir və uduş hər hansı bir xeyriyyəyə sərf olunur. Ancaq bu lotoreyalar insanı bir növ özündən asılı salır. Lotoreyalar insanda utopik təxəyyülərin yaranmasına səbəb olur. Bun da onda bir tənbəllik, fəaliyyətsizlik yaradır. Birdən-birə nəsə əldə etmək təbİi ki, qeyri-mümkündür. "

***Əslində lotoreyaya bağlılıq asılılıqdan çox inadkarlıq təcəssümüdür. Bu insanların inadkarlığını öyrənmək üçün paytaxtdakı bir sıra lotoreya satış mərkəzinə baş çəkdik.***

***Həqiqətən də milyonda bir ehtimala baxmayaraq insanlar bu işdə uğur qazanacaqlarına böyük ümid edirlərmiş. Onların inadkarlığı isə lotoreya satıcılarını karına gəlir.***

Bu işlərinə görə "Azərlotoreya" şirkətindən ayda müəyyən məvacib alsalar da, satdıqları biletlərin sayından asılı olaraq faiz onlara çatır.

Lotoreyaya həvəs göstərənlərdən indiyədək hansı uduşu əldə etdiklərin soruşuruq.

Özünü Elnur Quliyev kimi təqdim edən şəxs 5 ildən bəri hər həftə xobbi üçün lotoreya alıdığını, indiyədək bir qəpik də udmadığını söylədi.

Səma İsmayılova hər dəfə lotoreya bileti alır, Lakin onda bu həfəvi yaradan amil isə hərdən bir qəpik-quruş udmasıdır.

**Təqaüdçü İftixar kişi lotoreya satıcısıdır, amma özü SSRİ dağılandan sonra bir dəfə də olsun bəxtini sınamayıb: "Özüm lotoreya satıram, amma heç vaxt almıram. SSRİ dövründə oynayırdım, maşın da udmuşdum".**

**İLTİFAT**

## ABŞ İrana aid 36 saytın domenini bloklayıb




***ABŞ İrana tətbiq etdiyi sanksiyaları pozduqları üçün İslam Respublikasının Televiziya və Radio Təşkilatının istifadə etdiyi 33 və ”Kataib Hizbullah” tərəfindən idarə edilən 3 internet saytını bloklayıb.***

***”TRTHaber” xəbər verir ki, məlumatı ABŞ-ın Ədliyyə Nazirliyi yayıb.***

***Bildirilib ki, nazirlik həbs qoyulanlar arasında İran teleradio şitkərinə aid ərəb və ingilis dillərində fəaliyyət göstərən bir sıra internet saytının olduğunu təsdiqləyib.***

***ABŞ-ın Xarici Aktivləri Mühafizə İdarəsi (OFAC) 2020-ci il oktyabrın 22-də İran İnqilab Keçikçiləri Qvardiyasının Qüds qoşunu tərəfindən idarə edilən İRTVU-ya (İran radio-televiziyaları birliyi) sanksiya tətbiq etdiyindən ona bağlı internet saytları da domen xidmətindən istifadə edə bilməyəcək.***

***OFAC 2009-cu iyulun 2-də ”Kataib Hizbullah”ı sanksiya tətbiq edilənlər siyahısına daxil edib. ABŞ Dövlət Departamenti isə onu terrorçu qruplaşma olaraq tanıyıb.***

***Hesablarına və domeninə həbs qoyulan 3 internet saytı OFAC-ın lisenziyasına malik deyillər. Həbs edilən saytları ABŞ-ın Ticarət Nazirliyi Sənaye və Təhlükəsizlik ofisi, İxracat Tətbiqat Ofisi və Federal Təhqiqat Bürosu (FBİ) tərəfindən araşdırılıb. Bundan sonra ABŞ-ın Kəşfiyyat və İxracata nəzarət Milli Təhlükəsizlik qurumu həmin saytlara həbs qoyub.***

***”Fars” xəbər agentliyinin yaydığı məlumata görə, İranın dövlət televiziyasına aid ingilis dilində verilişlər yayan ”Pres TV” və ərəbcə verilişlər yayan ”Al Alam”, Yəməndə husi qiyamçılarına aid ”Aə Mesira” kanallarının internet saytlarının domenlərinə də ABŞ tərəfindən qadağa qoyulub.***

***MEHRİBAN***

# Şair, yazıçı, ifaçı, bəstəkar



Əhsən Rəhmanlı,
sənətşünaslıq üzrə fəlsəfə doktoru

**Tarixən Azərbacanda nadir istedada, böyük zəkaya, müxtəlif yönümlü biliyə, mükəmməl bacarığa malik insanlar yetişərək ədəbiyyata, incəsənətə və musiqi mədəniyyətinə öz töhfələrini vermişlər. Xalqımız, vətənimiz bu barədə sevinə, qürurlana, öyünə, böyük fərəh hissilə yaşaya bilər. Adları və misilsiz xidmətləri ilə tarixdə yaşayan elə musiqi xadimlərimiz olmuşdur ki, onlar muğamları, ədəbiyyatı, qəzəliyyatı dərindən bilmiş, musiqi əsərləri, muğam şöbə və guşələri, dəramədlər, təsniflər, rənglər, diringilər yaradaraq ifa etmiş, hətta notlaşdıraraq özlərindən sonrakı dövrlərə ötürmüşlər. Bu barədə daha dərin mahiyyətə malik iş görən, musiqi tariximizdə dərin iz salan, sanballı şalışan Səfiəddin Urməvi (1216-1294) və Əbdül Qadir Marağalının (1353-1435) sonrakı dövrlərdə davamçıları da olmuşdur. Dahi Üzeyir Hacıbəyli (1895-1948) zəngin, məhsuldar və nümunəvi, hərtərəfli, zəngin ömür yaşayaraq ədəbiyyatda dərin iz salmış, milli musiqimizi ucalara qaldıraraq bəstələdiyi mahnıları, romansları və milli operaları ilə incəsənətimizi dünyaya tanıtmışdır.**

Klassik xanəndələrimizdən Mirzə Məhəmməd Həsən Fələkzadə Şirvani (1851-1917) qəzəllər yazmış, təsniflər bəstələyərək oxumuş və muğam sənətini zənginləşdirmişdir. Şərqin böyük xanəndəsi sayılan Cabbar Qaryağdıoğlunun (1861-1944) şairliyi və mahnı bəstələmək qabiliyyəti də vardı. O, deyirdi ki, əruzu bilməyəndən xanəndə olmaz. Cabbarın sayagəlməz qədər təsnif və mahnıları yalnız öz repertuarında deyil, yaşadığı dövrün və davamçıları olan bütün xanəndələrin dilindən düşməmiş və onların səsində, nəfəsində, avazında səslənmişdir.

Xanəndə Hacıbaba Hüseynov (1919-1994) muğamlarımızı dərindən bilir, bu sahədə tədrisdə çalışır, xanəndələrin yetişməsində xüsusi xidmət göstərir, təsniflər bəstələyir və qəzəllər yazırdı. Həmin təsniflər və qəzəllərdən bu gün də istifadə olunur.

## Milli opera səhnəsində

***yaratdığı orbazlarla tarixdə və yaddaşlarda qalan görkəmli xanəndə Qulu Əsgərov (1928-1987) gözəl mahnılar bəstəkarı idi. Xanəndələr onun bəstələdiyi mahnıları hazırda da sevə-sevə oxuyurlar.***

Ustad xanəndə, xalq artisti Əlibaba Məmmədov (1930-sağ) zəngin yaradıcılıq yolu keçərək həm də müxtəlif şairlərin sözlərinə özünün də sayını bilmədiyi xeyli mahnılar və təsniflər bəstələmişdir. Bir zamanlar özünün oxuduğu bu zəngin material illərdir ki, əksər xanəndələrin və hazırda isə gənc sənətçilərin repertuarındadır. Ə.Məmmədov 1968-ci ildə Azərbaycan Dövlət Filarmoniyasında yaradıb rəhbərlik etdiyi "Hümayun" xalq çalğı alətləri ansamblının repertuarına özünün bəstələdiyi muğam dəramədləri və rənglərini də daxil etmişdi.

## Yazı müəllifi

***olaraq deyirəm ki, radio çıxışlarımın birində demişəm ki, Əlibaba Məmmədov azərbaycan xalqının çox böyük və məhsuldar çalışan mahnı bəstəkarıdır. Ölkəmizdə keçirilən bütün muğam müsabiqələrində əsasən Əlibaba müəllimin təsnifləri və mahnılarından istifadə olundu. Bu bir daha ona sübutdur ki, onun əsərləri həmişəyaşarlıq qazanıb.***

Xanəndə Novruz Feyzullayev (1932-2008) Güney Azərbaycanın Ərdəbil şəhərində doğulub. Uşaqlığı orada, gəncliyi İranın Tehran şəhərində keçib. O, Şah rejimi zamanı İranın rəqs ansamblının rəqqası-solisti olmaqla bərəbər, həm də Novruz Əfşar kimi tanınan məşhur xanəndə idi. İranda "Əfşar" muğamının ən yaxşı ifaçılarından biri olması ilə bağlı olaraq Novruza Əfşar tanıtması verilmişdi. Bu sətirlərin müəllifi 1994-1995-ci illərdə Tehranda səfərdə olarkən bu soydaşımızla bağlı tədqiqat aparmışdır.

***Qeyd: "Əfşar" İranda çox sevilən, populyar muğam olsa da, bizdə oxunmur. N.Feyzullayev ahıl çağlarında, ömrünün sonuna bir-iki il qalmış "Əfşar" dəstgah muğamını oxuyaraq milli rədiomuzun finduna təqdim etmişdir".***

Novruz Əfşar 1962-ci ildə valideynləri ilə birgə Qüzey Azərbaycana mühacirət edib, Bakıda məskunlaşıb və burada bir xanəndə kimi Feyzullyev soyadı ilə tanınıb. O, Əhsən Dadaşovun rəhbərlik etdiyi xalq çalğı alətləri ansmblının, 1970-ci illərdən "Hümayun" xalq çalğı alətləri ansamblının, 1980-ci illərdə isə İslam Rzayevin (1934-2008) rəhbəri olduğu instrumental ansamblın solisti olaraq ölkəmizdə məşhurluq qazanmışdır. O da istedadlı insanlarımızdan, yazıb yaradan xanəndələrimizdən biri idi. Novruz təsniflər və mahnılar bəstələyərək öz repertuarına daxil edir, radio fonduna yazdırır və AzTV-də canlı çıxışlar vasitəsilə təqdim edirdi. Sağlığında da və indi də onun mahnılarından və təsniflərindən istifadə edilir.

***Xalq artistləri Arif Babayev və Canəli Əkbərov bəstələdikləri təsnif və mahnıları nota köçürtdürərək məcmuə halında nəşr etdiriblər.***

Milli opera səhnəsində maraqlı obrazlar qalereyası yaradan, xüsusilə Məcnun rolunda özünü təsdiq edərək daha da məşhurlaşan, görkəmli sənətkar, xalq artisti Baba Mahmudoğlu (1940-2006) da yaradıcı insanlardan idi. Onun da bəstələdiyi təsnif və mahnılar var ki, o, bunları Sovet dövründə AzTV-də, mlli radioda, səhnələrdə xalq, aşıq mahnıları kmi təqdim edirdi. Əks təqdirdə bunların səslənməsinə imkan verilmirdi. Müstəqilliyin ilk dönəmindən başlayarsq onun da mahnıları müəllif kimi öz adı ilə təqdim olunmağa başladı. Bu sətirlərin müəllifi kimi qeyd edirəm ki, bütün bunların şahidi olmuşam. Belə ki, B.Mahmudoğlunun yaradıb rəhbərlik etdiyi "Dastan" folklor və "Misri" xalq çalğı alətləri ansambllarının instrumental ifaçısı və musiqi rəhbəri kimi onun bəstələdiyi mahnıların işlənməsi və aranjeman edilməsində xidmətim olub. Baba radio və televiziya fondu üçün oxuduğu "Bayatı-Şiraz" dəstgahına dəraməd və bir neçə rəng bəstələyib.

Xanəndə, xalq artisti Niyaməddin Musayev (1940-sağ) gənclik illərindən mahnılar bəstələmiş və oxumuşdur. Sovet dönəmində bəstəkarlıq təhsili olmayanların ekran-efirdə, səhnələrdə və bədii-kütləvi tədbirlərdə adları müəllif kimi qeyd olunmurdu. Niyaməddinin də mahnıları müstəqillik günümüzə qədər başqa həmkarları kimi xalq mahnısı və ya təsnif adı ilə elan olunurdu.

## Onun mahnıları

***xüsusilə son dövrlərdə gənc müğənnilər tərəfindən oxunur. Yəni bütün***



***mahnıları yaşamaqda və sevilməkdədir. Xalq artisti Məmmədbağır Bağırzadə (1950-2005) xanəndələr arasında yalnız təcrübəli, gözəl sənəkar olaraq deyil, həmçinin sözə, qəzəliyyata həssaslığı, bilikli olması, həm də diksiyası və usta ifası ilə seçilirdi. Onun bəstələyib oxuduğu bütün mahnılar populyar olur, dəbə düşür, toylara, səhnələrə yol alır və bütün gənc müğənnilərin səsində, nəfəsində və avazında səslənirdi. Məmmədbağır həm də qəzəllər yazırdı. Onun xüsusilə tematik mahnılarından hazırda daha çox istifadə olunur.***

Məqalənin girişində adlarını çəkdiyim xanəndələr kimi hərtərəfli istedada malik, yaradıcılıq işlərində çox nailiyyətlər əldə edən bir soydaşımızı da onların sırasında gördüyüm üçün yazını məxsusi ona həsr edərək haqqında səhih bilgi verməklə geniş şəkildə cəmiyyətə tanıtmaqda israrlıyam. O da müğənni kimi sevilir və bəstələdiyi 200-dən artıq mahnı illərdir ki səslənməkdədir. Onun səsi Azərbycandakı televiziyalardan, radiolardan, həm ölkəmizdə və həm də ondan kənarda səhnələrdən gəlir və İnternetin Youtube kanalında yaymlanır. Gənclik illərindən başlayaraq ifaçı, yazar, bəstəkar kimi geniş fəaliyyətdə bulunaraq bu insan səmərəli, şoxşaxəli və zəngin yaradıcılıq yolu keçmişdir. Və onun sənət bulağı daim aşıb-daşdığı üçün bu gün də öz işini davam etməkdədir.

## Zəka Vilayətoğlu

***1971-ci il noyabr 17-də Gədəbəyin Arabaçı kəndində ziyalı ailəsində dünyaya gəlib. İstedad insanla bir doğulur-fikri Zəkanın qismətində də özünü tam doğruldur. O, da qeyri-adi və hərtərəfli istedada malikdir. 5 yaşından mahnı oxumağa və gitara çalmağa başlayıb. Onun istedadının cilalanması, doğru isteqamətə yönələrək inkişaf etdirilməsində böyük istedad sahibləri; ana babası, kənd məktəbində rus dilindən dərs deyən Muxtar müəllim, dayısı, tarix müəllimi Nivruzun xüsusi xidmətləri olmuşdur. Muxtar baba tar çalar, klassik muğamlarımızı zil pərdələrdə şirin, təsirli tembrlə oxuyardı. Qoca çağında Füzulinin qəzəllərini pəs, ahəstə səslə təqdim edərək dinləyənləri heyran qoyur, hamıya xoş əhval və əsl zövq bəxş edirdi.***

Zəkanın gitarada çalmaq həvəsi dayısı ilə bağlı olub. Nivruz müəllim el şənliklərində gitara çalırdı. Uşağın həvəs və istedadını nəzərə alan atası Vilayət müəllim Zəkaya akustik gitara almışdı. Hələ bundan əvvəl Zəkaya saz alınsa da, alət keyfiyyətsiz hazırlandığı üçün geri qaytarılmışdı. Zəka: "Sazı çox sevsəm də, geniş imkanları ilə gitara məni özünə daha çox cəlb edirdi". Beləliklə, Zəka ilə gitara arasında möhkəm dostluq yaranır. Hara getsə gitara onunla birlikdə olardı. Təhsil aldığı Arabaçı kənd orta ümumtəhsil məktəbin sevimli şagirdinə cevrilərək o, burada keçirilən bütün tədbirlərdə çıxış edirdi. Gədəbəydə çıxan rayon qəzetində bu istedadlı uşaq haqqında dəfələlərlə maqalələr özünə yer almışdı. Sinifdən sinfə adladıqca, gitarada daha mükəmməl çalğıya yiyələndikcə onda mahnı bəstələmək meyli və imkanı yaranır. 7-ci sinifdə oxuyarkən Əhməd Cavadın sözlərinə yazdığı ilk mahnısı meydana çıxır. Zəka: "Bunun ötəri həvəs olmadığını duyduqda, yeni mahnılar bəstələməyə can atırdım. Yəni bu işə ürəyimi məcbur etmədim, hiss etdim ki, nəsə bulaq kimi çağlayıb gəlir və bununla könül rahatlığı tapıram. Beləliklə, yazıb yaratmaq, mahnı qoşmaq həvəsim anbaan, günbəgün, aybaay artmağa başladı. Sonralar rayon səviyyəsindəki tədbirlərə qatıldım, rəhbərlikdə çalışanlar keçirilən bədii-kütləvi tədbirlərə məni də dəvət edirdilər".

***Zəkanın ölkə səviyyəsindəki ilk çıxışı da çox maraqla qarşılanıb və uğurla bitib. O, həmin zaman 8-ci sinif çagirdi ikən Respublika sarayında keçirilən Müəllimlərin VII qurultayında çıxış edərək rəğbət və alqışlar qazanıb. 9-cu sinifdə ikən Azərbaycan Dövlət Filarmoniyasında keçirilən Respublika baxış-müsabiqəsində ustad sənətkarlardan ibarət münsiflər heyətinin qarşısında böyük həyəcan içərisində çıxış etsə də, yaxşı nəticə əldə edib.***

## Həmin illər ərzində

musiqi ilə yanaşı onun ədəbiyyata olan həvəsi də şöləl变ənərək qüvvətlənib və və tədricən öz yerini alıb. Zəka özünü artıq ədəbiyyatsız, şeirsiz, musiqisiz təsəvvür edə bilmirdi. O, ilk şeirini də 7-ci sinifdə yazıb. Zəka: "Şer yazmağa davam etsəm də, üzə çıxarmaq fikrinə düşmədim. Həmin illərdə kiçik məqalələr yazaraq qəzetlərə göndərirdim. İstər rayon, istərsə də mərkəzi qəzetlər yazılarımı həmən dərc edir və qonorar yazırdılar".

Vilayət müəllim oğlunu jurnalist və ya filoloq görmək istəsə də, musiqiyə sonsuz və böyük istedad Zəkanı ardınca çəkirdi.

Odur ki, o, 1989-cu ildə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun mədəni-maarif fakültəsinə daxil olur və atasının tövsiyəsi ilə təşkilatçı-metodist ixtisası üzrə təhsl alır. Belə ki, ata Zəkanın, şeirlər, məqalələr yazmasını nəzərə alır və bu sahəyə yaxın oxumasını istəyirdi. İnstituta daxil olduğu il Zəkanın ilk hekayəsi işıq üzü görür. Sonra onun hekayələri "Ulduz" jurnalında dərc olunur.

Əlbəttə bu gənc yazar üçün ədəbiyyata açılan qapı idi. Beləliklə, ilk uğurun davamiyyəti başlayır və çox yaxşı nəticə verir.

***Z.Vilayətoğlu təhsil illərində yaxşı tələbə kimi seçilir, istedadı ona qol-qanad verdiyi, imkanlar yaratdığı üçün yeni mahnılar bəstələyir, şeirlər, hekayələr yazır və axşamlar bacarıqlı, sevilən gənc müğənni kimi bir sıra konsertlərdə və Bakı toylarında oxuyur.***

**(ardı var)**

# Məişət vamprizmi: Qadın və Kişi



Allahverdi Eminov

*Hakimiyyət kişiyə məlahət gətirir*

*H.Ksincer*

**Biz ünsiyyət mədəniyyətindən çox danışırıq və haqlıyıq. Əgər bu münasibət hansı birimizdə çatışmırsa, yaxud sıfıra enibsə - ətraf mühitdən izolə olunuruq. Beləsini ifrat da səslənsə mizantrop - canavar - adamla müqayisə edərdik. Ünsiyyət müxtəlif məkanlarda və sferalarda özünü büruzə verir: ailədə, ictimai yerdə və isdə. Bunlar bir-birilərini tamamlamalıdır. Lakin elə hal da mövcuddur, bir şəxs üç məkanda müxtəlif rollara girir. Ailədə əzazil, ictimai yerdə qaradinməz, iş prosesində ünsiyyətcil, yaxud əksinə. Belə dəyişkənlik anormallıqdır. Mən birincidən - ailə ünsiyyətindən danışmaq istərdim.**

## Mini dövlət kimi

qiymətləndirilən ailə cəmiyətin qarşısında ən məsuliyyətli dəyərdir: övladların təhsili və tərbiyəsini öz üzərinə götürür. Adətən, belə normallıq o zaman tamamlanır - ər və arvad bir-birini anlasın: münasibətlərində etik normaları gözləsinlər. Müşahidəyə əsaslansaq, adətən, ərlə arvadın başa düşülməz hərəkətlərində günahkar tərəf kişi sayılır. Bu iradı istisna etmirik və az deyil. Amma qadının (arvadın) münasibətində, yəni ünsiyyət mədəniyyətində zəiflik üzərindən də yan keçməməliyik. Məişət vamprizmi adlanan bu anlam nəinki məişət "xırdalıqları" ilə sonuclanır, hətta ərin (kişinin) psixologiyasına, onun enerjisinə mənfi təsir göstərir. Məsələn: qadın evdədir, kişi işdən gəlmişdir. Təbii ki yorğundur, qayğılıdır. Ona mərhəm bir əlin hərarəti, şirin bir sözün işığı gərəkdir. Və belə xoşbəxt anlarda kişi həlimləşir, hətta uzaqlaşır. Hər çətinliyi unudur, əgər işində qanıqaraçılıqla üzləşsə də.

Sosial münaqişələr: maddi çətinliklər, işsizlik, qanun pozuntusu ilə üzləşmək və sair proseslər də insan varlığından səssiz ötüşmür: buna laqeydlik hansısa fərddə mövcuddursa o, insanilikdən xali deyilmi? Cəmiyyətdə, xüsusilə "durulmaqda" olan Məmləkətdə bunlar təbiidir, əlbəttə ki konkret zaman ölçüsündə. Kişilər qadınlarla müqayisədə belə hallarla daha çox gündəlik münasibətlərdə qarşılaşır və evə gəlirlər. Deməli, konkret olaraq ər ümumi davranış xəttindən ailəyə qədəm basır. Artıq əmələ çevrilmiş əxlaqi motiv fərdi davranışla ziddiyyət yaradır. Arvadsa evdə bu prosesləri görmür (yaxud görmək istəmir), situasiyanı öz şəxsi psixologi-yasında götürür və burada taktiki varianta üstünlük verir: Əxlaqi və məqsədəuyğun olanın ahəngdarlığını pozur, davranış xəttindən çıxır. Hegelin bir fikri ədalətli səslənir: "Subyektin bir sıra əməlləri elə onun özüdür". Bu cür xislətləri həyat yoldasları bilməli və əməl etməyə borcludur ki, subyektiv psixologiyadan irəli gələn davranış xəttində "zəif həlqəni" tapmalı və ümumi davranışının motivində "əritməlidirlər".

Bir fakt: Bir qadında öz ərinə qarşı belə bir vamprizm halı vardı və bütün həftə boyu dava - dalaş kədərli simfoniyaya çevrilmişdi. Arvad dirijordu, kişi ekspertdi, uşaqlar dinləyici. "Bu hal hansı tələbatdan gəlirdi?" sualına məntiqlə cavab verə bilərdim, çünki ailə işinə yersiz müdaxilə eləmək yersizdi. Amma bunun motivi ehtiyacla bağlıydı - ehtimalım buydu. Ehtiyac sosial kateqoriya statusunda mövcuddur və cari iztirablardan asılı olmadan da O Dünya barədə illüziyalara inamdan da kənarda insana məxsus haldır, ovqatdır. Və insan daima bu cavabsız sualın cavabını özündə axtarmamalıdır, öz dərdinə çevirməməlidir. Onu planlasdırmaq da, idarə etmək də absurddur. Klassik filosof Epikürün kəlamı var: "Azadlıq - nəyin varsa onunla kifayətlənməkdir". Belə məqamlarda ehtiyac ucbatından Allaha da yalvarmaq lazım gəlmir. Yenə Epikürə qayıdaq: "Əgər Allah insanların yalvarışlarına qulaq assaydı, onda hamı çoxdan ölüb getmişdi". Görünür, o qadın akselorativ hissi - ruhi həyəcanı daima özündə yaşatmışdır. Və hətta buna hazırdı. Təxmini vaxtdan sonra əri içkiyə qoşuldu.

Tale ağır hökm çıxarsa da, onun qadını qəfil xəstəliyə tutuldu və dünyasını dəyişdi. Kişi tənhalığıyla balalarına eyni zamanda analıq etməli oldu...

Oxucular güman ki, bu həyatı faktın sonunu nəylə nəticələnəcəyinə maraqlı ola bilər. Həmin ailədə bir oğlan uşağı və üç qız böyüyürdü. Oğlan yetkinləşdi, gənclik çağına çatdı. Ana - atanın yerli-yersiz mübahisələri, qışqırtıları və ilaxırlar bu oğlana ciddi təsir etmişdi. Anasının ölümündən sonra onun (ananın) rolunu sanki davam etdirdi. O da başladı atasının əsəblərilə oynamağa. Və günün gecəsində ata əsəblərinə tab gətirmədi: dünyasını dəyişdi. Atadan qızlarına yadigar qara haşiyəyə salınmış bir foto qaldı. (Bu təşəbbüs qızları tərəfindən idi).

## Davranışda əsas

***aparıcı subyektin özüdür: müsbət, yaxud mənfi motivlərdən asılı olmadan Hegelin bu fikri də ədalətli səslənir: "Subyektin bəzi əməllərini basqa mənbədə axtarmamalıyıq". Lakin davranış xəttində də "bir sıra əməllər, hərəkətlər" mövcuddur ki, bu keçmiş və indiki seçimə aiddir. Xüsusilə, artıq vərdiş halını almış "keçmiş" nəzarətsiz buraxılanda, idarə olunmayanda mövcud seçimə təsir göstərir. Bu, o deməkdir, məişət səviyyəsində qadının əməllərilə "zəif həlqəni" müəyyənləşdirməyə, vamprizmi aradan qaldırmağa subyektin özü tərəfindən səy yoxdursa, proses bir növ stabilləşir. Qadının ərinə (təbii ki ailənin digər üzvlərinə də) mənfi, stress doğuran münasibəti əməlinin sistemi (motiv, məqsəd, nəticə) kimi "davranış xəttində" zəncirvari həlqəyə çevrilir. Etikada "müdrik əməllər" anlayışı da var və bu, yaxşı əmələ səyi doğrudur, təəssüf ki, bunun üçün hazır resept yoxdur.***

Səyin arxasında qadının insaniliyi, hövsələsi, həssaslığı, kişinin qılığına girməyi bacarması və sairi dayanırsa, bunu biz məmnunluqla müdriklik adlandıra bilərik. Vamprizmə meyilli qadın müdrik əməl anlamından çəkinməsin, bir qədər də doğmalaşsın. Və "düzgün əməllər" seçimində fərqlənirmi? Düşünmək olar ki, düzgün əməlin variantları ola bilər, amma müdrik əməlinsə ola bilməz. Müdrik əməl doğ-ru əməldir. Etik baxımından əxlaqi müdrikliyin əlaməti əməlin optimallığıdır. Məişət zəminində bu məsələni davranış səviyyəsində, müsbət qərara gəlmək niyyətində anlamaq lazımdır. Qadın ərinə qarşı əxlaqi müdriklik göstərirsə hisslərinin qiymətləndirilməsidir, həyat yoldaşının stress (əgər varsa) halının aradan qaldırılmasıdır, ideal qiymətləndirilməsidir.

Ərlə arvadın - tamın iki bölümü hesab olunması nə deməkdir? Bu qoşalar o vaxtı bütövləşir ki, qadın öz qadınlıq missiyasının intim motivlərinə kövrək cavabıyla yanaşır. Ərinin hisslərinin müdrikliklə başa düşül-məsi davranışın yüksək zirvəsidir, etibarlılığıdır.

Ərlə arvadın məişət vamprizmindən uzaq ünsiyyəti Allaha məhəbbətin mistik ruhda ifadəsi deyil və dini ekstaza gətirib çıxarmır. İki vücudun tamlığı bəşəriyyətə sağlam övlad gətirməkdir. Allaha itaət edən bəndənin mövcudluğudur. Qadının ərinə məhəbbəti səadətə təbii səydir, əks halda, bu səadət qadını yüksəltmir, onu alçaldır. Həyatın mənası, habelə doğulacaq uşağın qeyri-sağlam xisləti həyatdan xaric hesab edilir, obyektiv olaraq bu, o deməkdir, qoşa yaşamağın özü mənasızdır. Yaşamaq - səadətdir, səadət - xoşbəxtlikdir, bu isə azadlıqdır. Bu "üç"lük əxlaqi sərvətlərin kompleksidir. İnsan özünün mənəvi və fiziki potensialının qüdrətini anlayır!

Əksliklər özü ortaya çıxırsa, xüsusilə qadın tərəfindən - belə vəziyyət əxlaqi etikada imperativlik (amiranəlik) adlanır. Qadında özünə tabelik hissi güclü səslənir, çox asanlıqla konfliktik situasiyaları yaradır, münaqişəyə əl yeri qoyur. Özünə tabelik, normaların iyerarxiyası konfliktli, mübahisəli vəziyyətlərdə, bir normanın tələbləri başqa norma ilə münaqişəyə girən zaman bariz formada özünü göstərir. Kəskin, arası kəsilməz dava - dalaş, münaqişə qadının seçimində mənfi normanın müsbət normallığa qeyri tabeliliyini, şəxsi prinsipin üstünlüyünü askara çıxarır.

## Əxlaqi normalar

***dedikdə, elə göstərişlər aşılanır - bunlar davranışın hər hansı xüsusi tərəfini tənzimləməli olur (işdən gəlmisən, yorğunluğunu al, bir stəkan çay iç, sevdiyin yeməyi hazırlamışam və sair). Beləliklə, əxlaqi normalar tədricən əxlaqi prinsiplərə çevrilir, yəni qadının davranışının bütün xəttinə aid olan onun əxlaqi şüuru və mənəvi keyfiyyətlərini vahid şəkildə birləşdirən daha geniş, üstün tələblər başa düşülür. Belə vəziyyətdə kişi öz həyat yoldaşını yaxından, məhrəmanə anlayır, qiymətləndirir.***

Məişət vamprizmi sosial - psixoloji xəstəlikdir. Və bu bir neçə faktorlarla sıx əlaqədardır. Sosial baxımından ər - arvad ailədə lider olmaq niyyətinə düşür. Halbuki o, öz ailə kollektivinə hiss etdirmədən rəhbər nüfuzunu qazanmalıdır, heç bir kəs bu liderlikdən xəbər tutmamalıdır. Əgər ərli qadınla incəlik varsa, hər şeyi vaxtında həssaslıqla görəcəkdir. Nəzakətlə susacaq, məlumatlanacaq, müşküllər doğanağını aşacaqdır! Necə deyərlər, bu "doğanağı" barmağına sarıyacaq və öz naxışlarını hörəcək, gərəksiz ipləri zibilliyə atacaqdır. Beləliklə, müşküllər zəncirini ərinin boğazından açacaq, onun loğmanına çevriləcəkdir. Münasibətlərin sağlam yönü-münü qurmalı olacaqdır. Bütün bunlar elə edilməlidir ki, ər ailədə liderin məhz özü olduğunu düşünsün və inansın. Arvad onun sözünə baxdığını nümayiş etdirsin. Bu, onun qüruruna təskinlik verəcəkdir. Əlbəttə, onun "doğanağını" özbaşına buraxmamaqla. Yeri gələndə yerində oturtmağı da ona xatırlatmaq lazım gəlir, amma bu, incəliklə edilməlidir.

## Psixoloji baxımdan

ər - arvad arasında eniş və yüksəliş baş verir və birincinin səbəbkarı qadındır. Belə hal adətən, iki amildən doğur: potaloji vamprizmindən və məişət qayğılarından. Birincidən az-çox danışdıq. İkinci vəziyyətdə lazım gəlir ki, ailəni bir günlüyə sərbəst buraxsın, amma ərə qarşı biganələşməməklə. Ər qadının deyingənliyini unutmağa çalışmalıdır. Bilir ki, o, ərköyünlük, yersiz söz-söhbət salmağın təcəssümüdür, hey narazıdır, sağlam mühiti yaratmağa səy göstərmir və sairə. Süni problem yaradanda dərhal əcaib simaya düşür və söz fantanının qarşısını almaq müşkülləşir. Bütün günahların ünvanı əridir. Hələ ki, şeytan onun qəlbində çapalayır, gözləmək lazımdır. Bu şeytan öz xoşu ilə çıxıb gedəcəkdir. Belə halda nəzakətli olacaqmı? Bəli, bir neçə dəqiqədən sonra nəzakətliyi də şeytanın özü ilə apardığı bəlli olacaq! Ssenari təkrarlanacaq. Taleyinə bu cür qadın düşmüş kişilərin həyat meydanına bənzəyir, mütəmadi toqquşmalar isə... boşanma ilə də sonuclana bilər və labüddür.

**Ərlə - arvadın sağlam ünsiyyəti Allahdan verilmiş naməlum ömrü nəcib hisslərlə yaşamaqdır, bu da sağlam uşaqların dünyaya gəlməsidir. Unutmayaq ki, Allahın və İlahələrin sevgisindən dünyalar, kişinin və qadının məhəbbətindən insan doğulur. Bu ülviyyətdən məhrumluğun nə demək olduğunun izahına ehtiyac qalmır. Və yazımı məşhur publisist Leflerin sözlərilə bitirirəm: "Mənim üçün qadın elə bir varlıqdır ki, onu həyatda heç nə ilə əvəz eləmək olmaz. Mən belə bir fikirdəyəm: nə qədər düzgün olub-olmadığını siz daha yaxşı bilərsiz. Qadın kişi üçün elə bir sərvətdir ki, onun misli-bərabəri yoxdur. Qadın elə bir zərif məxluqdur ki, hətta ən kiçik küləkdən belə qorunmalıdır".**

## Pandemiya səbəbindən sahibkarlara 50 milyon manata yaxın subsidiya ödənilib

***Azərbaycanda pandemiya səbəbindən sahibkarlara 50 milyon manata yaxın subsidiya ödənilib.***

***İqtisadiyyat Nazirliyindən bildirilib ki, pandemiyadan zərər çəkmiş fəaliyyət sahələrinə investisiya qoyuluşlarının sürətləndirilməsi və bu fəaliyyət sahələri üzrə məşğulluğun qorunub saxlanması məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu sahibkarlara yeni verilən bank kreditləri üzrə dövlət zəmanətinin verilməsi və həmin kreditlər üzrə faizlərin subsidiyalaşdırılmasını, eləcə də mövcud kredit borcu olan sahibkarların kredit faizlərinin bir hissəsinin dövlət tərəfindən subsidiyalaşdırılmasını davam etdirir.***

***Belə ki, 2021-ci ilin 31 may tarixinədək dövlət zəmanətli kredit və faizlərin subsidiyalaşdırılması mexanizmi çərçivəsində 1026 müraciət üzrə 258,3 milyon manat kreditə 149,7 milyon manat məbləğində dövlət zəmanəti verilib. Mövcud kredit portfelinin subsidiyalaşdırılması mexanizmi üzrə isə kredit qalığı 819,2 milyon manat olan 4497 müraciətə 57 milyon manat faiz subsidiyasının verilməsi barədə müsbət qərar qəbul edilib və artıq 49,3 milyon manat subsidiya ödənişi həyata keçirilib.***

***Qeyd edək ki, sahibkarların dövlət zəmanətli kredit və faizlərin subsidiyalaşdırılması mexanizmi üzrə müraciətləri Elektron Kredit Platforması üzərindən qəbul olunur. Sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının daha da asanlaşdırılması məqsədilə Fond tərəfindən xidmətlərin tam elektronlaşdırılması istiqamətində tədbirlər görülür.***

# PENCƏK



*İlqar Rəsul*

*(Hekayə)*

Darıxırdı şifonerdə. Xeyli vaxt idi, geyilmirdi. Özü də payızın ən uyğun çağında. Yanında çoxlu paltar var idi - əvvəldən alınanlar. Onlar da axır vaxtlar geyilmirdi:

- Geyilmirlər, yəqin, ona görə ki məndən əvvəl alınıblar. Hələ, bəlkə, bu gün-sabah götürüb kiməsə verəcəklər çoxunu. Onlar məndən əvvəl alınmışdılar axı. Bəs məni niyə geyinmir? Həm də havanın belə münasib vaxtı...

Onun əynində getdiyi məclisləri xatırladı. Hamı gəlib görüşür, ehtiram sərgiləyirdi sahibinə. Hələ "Nə qəşəng pencəyin var", "Əla yaraşır", "Rənginə düşür", "Həmişəki kimi hamıdan fərqlisən" deyib çiyninə sığal çəkən, yaxalığını oxşayan gözəl xanımlar...

- Bəs niyə ta geyinmir məni? Axı hələ köhnəlməmişəm. Heç bir il də deyil məni aldığı. Keçən yaz alıb, vur-tut iki ay, yaya qədər geyinib. İndi də payızdır, əsl geyinilməli vaxtım...

Üşüdü. Tükcükləri biz-biz oldu. Astarından titrək bir xışıltı keçdi.

- Yəqin, başqasını geyinir. İmkanlı adamdır. Bir şifoneri olası deyil ki. Bu boyda evin hər mərtəbəsində azı bir şifoner olmalıdır. Hamısının da içində pal-paltar.

Öz düşündüyünə özü də inanmadı. Yaxşı bilirdi ki, əsas yaşayış bu şifoner olan mərtəbədədir. Böyüklər də, uşaqlar da burada olurlar həyətə düşməyəndə:

- Onda bəs məni niyə geyinmir? Görəsən, bu payız ta məni geyinməyəcək? Eybi yox. Hələ qarşıda qış da var. Bayırda paltonun altından geyinsə də, maşında, işdə yenə göz önündə mən olacağam. Kabinetinə çatan kimi palto şifonerdən asılacaq, amma mən əynində olacağam. Arada soyunub kreslonun başına keçirəcək, əlbəttə. Amma hər yerindən qalxıb başqa otaqlara keçəndə, müdirinin yanına gedəndə yenə geyinəcək...

Yığıncaqlarda çıxış edəndə onu necə düymələdiyini, nitqini bitirib yerinə qayıdanda rahat oturmaq üçün düyməsinin necə açıldığını xatırladı:

- Nə bilmək olar, bəlkə, hansısa böyük yığıncaq, ya məclis üçün saxlayır məni. İşə geyinmir ki, hamının gözü öyrəşməsin, o məclisdə maraqlı görünsün. Hə, yəqin ki, elədir. Gündəlik geyindiyi kostyumlarından biri burada yoxdur. Deməli, hələ ki məxsusi tədbir-filan yoxdur deyə onu geyinir.

Bir dəfə yas mərasimində də olmuşdu. Orada da araya salıb: "Yaxşı görünürsən", - pıçıldayan xanımlar olmuşdu sahibinin qulağına. Hamısı da mənim sayəmdə bəyənirlər onu daha çox. Düzdür, başqa pencək geyinəndə mən bilmirəm, onu tərifləyən, bəyənən nə qədər olur. Olur, əlbəttə. Amma yəqin ki, məni geyinəndəki qədər yox. Axı mən ona çox yaraşıram. Dərzi tanışı da demişdi də, bu pencəyə əl vurmaq günahdır, elə bil əyninizə biçilib.

Qorxmuşdu sahibi dükandan çıxandan sonra onu dərziyə aparanda:

- Axı məndə qüsur yoxdur, haramı kəsdirəcək, görəsən?

Dərzi onu işığın altına çəkib diqqətlə baxaraq gülümsünəndə anlamışdı ki, yox, bu, işini yaxşı bilən adamdır, nahaqdan qayçı ələ alana oxşamır. Söhbətlərindən bilmişdi ki, heç sahibi də onu dərziyə kəsdirməyə, düzəltdirməyə aparmayıbmış. Sadəcə göstərməyə, yanlış seçim etmədiyindən bir daha əmin olmağa görə gedibmiş dərziyə.

- Kaş heç olmasa bircə dəfə yenə birlikdə güzgünün qabağına keçəydik. Eybi yox, sonra soyunub şifonerə asaydı, amma bir anlıq güzgüyə baxandan sonra. Çox xoşlayıram onunla birlikdə güzgü qabağında dayanmağı. Elə yaraşıqlı, şıq görünürük ki birlikdə.

Asılqanda dartındı.

- Əslində, mən ilk rastlaşdığımızda onu bəyənməmişdim. Xanımı ilə gəlmişdi dükana. Deyəsən, nəsə almağa həvəsi də yox idi. Könülsüz baxırdı kostyumlara. Birinin pencəyinin qolunu qaldırıb yerə atırmış kimi qəfil əlindən buraxır, o birinin yaxalığını çevirib arxasına baxır, buraxıb sığal çəkmədən aralanırdı. Məni təsadüfən gördü, dükandan çıxanda. Əslində, heç özü də görmədi. Xanımı aralıdan barmağını mənə tuşlayıb nəsə dedi, yaxınlaşdılar. Üz-gözündən zəhrimar yağırdı. Dedim, kaş ki məni bəyənməsin. Mən bunun əynində necə dözərəm. Sən demə, əslində, o cür deyilmiş. Həmin günlər səhhəti incidirmiş onu. Xanımı zorla məni ona geyindirdi ki, bu yaxşıdır, sənə yaraşacaq. Satıcı da təsdiqləmişdi o vaxt xanımın dediyini: "Cənab, alıb-almamaq öz işinizdir, əlbəttə, - demişdi, - amma elə bil doğrudan da, bu pencəyi fabrikdə məhz sizin üçün tikiblər..."

Belə gəlib çıxmışdı bu evə pencək. Həmin həftə şifonerdə toxunulmaz qalmışdı. Arayıb-axtaran, götürüb geyinən, güzgünün qabağına keçən olmamışdı. Heç həvəsi də yox idi geyilməyə. Adamın sifətini yadına salanda öz aqibətinə ağlayırdı. Növbəti həftənin ilk günü, səhər şifonerin qapısını tamam başqa adam açmışdı: üzündə həyat eşqi, güləruz, baxışları aydın, hərəkətləri səlis. Güzgünün qabağında o necə də xoşbəxt idi məhz bu adama qismət olub bu evə gəldiyinə görə.

- Yox, narazı deyiləm, tez-tez geyinməsin heç məni. Daha mötəbər yerlərə geyinmək üçün saxlayırsa, nə gözəl, bu lap yaxşı. Amma ta heç geyinməmək yox də. Belə rəftara layiq deyiləm axı mən. Bircə yaz geyinib kənara qoymaq nə deməkdir? Həm də bu cür yaraşdığım halda. Yox, belə düz olmaz. Əminəm ki, geyinəcək məni. Axı biz bir birimizə çox yaraşırıq. Düzdür, məni belə gözəgəlimli edən odur, yəni onun əynində olmağım. Başqası geyinsə, bu qədər cəlbedici olmazdım, bəlkə də. Amma hər halda mən də onu daha yaraşıqlı göstərirəm axı... Geyinəcək, əlbəttə. Geci-tezi var. Səbirli olmaq lazımdır sadəcə...

Səhər işə gedərkən, qapıdan çıxanda xanımının gəlib onun əynində fırça ilə yüngülcə çiyinlərini, yaxalığını silməsini, cibinin içəri düşən qapağını çölə çıxarıb əli ilə sığal çəkərək yerinə oturtmasını xatırladı.

- Əslində, şifoner çox təmiz, rayihəlidir deyə heç tozlu olmuram. Saçı da kəpəkli deyil ki, üstümə tökülsün. Amma yenə də xanımı arada çiyinlərimi, yaxalığımı, kürəyimi yüngülcə fırçalayanda xoşuma gəlir. Toxumalarıma bir sərinlik çökür. Hələ kənardan üstümə onun çox sevdiyi ətri təkrar çiləməsi... Düzdür, onlar ayrılmazdan əvvəl sarılıb öpüşəndə aralarında qalıb bir az sıxılıram. Amma qırışmıram. Axı mən bahalı pencəyəm. Necə var, elə də qalıram, şıq yəni. Bəs niyə bu qədər vaxtdır yada düşmürəm?

Payız gələni iki həftədən çox idi onun geyilmədiyi. Əslində, bilirdi ki, qarderobu böyük və zəngin olan biri üçün bir paltara iki həftə toxunmamaq elə də təəccüblü bir şey deyil. İki ay da ola bilər bu müddət. Amma yenə də bu halı ilə razılaşa bilmirdi. O da başqa kostyumlar, pencəklər, gödəkcələr kimi geyilmək, güzgü qabağına keçmək, havaya çıxmaq istəyirdi.

- Payız çıxacaq, belə getsə. Bilirəm ey, qarşıda hələ qış da var. Amma nə olsun? Mən də sığallanıb, ətirlənib sərin havada onun əynində əvvəl maşında, sonra küçədə getsəm, iş yoldaşlarının təbəssümlü baxışları altında şirkətə girsəm, kişilərin, xanımların ətirli pencəklərinə toxuna-toxuna liftlə qalxsam, kabinetə girsəm, olmaz ki? Bildim də, gündəlik işə geyinib korlamaq istəmir məni. Amma heçmi bir mötəbər yığıncaq, şənlik, lap elə hüzr yeri olmadı bu vaxtadək?

Şifonerin qapısı açıldı, içəri günəş işığı soxuldu.

- Axır ki, yada düşdüm. Bilirdim ki, bu qədər uzun çəkməz geyilməməyim. Axı mən hələ təzəyəm. Həm də çox yaraşıram ona!

Qulluqçu qadın bütün köynəkləri, qalstukları asılqandan götürüb qolunun üstündə dəstələdi, qapını örtüb uzaqlaşdı. Axşama doğru qapı bir də açıldı. Günəş işığı içəri soxulmadı deyə bildi axşam olduğunu. Yenə qulluqçu idi. Bu dəfə kostyumları, pencəkləri bir-bir asılqandan alıb qolunu üstündə dəstələdi, apardı. Şifonerin qapısını yüngülcə itələyib getdi deyə kip örtülmədi. Səhər qapının arasından sızan gün işığında gördü ki, içəridə özündən, ağ köynəkdən və çəhrayı qalstukdan başqa, heç nə qalmayıb. Sevindi:

- Mənə uyğun olanları saxlayıblar, mənimlə geyilənləri yəni. Demək ki, tezliklə geyiləcəyəm. Bəs o biri paltarları hara apardılar? Çirkli də deyildilər, yuyulmağa aparıldıqlarını düşünəm. Köhnə də deyillər, kiməsə bağışlanacaqlarını güman etmək olsun. Bir də axı hamısını bağışlamaq olmaz. Özü də yerinə başqalarını, daha təzələrini asmadan. Kasıb da deyillər, satılmağa yollayırlar gəlsin ağlıma. Gözləyirəm də, bəlkə, yeniləri gəlib şifonerdən asılacaq tezliklə.

Birdən düşündü ki, bəlkə, sahibi çox kökəlib deyə, paltarları əyninə olmur. Elə özü də ona görə bunca müddətdir, şifonerdən asılı qalıb. Amma sonra da düşündü ki, axı o cür kübar, şux qamətli, yeməyinə nəzarət edən, özünə fikir verən cavan adam bir yayın içində paltarları əyninə gəlməyəcək dərəcədə kökəlməz. Bəlkə, xəstələnib, arıqlayıb deyə düşündüyü də oldu arada:

- Yaxşı, tutaq ki, arıqlayıb, ona görə paltarları həmin o tanış dərziyə daraltmağa göndərib. Mənə də toxunmur, ümid edir, tezliklə əvvəlki halına qayıdacaq, yenə geyinəcək. Bəs onda daralmış, ya da kiçik ölçülü yeni paltarlar niyə gətirilib asılmır şifonerdən?..

Artıq qışdır. Çoxdandır, günəş qapının arasından şifonerə soxulmur. Heç soxulsa da, ürəkaçan bir şey gözə dəyəsi deyil. O vaxt qulluqçu qapını kip örtmədiyi üçün içərini toz basıb. Arada gəlib təmizləyən olmadığından toz tozun üstünə yığılıb. İndi şifonerin içində nə ağ köynək, nə çəhrayı qalstuk, nə də tünd-göy rəngli pencək var. Hər şey boz rəngdədir - toz rəngində.

- Niyə bu qapını açıb baxan yoxdur ki, görsün, içəri nə haldadır? Bayırdan səs-səmir də gəlmir, uzun müddətdir. Hara getdi bu adamlar? Hara çəkildi bu gözəl evdəki doğma səslər, xoş zarafatlar, incə gülüşlər, uşaq şıltaqlıqları, musiqi sədaları? ? Bütün qışı ancaq bunu düşünməklə keçirdi.

Bir səhər günəş yenə qapının arasından içəri soxuldu.

- Demək yazdır, - düşündü, - mənim geyinilən vaxtım.

Amma sevinmədi. Ondan bir az aralı asılmış köynəyin və qalstukun halını görüb: "Demək, mən də o haldayam", - düşündü, üşüdü. Qorxdu ki, birdən onu kimsə geyinib güzgünün qabağına keçər. Hiss edirdi ki, daha nə çiyinləri asılqanda əvvəlki kimi şax dayanır, nə də yaxalığı, ətəkləri dümdüzdür.

Qapının arasından içəri dolan xəfif mehdə boşalıb-süzülmüş sapdan sallanan düymələrinin necə yırğalandığını hiss edirdi.

Kif astarını saraltmışdı, saplarını çürüdüb yumşaltmışdı. Sağ cibinin qapağını və sol qolunun ağzını siçan gəmirmişdi. Şifonerin içinin üfunəti ona da hopmuşdu.

- Yox, belə halda güzgünün qabağına keçmək dəhşət olar. Geyinməsin ta o məni. Yəqin ki, bundan sonra ta məni heç əyninə alan da olmaz.

İki gün əvvəl evə kimlərsə gəlmişdi. Otağın ortasında dayanıb divar kağızlarının yenilənməsindən, mebellərin, çilçıraqların, pərdələrin dəyişdirilməsindən, həyətdə abadlıq işləri aparılmasından danışmışdılar. Gələnlərin səsi evə doğma deyildi...

- Ayaq səsləri gəlir. Kimsə pilləkənləri qalxır. Deyəsən, bir nəfər deyil gələn. Hə, çoxdurlar. İçəridədirlər artıq. Söyüş niyə söyürlər ki? Nə pis gülürlər. Görəsən, kimdir bunlar? Bəs ev yiyəsi haradadır? Niyə icazə verib bu tərbiyəsizlərin evə girməsinə? Deyəsən, əşyaları sürüyürlər. Divanın cırıltısı gəlir. Pərdələri də qopardırlar. Deyəsən, kimsə şifonerdən danışır...

Birisi şifonerin qapısını açdı:

- Püfff, bura nə gündədir, ay usta. Min ildir təmizlənmir sanki. İçəri siçan poxudur tamam, - deyib geri çəkildi.

- Otaqda lazımsız nə var, hamısını pərdənin arasına yığın, aparıb atın küçədəki zibil qutusuna, - kimsə amiranə səslə dilləndi...

Narın yağış yağır. Yaz yağışı. O bunu zibil qutusunun içində hiss edir. Damcılar astadan zibil qutusunun qapağını döyəcləyir. Kimsə qapağı açır. Eşələyir, onu dartıb zibillərin arasından çıxarır.

- Doğrudanmı, bu halımda məni geyinən kimsə olar? Hə, deyəsən, geyinir. Nə çirkli adamdır bu. Məndən betər üfunət qoxuyur. Bir insan niyə belə qoxusun ki? Əynindəyəm artıq. Harasa gedirik. Görəsən, hara?..

Bir aydır, o üfunət qoxuyan, səfil adamın əynində şəhərin küçələrini, bazarlarını, vağzallarını gəzir, istixanalarda, zirzəmilərdə yatır. Bu gün səhərdən qəbiristanlığı gəzib-dolaşır. Səfilin yanında bir nəfər də var. Məzarların üzərindən şirniyat, qoğal, boyanmış yumurta yığıb ciblərini doldurur, öz aralarında varlı adamların qəbirlərinin bərəkətli olmağından danışırlar. Yenə yağış yağır.

- O qədər yağışın altında gəzmişəm ki, tozum tamam yuyulub. Rəngim, az da olsa, bilinir. Ətrafı da görürəm. Yaxşı ki, bu adam güzgüyə baxan deyil. Heç istəmərəm onunla birlikdə güzgü qabağına keçim. İstəyirəm, yaddaşımda o adam qalsın. Gerçək sahibim... Bu nədir belə? Bu qara daşın üstündəki şəkil niyə belə tanış gəlir mənə? Hə, mənəm. Mən haradan gəlib bura çıxmışam? Axı mən... Hə, onun əynindəyəm! İlahi, daşın üstündəki onun şəklidir! Xanımı, uşaqları da yanında!

Narın yağış dik dayanmış iri qara mərmər daşı yuyur. Onun üzərindəki şəkildə pencək əvvəlki kimi təzə və şıqdır...

**Bakı,**
**25 sentyabr 2020**

**V**ətəni sevmək azdır, gərək həm də o yurd sevgisinin köləsi ola biləsən. Bunu sübut edən Azərbaycan əsgərinin qarşısında bu gün baş əyməyə borcluyuq. Biz bu günü , işğaldan azad edilən torpaqlarımızın Qələbə müjdəsini Cənab Prezidentə, Ali Baş Komandana inan-inana çoxdan gözləyirdik, bu sevincin həsrəti ilə yaşayırdıq. Bütün gözləntilərimizi Azərbaycan əsgəri tarixi torpaqlarımıza üçrəngli bayrağımızı qanı bahasına sancdı, kimisi şəhid oldu, kimisi qazi.**

44 günlük Vətən müharibəsindəki tarixi Qələbəmizlə bütün dünyaya göstərdik ki, Azərbaycan Ordusu yenilməz ordudur, istənilən vəzifəni icra etməyə qadirdir. Düzdür, Qələbə asanlıqla qazanılmadı. Kimi öz canını qurban verdi, kimi də canından bir parçanı. Biz qələbəmizə varlığımız qədər inanırdıq. İnanırdıq ki, bu sevda - torpaq sevdası, Vətən sevdası heç zaman sönəsi deyil. Bilirdik ki, Azərbaycan əsgəri, ər oğullar, nər igidlər qanı yerdə qoymayınca düşməndən qisas almayınca, Qarabağı erməni işğalçılarından azad etməyincə geri dönəsi deyil.

# Qardaşlar

Siyəzən şəhərində yaşayan, nəinki bir nəsilin, eləcə də bölgənin ağsaqqalı kimi tanınan, təqaüdə çıxana kimi ayrı-ayrı vaxtlarda məsul dövlət vəzifələrində çalışan və zəngin həyat təcrübəsi ilə həmişə sayılıb seçilən Qəzənfər Nəcəfov fəxr edir ki, indi bizlərə qələbə sevincini yaşadanlar arasında onun nəvələri də var. Fərid, Səbuhi və Bürhan üç qardaşdırlar. Hər üçü Siyəzən şəhərində doğulub, boya- başa çatıblar. C.Cabbarlı adına 1 saylı tam orta məktəbin məzunudurlar.



Qardaşların böyüyü Fərid Milli Ordumuzda hərbi xidmətini başa vurub. Bu gün ali təhsilli gənc mütəxəssis kimi əmək fəaliyyətini davam etdirir.

Səbuhi 2016-cı ildə orta məktəbi bitirdikdən sonra Sumqayıt Dövlət Universitetinə daxil olub. 2020-ci ildə oxuduğu ali məktəbi "Kimya mühəndisliyi" ixtisası üzrə bitirib və elə həmin ilin iyul ayında həqiqi hərbi xidmətə yollanıb. Evdə böyüklərdən gördüyü ədəb - ərkan, tapşırılmış iş üçün məsuliyyət hissi, ixtisasca müəllim olan babası Qəzənfərin "Əsgərlik mətinlik, hünər məktəbidir, özü də belə bir vaxtda" çağırışını örnək bilən Səbuhi əsgəri xidmətin ilk günlərindən hərbi texnikanı, bilikləri səylə öyrənməyə çalışıb. Komandirlik tərəfindən verilən tapşırıqları layiqincə yerinə yetirib.

***Ailənin sonbeşiyi Bürhan Nəcəfzadə 2018-ci ildə orta məktəbi bitirdikdən sonra Bakıdakı 2 saylı Tibb Kollecinə daxil olub. Bir il oxuduqdan sonra 2019-cu ilin iyul ayında hərbi xidmətə yollanıb. Qismətdir, ya da bəlkə ki, xoş bir təsadüf… Bürhan qardaşı Səbuhinin xidmət etdiyi "N" saylı hərbi hissəyə düşür. Beləliklə, qardaşlar Vətən qarşısında öz müqəddəs borclarını birlikdə şərəflə yerinə yetirirlər.***

İxtisasca coğrafiya müəllimi olan Qəzənfər babaları hər dəfə Azərbaycan xəritəsində haşiyəyə alınmış ərazilərimizi məktəbli nəvələrinə köks ötürə-ötürə: - Bu torpaqlar hələ erməni qəsbkarları tərəfindən işğal edilən yurd yerlərimizdir, - deyərdi. Əlbəttə, işğal altına olan bu torpaqlarımızı siz, elə oturub-durduğunuz yaşıdlarınız azad etməlidir.

Və o gün gəldi.

***27 sentyabr 2020-ci il. II Qarabağ savaşı başlayandasa… Növbəti dəfə atəşkəsi pozan ermənilərin Ali Baş Komandanımızın əmri ilə əks hücuma keçib layiqli dərsini verənlərin sırasında haqqında söhbət açdığımız qardaşlar da var idi. Qısa müddət ərzində qətiyyətlə irəliləyən müzəffər ordumuzun gücünü, Azərbaycan əsgərinin sarsıdıcı zərbələrini görən düşmən tab gətirməyərək ağır itkilərlə geri çəkilməyə məcbur oldu…***

Vətən müharibəsinin ilk günlərindən əsgər qardaşlarımızın öz ailə üzvlərinin evdəkilərə telefon zənglərinə cavabı adətən çox qısa olurdu: "Hər şey yaxşıdır,Qələbə bizimdir."

Səbuhi oktyabr ayının 1-də Talış istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan mərmi nəticəsində qəlpə yaraları alır.Bir müddət hərbi qospitalda müalicə olunduqdan sonra hissəyə qayıdan igid əsgər indi də boyun hissəsində və çənəsində qəlpələr gəzdirir. Yaralarını müalicə edən igid əsgərimiz öz hərbi borcunu şərəflə yerinə yetirir.

***Nəcəfovlar ailəsinin sonbeşiyi Bürhanın da müharibə ilə bağlı acılı-şirinli xatirələri çoxdur.Suqovuşan istiqamətində gedən döyüşlərin iştirakçısı olmaqdan, əsgər kimi Vətənə layiqli oğulluq borcunu verdiyindən haqlı olaraq qürurlanır."Biz döyüşdük.Bu torpaqların bizim əzəli Vətən yerləri olduğunu sübut etmək üçün döyüşdük, "bir qaşıq qanından" qorxan olmadı və Qələbə qazandıq"-söyləyən Bürhanla qardaşları ilə valideynləri, doğmaları, tanıyanları fəxr edir. Qeyd edək ki, Səbuhi Nəcəfzadənin igidlikləri Ali Baş Komandan Prezident Cənab İlham Əliyev tərəfindən də yüksək qiymətləndirilib.O, "Cəsur döyüşçü"medalı ilə təltif edilib.***

İndi də Səbuhi və Bürhan Nəcəfzadələr "N" saylı hissədə hərbi xidmətlərini davam etdirirlər.Xidmət zamanı özlərini nümunəvi əsgər kimi tanıdan qardaşların yaxınları, xüsusilə, babaları-dəyərli ziyalı Qəzənfər müəllim, heç zaman dilindən şükrünü, dünyamızla, dogma Azərbaycanımızla, müzəffər Ordumuzla, Ali Baş Komandanımızla bağlı alqış və dualarını əksik etməyən seyid qızı Həqiqət anamıza nəvələrinin hərbi xidmətdən sonra söyləyəcəkləri odlu-alovlu cəbhə xatirələri çoxdur. Lap çox. Yəqin ki, övladlarının hər anı, hər saatı ölüm saçan o xatirələrə onlar həyəcanla qulaq assalar da, bəzən kövrəlib ağlasalar da toxtaqlıqları bu olacaq: "Qarabağ bizimdir!"

**Reyhan Muradova,**
**Siyəzən**

# Qafar Cəfərlinin povestləri



*Musa Xanbabazadə*
*filoloq-ədəbiyyatşünas*

*(II yazı)*

**Ədəbi-bədii cameədə çoxdan təsdiq olunmuş bir həqiqət var: yazıçının keçmişi və ya indini təsvir etməsi elə də vacib deyil. Vacib olan yazıçı təhkiyəsinin canındakı ruhdur, əsərinin əsrdaşlara ötürmək istədiyi əxlaqi-mənəvi dəyərlərdir, humanizmlə aşılanmış ideya-bədii miraslardır. Bu dəyər və mirasları, onların vaciblik və gərəkliyini çağdaş oxucuların beyninə-şüuruna, hiss-duyğularına hopdurmaq üçün yazıçı mütləq həmin dəyər-mirasların böyüklük və ucalığına ilkin özü inanmalı və bu dəyər - mirasları öz nəfəsi və qanı ilə qızdırmalıdır. Və bu da məlumdur ki, hər yazıçı qələmə aldığı mətni (mövzunu) forma və məzmunundan asılı olaraq öz yaradıcılıq meyillərinə və baxışlarına, öz daxili zərurət və ehtiyaclarına, bədii və estetik imkanlarına uyğun qurur. Nəticədə yazıçı minlərə, milyonlara gərək olan əsərini (o hansı janrda olursa-olsun) çoxsaylı oxucu auditoriyasının ixtiyarına verir. Əsər oxucuya ya məmnunluq yaşadır, ya da məyusluq, oxcunu ya sevindirir, ya da kədərləndirir.**

Azərbaycan Yazıçılar Birliyi Lənkəran şöbəsinin sədri Qafar Cəfərli (o, Qarabağ müharibəsinin veteranıdır, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının diplomçusu və qızıl medalçısıdır,Prezident mükafatçısıdır, əsərlərinə film və seriallar çəkilib) məhz o yazıçılardandır ki, əsərini çapa getməzdən öncə kərrat-kərrat nəzərdən keçirir, üzərində yorulmadan - usanmadan əməliyyat işi aparır, yəni lazımsız abzas-epizodları kəsib atır, yeni əlavə-düzəlişlər edir, bəzi yardımçı-epizodik surətləri çıxdaşlayır, həm obrazların dilini cilalayır, həm də müəllif dilinin emosionallıq, ekspressivlik və ifadəliliyinə xüsusi qayğı və məsuliyyətlə yanaşır. Bu səbəbdəndir ki, hekayə və povestləri sevilə-sevilə oxunur, əsərlərinin bazasında çəkilmiş film və seriallara maraqla baxılır.

Qafar Cəfərli qısa, lakonik, yüksək ideya-bədii dəyərli hekayələr müəllifi olmaqla yanaşı, həm də maraqlı-məzmunlu povestlər müəllifidir. Yazıçının povestləri ("NAMUS YARASI", "XƏYANƏT", "XOŞBƏXT ƏSİRLƏR") dedektiv janrdadır və janrın əsas xüsusiyyətlərini özündə, əsasən, ehtiva edir. Hər üç povest oxunaqlıqdır, süjet və kompozisiyaları elə qurulub, elə ölçülüb-biçilib ki, oxucu əhvalat və hadisələrin təsvirindən qopa bilmir, hadisə və situasiyaların necə və hansı sonluqla başa çatmasını səbirsizliklə izləyir. Maraq, intizar imkan vermir ki, oxucu povestləri bitirməmiş-sonaçatdırmamış əlindən yerə qoysun. Bu baxımdan "NAMUS YARASI", "XƏYANƏT" povestlərinin elə ilk abzasları yuxarıdakı fikrimizin ən əyani, ən görümlü bir təsdiqidir: "Mərkəzi küçə ilə sürətlə hərəkətdə olan yanğınsöndürən maşının sirena səsi şəhəri başına götürmüşdür. Zülmət qaranlıqda bu səs ildırım sürətilə ətrafa yayılır, küçə-küçə, dalan-dalan paylanırdı. Dərin yuxuya getmiş şəhər sanki vahiməli halda bu səsdən oyanır, binalar, evlər qalxıb bürüşür, gizlənməyə xəlvət yer axtarırdı, gecənin bu aləmində təsadüfi oyaq qalan və bu səsə oyanan insanlar isə həyəcanlı baxışlarla qaşlarını düyünləyib ətrafa qulaq kəsilirdilər" (səh. 185). "Aman allah, bu qıza nə olub? Könül, qızım, nə olub sənə, kim səni bu günə qoyub?-Anaam…, mməən… - Sona, ay Sona! Tez ol bura gəl! Sona, eşitmirsən? Tez gəl dəə! " (səh.219).

Göründüyü kimi, hər iki povestin ilk abzası oxucuda nigarançılıq oyadır, oxucunu naməlum fikirlərə çəkir, vahimənin nədən ibarət olduğunu bilməyə tələsdirir. Yəni bu abzaslar oxucuya sanki pıçıldayır: tələs. öyrən, gör bu vahimə, həyəcan nədir, bütün şəhərin, bir böyük ailənin yuxusunu qaçırır, rahatlıqlarını əlindən alır. Həvəs və marağın hökmünə baş əyən oxucu, nəhayət, əsərlərin iç dünyasına, qəhrəmanların həyatına daxil olur, bir növ, hadisələrin də, obrazların da həm iştirakçısına, həm də canlı şahidinə çevrilir, dünyagörüşünə, ədəbi-bədii zövqünə rəğmən hadisə və obrazlara öz münasibətini sərgiləyir.

"NAMUS YARASI" epizodlar silsiləsindən, əsas və epizodik xətlər toplusundan (yandırılmış evdə ev sahibinin meyidinin tapılması; Xəyalə Kərimqızının həbsxana həyatı və macəraları; Xəyalə-Solmaz münasibətləri; Xəyalə-Rafiq-Şəfiqə epizodları; Rafiq-Kübra-Xəyalə qarşıdurması; Xəyalənin bacısı Şəfiqəni və Rafiqi boğub öldürməsi; Əli Zaminli-Elşad Rafiqoğlu "atışmaları;"i09 Əli Zaminli-Xəyalə xətti və s. ) Ibarət olsa da, daha çox Xəyalə Kərimqızının hekayəsi, Xəyalə Kərimqızının etirafnaməsidir ki, povestin bütün digər epizod və xətləri bu epizodun dolğunlaşmasına, ətə-qana dolmasına, əsas və aparıcı missiya daşımasına hesablanıb. Oxucu əsər boyu Xəyalə Kərimqızının iztirab-məhrumiyyətlərinə, ata-ana, bacı-qardaş vəfadarlıq və cəfadarlığına, qayğekeşlik və canıyananlığına, zəhmətsevərlik və qerətkeşliyinə baş endirib səcdə edir. Lakin Xəyalə oxucu üçün (elə müəllif üçün də, yaşadığı kəndin camaatı üçün də!) böyükdür, uca və əyilməzdir, qətiyyətli və dözümlüdür öz etirafında, özünün günah-qəbahət və cinayətlərini mərd-mərdanə boynuna almasında. Xəyalə etirafında oxucuya döğmalaşır, büllurlaşır, saflaşır-paklaşır. Oxucu hiss və duyğularının gözlərilə Xəyaləni tam və bütöv görür, Xəyalənin qeyrət-namus fədakarlığını incəliyinədək yuksək dəyərləndirir. Və bu etirafda danışan Xəyalə yox, Xəyalənin ikinci məni, ikinci səsidir-Xəyalənin vicdanıdır.

**Xəyalə etirafında bacılarının namusunu ləkələyən Rafiqi öldürdüyünü, bacısı Şəfiqəni boğduğunu, bir sözlə, günahkar-cinayətkar olduğunu təkrar-təkrar bəyanlayır və Əli Zaminlidən (o, polis şöbəsinin rəis müavinidir) cinayət və günahları üçün cəza istəyir. Xəyalə öz etirafında o qədər səmimi, o qədər doğruçu-dürüstdür ki, qarşısında normal hüquq və bu hüququn keşikçisi Əli Zaminli belə sarsılır: "Əli Zaminli eşitdiyi bu acı tale hekayətindən sarsılmışdı. O yazdığı izahatı Xəyaləyə imzaladıb materialı prokurorluğa göndərməli idi. Qanun belə tələb edirdi. Lakin bu dəfə Zaminli qanuna deyil, ürəyinin səsinə qulaq asmaq istəyirdi. Birdən o, Xəyalənin gözləmədiyi hərəkəti etdi: yazdığı bütün kağızları qatlayıb cırdı və masanın altındakı zibil qutusuna atdı." (Səh. 217).**

**(ardı var)**

## Rusiyadan ABŞ-a çağırış



***ABŞ və NATO-dakı müttəfiqləri Qara dənizdə Qara Dəniz-2021 təlimindən imtina etməlidirlər. Bu bəyanatı Rusiyanın Vaşinqtondakı Səfirliyi yayıb. Məlumatda bildirilib ki, bu təlimin aqressiv xarakteri və miqyası Qara dəniz regionunun real təhlükəsizlik hədəflərinə cavab vermir. Səfirlik bu təlimlərin Kiyevin militarist əhval-ruhiyyəsini genişləndirdiyini qeyd edib.***

***MEHRİBAN***

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 66 (2247) 24 iyun 2021-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi


# Şirvanın özəlliyi və gözəlliyi

**Bu gün Azərbaycanın iri şəhərləri sırasında özünəməxsus yeri olan Şivran şəhəri Kür çayının sahilində, həm də Şirvan düzündə yerləşir. Bu şəhərin mövcud olduğu ərazi həm geosiyasi, həm də iqtisadi baxımdan diqqət çəkəndir. Belə ki, ölkənin əsas baş magistral yollarından birinin qovuşağında yerləşən bu rayon həm də yer quruluşu baxımından əlverişli imkanlara malikdir. Ona görə də şəhərin genişlənməsi, burada tikinti-abadlıq işlərinin daha genişmiqyaslı aparılması üçün təbii imkan yaradıbdır. Yəni, Şirvan düzünün spesifik xüsusiyyətləri Şirvan şəhərinin inkişafına yaşıl işıq yandırıbdı. Şəhərin özünün yaranma tarixi Sovet dönəminə düşür. 1954-cü ildə o vaxtkı Əlibayramlı rayonun tabeliyində olan bu əraziyə şəhər statusu verilmişdi. Və elə həmin zamandan da başlayaraq bu şəhərin inkişaf etdirilməsi üçün müəyyən addımlar atılmışdı.**

Ərazinin şəhər statusu alması ilk öncə Şirvan düzündə neft yataqlarının üzə çıxması ilə bağlıdı. Belə ki, fantan vuran neft quyusu bu istiqamətdə diqqəti çəkmiş və neft emalı ilə bağlı əlavə qüvvələrin səfərbər edilməsi imkan vermişdir ki, Şirvan şəhərinin daha da genişlənməsinə və inkişaf etdirilməsinə əlavə vəsaitlər cəlb olunsun. Təbii ki, maliyyə imkanları artdıqca şəhərin də görkəmində dəyişikliklər get-gedə daha da hiss olunurdu. Bu işin sürətli həyata keçirilməsində Kür çayı üzərində Dövlət Rayon Elektrik Stansiyasının tikilməsi əsas amillərdən sayılmalıdır. Artıq 1956-1968-ci illərdə adını qeyd etdiyimiz elektrik stansiyası tikilib istifadəyə verilmişdi və bununla da paralel olaraq həm Şirvan şəhərinə, həm də digər bu istiqamətdə olan ərazilərə nəqliyyat vasitələrinin hərəkətini asanlaşdıran ikinci körpü tikilib istifadəyə verilmişdi. Kür çayı üzərində salınan bu körpü dövrün ən böyük yükgötürmə qabiliyyəti olan körpülərindən biri idi və uzun müddət bu körpüdən istifadə olunmuşdu.

Bu gün Şirvan şəhərinə giriş-çıxış üçün daha müasir körpü tikilsə də, amma bütövlükdə şəhərin daha geniş inkişafı artan iqtisadi resurslarla bağlıdır. Belə ki, şəhərdə mövcud olan 17 sənaye müəssisəsi özünün çeşidli məhsulları ilə həm Azərbaycanın, həm də onun hüdudlarından kənar məmləkətlərin diqqət mərkəzindədir. Faktiki olaraq Avropada ən böyük açıq tipli Şirvan DRES-in xidmət gücü respublikamız üçün böyük önəm kəsb edir. Bu elektrik stansiyası həm Şirvanı, həm də respublikanın böyük bir ərazisinin elektrik enerjisi ilə təminatçısıdır. Sözün böyük mənasında Şirvanın elektriki hər bir evin xdmətindədi. Bununla yanaşı Şirvan şəhərində və ona aid ərazidə Yağ Zavodu, Dəmir-Beton Məmulatları istehsal edən müəssisə, Saxsı Borular, Süni Dəri Zavodu, eləcə də neft-qaz hasil edən müəssisələr də fəaliyyət göstərir. Bu saydığımız ünvanlar da Şirvanın sənaye şəhəri kimi önə çıxmasında öz sözünü zaman-zaman deyib və bu gün də deyir.




Xatırlatmaq yerinə düşər ki, sənaye sahələri iqtisadi baxımdan uğurlar qazandıqca, şəhərin büdcəsi də öz imkanlarını genişləndirir. Bu da şəhərin özəl həyatına təbii ki, öz müsbət təsirini göstərir. Son zamanlar Şirvana yolu düşən hər kəs yəqin ki, burada aparılan quruculuq-abadlıq işlərinin şahidi olubdur. Belə ki, şəhərin infrastrukturu günbəgün yenilənir, tikilən çoxmərtəbəli binaların sayı artır, küçələrin, səkilərin, yolların genişliyi, rahatlığı ürək açır, könül oxşayır. Bu da o deməkdir ki, Şirvanda şəhərin sosial durumu, abadlığı və bütövlükdə sakinlərin rahatlığı üçün çalışan şəhər rəhbərliyi, aidiyyatı qurumların başçıları, həmçinin öz şəhərini sevən iş adamları bu məsələdə əlbir çalışırlar. Sonda da Şirvan şəhəri dünyanın müasir şəhərlərində olduğu kimi yeni bir görkəm alır.

Bu gün Şirvanda diqqətçəkən məsələlərdən biri də şəhərdə mədəni həyatın rəngarəngliyidir. Doğrudur, pandemiya şəraitində kütləvi tədbirlərin keçirilməsi mümkünsüz olsa da, amma Şirvanda incəsənətin və bütövlükdə mədəniyyətin müxtəlif sahələri uğurla inkişaf etdirilir. Musiqi məktəbləri, gənc istedadlar, ziyalılar, mədəniyyət adamları öz fəaliyyətlərini onlayn formada davam etdirməklə şəhər sakinlərini, xüsusilə gənclərin xidmətindədilər. Bir məsələni də xatırlatmaq yerinə düşər ki, son illər Şirvanda təhsilə, səhiyyəyə diqqət daha da artırılıb. Bunun faktiki göstəricisi də məzunların ali məktəblərə qəbullarda əldə etdiyi nəticələrdi. Bu göstəricilər də deməyə əsas verir ki, Şirvanda təhsil önəmini günbəgün artırır. Hər kəs çalışır ki, müasir dünyanın, elmi-texniki tərəqqinin tələbləri ilə uyğunlaşsın.



Şirvan şəhərinin həyatında iqtisadi inkişafın önəmi birmənalıdır. Əgər rəqəmlərə üz tutsaq, onda deyə bilərik ki, son illərdə Şirvanda ümumi məhsul buraxılışı 63 faizə yaxın olmuşdur. Bu 400 milyon manata yaxın məbləğ deməkdir.

Deməli, şəhər həyatında ümumməhsul istehsalı səviyyəsinin artması şəhər sakinlərinin bazar zənbilinə, ailə büdcəsinə də öz müsbət təsirini göstərir. Ona görə də həmin rəqəmləri istehsal sahələri üzrə diqqətdən keçirəndə məlum olur ki, burada qeyri-dövlət müəssisələrinin, sektorlarının da payı kifayət qədərdir. Həmin söylədiyimiz fikri bir az da genişləndirsək, onu da deyə bilərik ki, Şirvan şəhərində sosial-iqtisadi inkişafda sahibkarların, iş adamlarının böyük rolu var. Məhz özəl sektorun daha da fəallaşması və dövlət sektoru ilə ayrı-ayrı sahələr üzrə paralel inkişaf etdirilməsi son nəticəni daha ürəkaçan edir. Zənnimcə vurğulamaq yerinə düşər ki, özəl sahələrin genişləndirilməsi yeni iş yerlərinin açılmasına da müsbət təsir edir. Bu da ölkə prezidenti, cənab İlham Əliyevin bütün çıxışlarında vurğuladığı vacib məsələlərdən, tələblərdən biridir. Belə ki, hər kəsin işləməsi, ailəsini dolandırması və xoş güzəranı üçün iş yerlərinin olması ən önəmli məsələ olmaqla bərabər, həm də həyatı zərurətdir. Ona görə də Şirvanda məşğulluq məsələlərinə ciddi diqqət yetirilir.

Burada fəaliyyət göstərən 13 saylı Ərazi Məşğulluq Mərkəzi filialında Şirvan şəhəri üzrə qeydiyyatda olan iş axtaranlara tez-tez xoş xəbərlər çatdırılır. Bu da əvvəldə vurğuladığımız kimi yeni iş yerlərinin açılması ilə bağlıdır.

**Bəli, bu gün Şirvanda Regionların İnkişafına Dair Dövlət Proqramına uyğun olaraq genişmiqyaslı işlər görülür. Şəhər rəhbərliyi planlı şəkildə çalışır ki, Azərbaycan Prezidentinin Şirvana olan etimadını doğrultsun. Xüsusilə, şəhid ailələrinə, əlillərə və qazilərə diqqət göstərilməsi onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması, işlə təmin edilməsi məsələləri, xüsusilə zəruri olan müalicələrinə diqqət göstərilməsi əsas şərtlərdən biridir. Bu şərtləri isə Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı və onun komandası hələ ki, uğurla yerinə yetirir. Bu da onu deməyə əsas verir ki, şəhər rəhbərliyi bundan sonra da Şirvanın yeni uğurlarına və buradakı problemlərin həllinə müəssər ola biləcək. Bütövlükdə isə son nəticə həm Şirvanın, həm də Azərbaycanın uğurlarını artıracaqdır.**

**Əbülfət MƏDƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

## Esse və ya yeni hekayə

*Nədəndirsə bir necə vaxtdır ki, Cahangir Ələkbərov adlı müəllifin hekayə və esselərini eləcə də povestlərini maraqla oxuyuram. Düzdür bir qədər çətin əldə edirəm bu yazıları. Ancaq maraq güc gəldikdə axtardığını tapmaq olur deyərdimki.*

*Əslində elə ötən həftə "Qara dəlik" və ya Qaranlıqdan işığa doğru yazısı ilə dövrü mətbuatda çıxışımdan sonra mənə də olunan telefon müraciətlərindən oxucular arsında da maraqların artması səbəbindən müəllifin yeni bir hekayəsini əldə edə bildim.*

*İlk oxunuşunda adi və gündəlik həyat vargəlinə bənzəyən bu hekayə də diqqətimdən yayınmadı. Əslində müəllif Cahangir Ələkbərov öz yaradıcılığında esse yəni kiçik və ya orta həcmdə olan, bir çox elmi sahəyə müraciət olunan n?sr janrında yazmağa üstünlük verən bir yazıcıdır. Onun tərəfindən qələmə alınan hekayə və povestləri elə essenin əsasını təşkil edən sınaq, təcrübə, oçerk formasına daha yaxın maraqla oxunan bir xüsusiyyətə malik orjinal yazı nümunələri olmaqla yanaşı müraciət olunan hər bir mövzu tənqid və ?d?biyyat??nasl???n müəyyən bir problemi olaraq sərbəst surətdə izah edilməsi ilə fərqlənən janr xüsusiyyətinə daha çox yaxındır desəm yanılmaram. Bu xüsusiyyətlərə əsaslanan müəllifin əsas məqsəd və fikirlərinin daha aydın bir formada dəqiq eləcə də aydın məkan çərçivəsində fəlsəfi ifadə, yanaşma tərzi həmçinin obyektiv təhlilindən istifadə etmə qabiliyyəti əsas şərt olaraq qeyd edilməlidir. Əslində ?d?biyyat??nasl?qda avtobioqrafik, biografik məqalələr, psixoloji, tarixi, politoloji, siyasi və başqa təhlillər üzərndə qurulan məkan hadisələrinə yəni əsasən esse janrı üzərində qurulan mövzulara çox rast gəlmək mümkündür. Ancaq Cahangir Ələkbərovun qələminin məhsulu olan bu tip yazılar daha dəqiq və orjinal məhsulun ritmi olaraq diqqəti cəlb etməkdədir. Müəllif tərəfindən uğurlu yazı forması əsasən problemin sərbəst şəkildə daha dəqiqliklə qoyuluşundadır.*

*Esse müəllifi olaraq onun seçdiyi problemi xüsusilə ədəbi, etik, fəlsəfi və s. təhlil və izah edərkən ifadə tərzinin sistemli, ardıcıl gəldiyi nəticələrinə əsaslanaraq hamı üçün eyni dərəcədə məqbul olaraq dərki əsas şərtlərdəndir. Bütün bu sadalananları nəzərə alaraq müəllifin qələmə aldığı "Çəkməsilən" hekayə essesini oxucularla bölüşmək qərarına gəldim.*

*Anar Burcəliyev*
*Teatrşünas-tənqidçi*

# ÇƏKMƏSİLƏN

**(HEKAYƏ-ESSE)**

O, zahirən heç də çəkməsilənə oxşamırdı.Bakının məşhur Torqovıy küçəsində gördüyüm bu səliqə ilə geyinmiş adamı daha çox ziyalı təbəqəyə mənsub olduğunu zənn etmək olardı.Ola bilsin ki,mən yanılırdım...

Maraq üstün gəldi və mən,əvvəlki istiqaməti dəyişərək həmin çəkməsilən kişiyə yaxınlaşdım.

- Ayaqqabımı neçəyə təmizləyərsiniz?
- Üç manata.
- Bir az aşağı qiymətə olarmı?

O, bir anlıq məni mənalı baxışla ayağımdan başıma kimi süzdü və çətinliklə sezilən təbəssümlə

-Sizinçün iki manat olsun,onsuzda bu vaxtlar müştərilərim olmur,-dedi.

Mən əyləşdim və o,işinə başladı.

Ayağımı qoyduğum bəzəkli ayaq dayağı dəmirdən və ağacdan hazırlanmışdır.Beləsi indiyinə kimi mənə rast gəlməmişdi.

- Bunu özünüz düzəltmisiniz?
- Mən bacaran iş deyil.İstanbuldan almışam.
- Siz bunu almaq üçün İstanbula getmisiniz?
- Yox,əşşi.Mən ora qayınımla alış-veriş üçün getmişdim.Onun Bakıda və Gəncədə geyim mağazaları var.Çox bacaraqlı və zirək oğlandır...

Tozlanmış və köhnəlmiş ayaqqabım bu kişinin məharətli hərəkətləri ilə sanki təzələndi.Qalın tüklü fırçalar onun əllərində kəpənək kimi uçurdu.

Növbəti sual dilimin ucunda idi,amma onu səsləndirməyə tərəddüd edirdim.Çəkməsilən fikirimi sanki oxudu.

- Mən bu işlə heç vaxt məşğul olmamışam.Bizim nəsildə ümumiyyətlə çəkməçi olmayıb.O birisi ayağınızı qoyun.

Mən sağ ayağımı götürüb,sol ayağımı dayağa qoydum.

- Neft və kimya institunu fərqlənmə ilə bitirdikdən sonra,mən Neft Daşlarında mühəndis kimi əmək fəaliyyətimə başladım.İş növbəli idi - on beş gün dənizdə,on beş gün evdə.İşim ağır olsa da,ürəyimcə idi,maaşım da yaxşı idi.Amma sevdiyim peşəmdən aralanmalı oldum...
- Sizi işdən çıxartdılar? Pozuntuya yol vermişdiniz?
- Yox,əşşi. 91-də Sovetlər dağıldı,mədənlərin çoxu dayandı,işçiləri ixtisar etdilər.O cümlədən məni.İşimi itirdim,sonra arvadım rəhmətə getdi,üç uşaqla qaldım.Sağ olsun qayınım,məni yanına satıcı kimi götürdü...
- Bəs İstanbula necə gedib çıxdınız?
- Qayınım apardı.Mal almaq üçün getdik.Dedi ki,al-veri öyrən,lazımın olar.



- Deyəsən al-verdən heç xoşun gəlmir.
- Ürəyimcə deyildi,heç cürə alışa bilmirdim.İstanbulda elə oldu ki,qayınım topdasatış anbarında uzun-uzadı danışıqlar aparırdı,mən isə onu küçədə gözləyirdim.Bura İstanbulun mərkəzi küçələrindən biri idi,adamların və maşınların axımı dayanmırdı.Birdən küçənin o biri tərəfində gözüm çəkməsilənə sataşdı.O,öz işini böyük həvəslə görürdü,üstəlik məlahətli səsi var idi.O,müxtəlif xalqların populyar mahnılarını özünəməxsus tərzdə oxuyurdu.Ətrafına toplaşan əcnəbi turistlərin bu şən çəkməsiləni dinləmək xoşuna gəlirdi, onu mobil telefonlara çəkirdilər.Çəkmərərini təmizlək üçün isə əməlli başdı növbə yaranmışdı.Çəkməsilən kişinin işindən və səsindən məmnun qalan müştərilər ona səxavətlə əlavə pul verirdilər.Buyurun,ayaqqabınız hazırdır.

Köhnə çəkmələrimi həqiqətən tanıya bilmirdim,amma pulu verməyə tələsmirdim.

- Siz həmən adamla tanış oldunuz.
- Bəli.Mən küçəni keçdim və cəkməsilənə yaxınlaşdım.Bir müddət işinə yaxından müşahidə etdim və nəhayət onunla salamlaşdım.O,mənim azərbaycanlı olduğmu bilən kimi sevindi və dərhal " Dağlar qızı reyhan " mahnısını oxudu.Mən də oxumağa başladım.Ətrafdaki turistlər əl çaldılar və bizi mobil telefonlarına çəkdilər.

Biz tanış olduq.Adı Mehmet idi.O,işini dayandırmadan mənimlə söhbətləşdi və bilmədim necə oldu ki,mən ona öz işsizliyimdən,çətinliklərimdən danışdım.O,məni diqqətlə dinlədi və birdən

- Kardaşım,gəl səni çəkmə silməyə öyrədim,-dedi.

Nə lazımdırsa buradan alıb Bakıya apararsan.Qazanclı işdir.Ən əsası isə odur ki,özün özünə ağa olacaqsan.Paran varmı? Şarkı oxumağı bacarırsanmı?

Mən gülümsəyərək başımı buladım və elə bu an gördüm ki,qayınım məni axtarır. Tələsik yeni tanışımla xudahafizləşdim.

Oteldə səhərə kimi yata bilmədim,elə hey götür-qoy edirdim və nəhayət qəti qərara gəldim.Səhər yeməyi zamanı qayınıma dedim ki,çəkməsilən olmaq istəyirəm və mənə bir az pul lazımdır.Bax beləcə mən çəkməsilən oldum.

Mən cibimdən iki manat çıxarıb ona uzatdım.

- Qonağım olardınız.
- Çox sağ olun.Gələn dəfəyə qalsın.
- Bu mənim vizitkamdır.Hər dəfə belə boş vaxtım olmur.Gözləmək istəmirsinizsə,qabaqcadan zəng edin.

Mən təşəkkür etdim və getmək istəyirdim ki,qəflətən bir fikir ağlıma gəldi.

- Bəs üç uşağınız indi nəylə məşğuldur?
- Üçü də çəkməsiləndirlər.Kiçik oğlum Fəvvarələr Meydanında oturur.Yaxşı səsi var...

**Cahangir Ələkbərov**

## İşğaldan azad olunmuş ərazilərdə yeni su kanallarının tikintisi nəzərdən keçirilir



***İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafı əsas istiqamətlərdən biridir. Bu baxımdan, suvarma suyu ilə təminat prioritet təşkil edir. Bunun üçün biz əlavə tədbirlər də görəcəyik.***

***Bunu Ağdamda səfərdə olan Baş nazirin müavini Şahin Mustafayev jurnalistlərə deyib.***

***Ş.Mustafayevin sözlərinə görə, yeni kanalların tikintisi də nəzərdən keçirilir: "Məsələn, Araz çayı üzərində Qız qalası su anbarı inşa olunub. 2016-cı ildən İran İslam Respublikası ilə imzalanmış saziş əsasında həm Xudafərin, həm Qız qalası su anbarında 50 faiz pay Azərbaycanındır. Azərbaycanın Qız qalası su anbarından yeni su kanalı tikmək və anbardan saniyədə 50 kubmetr su götürmək hüququ var. Bu məsələyə də baxılacaq. Layihələndirmə işlərinə də başlayacağıq ki, suvarmanın təminatı üçün bu imkanlardan istifadə edək".***

## Sabah 42 dərəcə isti olacaq

***İyunun 24-də gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, iyunun 24-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin günəşli keçəcəyi gözlənilir. Şimal-şərq küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.***

***Havanın temperaturu Abşeron yarımadasında gecə 22-26, gündüz 34-39, bəzi yerlərdə 41, Bakıda gecə 23-25, gündüz 38-40 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 758 mm civə sütunu, nisbi rütubət gecə 55-65, gündüz 35-40 faiz təşkil edəcək.***

***Abşeron çimərliklərində şimal-şərq küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 24-25, Türkan, Hövsan, Sahil, Şıxda 25-26 dərəcə isti olacaq.***

***İyunun 24-də Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq ərazilərdə lokal qısamüddətli yağış yağacağı gözlənilir. Səhər bəzi dağlıq ərazilərdə duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25, gündüz 35-40, bəzi yerlərdə 42, dağlarda gecə 15-20, gündüz 27-32 dərəcə isti olacaq.***

***Həftə ərzində Bakıda və Abşeron yarımadasında anomal isti, günün bəzi saatlarında durğun hava şəraiti, zəif küləklərin üstünlüyü, gündüz güclü temperatur diskomfortu gözlənilir ki, bu da əksər əhali üçün əlverişsizdir.***

# Nikita Yujanin: «Biz sadəcə «bakılı» idik»...

*Azərbaycan muğamlarını həm bilir, həm də tədris edirəm*

***Hazırda Finlandiyada yaşayan tanınmış musiqiçi Nikita Yujanin 1939-cu ildə Bakı şəhərində anadan olub. O, fortepiano ixtisası üzrə ilk musiqi təhsilini Bakıda alıb. Sonradan Azərbaycan Dövlət Konservatoriyasının (Bakı Musiqi Akademiyası-İ.H) fortepiano şöbəsinə daxil olan həmyerlimiz sonradan ali musiqi təhsilini Leninqrad (Sankt-Peterburq-İ.H) Konservatoriyasında davam etdirib. Musiqi ifacılığı üzrə doktor, fəlsəfə doktoru elmi dərəcələrinə yiyələnən professor N.Yujanin 20 ildən artıq Sankt-Peterburq Konservatoriyasında kafedra müdiri, fortepiano fakültəsinin dekanı vəzifəsində çalışıb. Bundan başqa uzun illər Qnesinlər adına Moskva Musiqi Akademiyasında, habelə Finlandiya, Yaponiya və Almaniyanın konservatoriya və universitetlərində dərs deyib. Həmyerlimiz eyni zamanda bir sıra nüfuzlu beynəlxalq müsbiqələrin münsiflər heyətinin üzvü olub. Onun tələbələri sırasında 20-dən artıq Beynəlxalq müsabiqə laureatları, ABŞ, Rusiya, Fransa və s. ölkələrin konservatoriya və universitetlərində calışan professor və yüksək fəxri adlara layiq görülən (həmcinin YUNESKO-nun "Sülh naminə incəsənət xadimi") musiqicilər var.***

***N.Yujanin dünyanın bir sıra ölkələrində, o çümlədən ABŞ, Yaponiya, Rusiya, Almaniya, Finlandiya, İtaliya, Cin, Asiya ölkələri, Şərqi Avropa, Latın Amerikası, Afrikada simfonik orkestrlərlə cıxış edərək solo konsertləri verib, ustad dərsləri, simpozium, festival və müsabiqələr təşkil edib. N.Yujanin bir sıra beynəlxalq müsabiqə və festivalların, o çümlədən "S.Raçmaninov International Çompetitions and Festivals USA Los Angeles" bədii rəhbəridir.***

***Onun bir təsadüf nəticəsində tanış oldum. Adam köhnə Bakının canlı ensiklopediyasıdır. Uzun illərdir xaricdə yaşamağına baxmayaraq köhnə Bakını çox yaxşı tanıyır və xatıplayır. Söhbətimiz maraqlı alındı, ümid edirəm ki, oxucularımıza da maraqlı olacaq...***

### *Mən özümü əsl "bakılı balası" sayıram*

- Mənim babamla nənəm bolşeviklərdən qaçıb ötən əsrin 20-ci illərində Bakıya köçüb. Qohumlarımızın bəziləri hətta Şanxaya da gedib çıxıb. Atam Aleksey Maxovekski filosof, SSRİ Elmlər Akademiyasının həqiqi üzvü olub. Onu dəfələrlə Moskavaya yüksək vəzifələrə dəvət etsələr də, atam Bakıda qalmağa üstünlük verib. Əslində doğru addım atıb, çünki onun Moskvadakı dostlarınıın əksəriyyətinin Stalin axırına çıxdı. Atam yeganə akademik idi ki, kommunist partiyasının üzvü olmayıb. Mən 20 yaşıma qədər Bakıda yaşamışam. Rəşid Behbudov "Akademiklər binası"nda qonşumuz olub. Akademik ailəsində böyüsəm də məhəlləmizin uşaqları ilə aram yaxşı olub. Mən özümü əsl "bakılı balası" sayıram. Bakı küçəsində böyümək uşağı mətinləşdirir, mübariz edir. Bir məsələ də var ki, o dövrün Bakısı tamam başqa aləm idi. Mən demək olar ki, 30 ildir, dünyanın bütün şəhərlərində olmuşam. Mən o dövrünün Bakısı kimi şəhərlə heç yerdə rastlaşmamışam, o, sanki ayrıca bir planet idi. O dövrdə Bakı uşaqları özlərini millətə görə ayırmırdılar, biz sadəcə "bakılı" idik.

**- Uşaqlıq dostlarınızla əlaqə saxlayırsınızmı, onların arasında bu günün məşhurları varmı?**

- Paris Universitetinin professoru Marek Drabenski, Zöhrab Adıgözəlzadə, Leonid Qusman mənim məhlə uşaqlarım olublar. Bundan başqa daha bir nəfərin adını çəkmək istəyirəm- Vaqif Mustafazadə ilə eyni musiqi məktəbində oxumuşuq və konservatoryada ikimiz də məşhur musiqiçi Şaroyevin kursunda təhsil almışıq. O da Sankt Peterburqdan qaçıb gələnlərdən idi. Professor Şaroyev istedadlı pianoçu idi. Vaqif çox vaxt dərsə gəlməz, evdə gecə-gündüz pianoda caz çalırdı. Professor Şaroyev də onun xətrini çox istəyirdi, dərsə gəlməyəndə göz yumurdu, deyirdi ki, əşi eybi yoxdur, onsuz da o çox istedadlıdır, qoy gedib cazını çalsın... O dövrdə heç kəs cazla maraqlanmırdı. Amma mən onunla bir çox tələbə gecələrində "geamsession"a çıxmışam. İnsanlar məni klassik musiqinin ifaçısı kimi tanıdıqlarından hərdən Vaqifin əsərlərini çalanda təəccüblənirlər. Mən bir məsələni xüsusi vurğulamaq istəyirəm. O dövrdə Bakı incəsənət sahəsində SSRİ-də çox irəli getmişdi. Müxtəli sahələrdə yeniliklərlə burada yaxından tanış olmaq imkanı vardı. Misal üçün, Moskvada heç kəs Bakıdakı kimi rahatlıqla caz və dodekafoniya çala bilməzdi, bu canrda əsər bəstələməyə imkan yox idi. Yeniliyə həvəsi olanlar burada istədiklərini edə bilərdilər. Uzun zamandan sonra yenidən Bakıya qayıdanda həmin atmosferlə qarşılaşdım, heç nə dəyişməyib.



**- Bayaq dediniz ki, dünyanın böyük-böyük şəhərlərində fortepiano ifaçılığını tədris edirsiniz. Dərslərinizdə Azərbaycan musiqisindən istifadə edirsinizmi?**

- Bu gün çox sevindirici haldır ki, Azərbaycan musiqisi dünyada səslənir. Mən Azərbaycan deyəndə yalnız şimalı nəzərdə tutmuram. Azərbaycan xalqının özünəməxsus musiqisi var. Saçi adlı yaponiyalı tələbəm var və mən ona Qara Qarayevin, Fikrət Əmirovun əsərlərini öyrətməklə Azərbaycan musiqisini anlatmağa çalışıram. Mən klassik Azərbaycan bəstəkarlarının əsərlərini çox gözəl bilirəm. Bundan başqa onu da deyim ki, nəinki klassik bəstəkarlar, hətta Azərbaycan muğamlarını həm gözəl bilir, həm də dərslərimdə tədris edirəm.10 il biz Buzovnada yaşamışıq və mən oranın toylarında muğamı eşidib onu yaddaşıma yazmışam.

**- Azərbaycan musiqisinə xaricdə münasibət necədir, ona ekzotik musiqi kimi yanaşırlar, yoxsa professional?**

- Mən yenə də Saçidən danışmaq istəyirəm. O, məni öz Allahı sayır... O bilir ki, mən musiqi sahəsində hər şeyi bilirəm. Mən Azərbaycan musiqisini ona başa salanda, görürəm ki, yaxşı başa düşmür. Çünki bu musiqi onun ürəyindən gəlmir, onun üçün yaddır.

Amma Bakıya gəlib Azərbaycanı tanıyandan sonra görürəm ki, yaxşılığa doğru dəyişiklik var. Azərbaycan musiqisini başa düşmək üçün mütləq Azərbaycanı görmək lazımdır.

### *Milliyətcə fin olsam da özümü azərbaycanlı sayıram...*

**- Azərbaycan muğamının dünyanın hər tərəfində digər canlar- simfonik musiqi, pop, rep kimi insanlar tərəfindən qəbul edilməsi, sevilməsi üçün nə etmək lazımdır? Bəli, muğam YUNESKO-nun Qeyri-Maddi İrs siyahısına salınıb, böyük-böyük səhnələrdə ifa olunur və alqışlanır. Amma bu kütləvi musiqiyə çevrilməyib. Necə ki, bizlər klassik musiqini öyrənməyə çalışırıq, digər millətlər də onu peşəkar musiqi kimi öyrənmək istəsinlər, məktəblərdə klassik musiqi kimi muğam da tədris olunsun...**

- Əslində mən də bu barədə fikirləşirəm. Bunun ən yaxşı nümunəsi kimi Vaqif Mustafazadənin musiqisini göstərmək olar. Vaqif caz musiqisi bəstələyirdi, amma o cazı muğamla sintez etdi. Ona görə də hamı tərəfindən qəbul olunur, sevilirdi. Fikrimcə, bu əla variantdır.

Ona görə də, vaxtı boş yerə itirmək lazım deyil, bu istiqamətdə işlər görülməlidir. Muğamı ifa edərkən onun içindəki yanğını musiqiçi öz ifası, adi bir hərəkəti, baxışı ilə hiss etdirməlidir. Mənim skrpikaçı tələbəm var- Cavad Tağızadə, o, Almaniyada muğam ifa edəndə hamı heyran qalırdı. İndi o, tanınmış dirijordur. Çoxları məndən bu əsərlərin not yazısını istəyirdi.

Fikrət Əmirovun əsərləri muğamlardan bəhrələndiyi üçün bütün dünyanı fəth edir. Bu gün Avropa musiqisi artıq ölüb, ona təzə qan lazımdır, bu da muğamdır. Mənim düşüncəmə görə, Azərbaycan muğamı Şərq musiqisinin özəyi, cövhəridir. Mən fəlsəfə elmləri doktoruyam, şərq musiqisini tədqiqat etmişəm. 100 il bundan əvvəl Şərq Qərbdən öyrənirdisə, artıq əksinədir, Qərbi öyrətməyə başlayıb. Nəinki musiqidə, indi bütün sahələrdə Şərq Qərbi geridə qoyub. Ona görə də, çox eksperimentlər etmək lazımdır.

**- Muğamlarımızdan hansını bilirsiniz?**

- Demək olar ki, hamısını.

**- Ən çox hansı muğamı xoşlayırsınız?**

- Yaxşı ifa olunan bütün musiqilərə qulaq asmağı xoşlayıram. Amma "Cahargah"a günlərlə qulaq asaram amma yenə də doymaram.

**- Bakıda qohumlarınız varmı?**

- Bacım Bakıda yaşayır. Ona görə də, mən Bakıya uzun illərdən sonra qayıtsam da, özümü yad deyil, buranın insanı kimi hiss etdim.

Mənim babamın, nənəmin, valideynlərimin, ümumiyyətlə bütün qohumlarımın məzarları buradadır. Bu səbəbdən milliyətcə fin olsam da özümü azərbaycanlı sayıram.

**Söhbətləşdi:**
**İltifat HACIXANOĞLU**

---

# Şagirdlərin sevdiyi müəllim

**Məktəbə qədəm qoyan gündən bir müəllimin mehriban təbəssümü, səmimi siması diqqətimi cəlb etmişdi. Binanın mərtəbələri arasında tez-tez rastlaşdığım, gözləri dənizi xatırladan, üzü hər zaman təbəssümlə işıqlanan bu xanımı görməyəndə sanki doğma adamım üçün darıxırdım. Ürəyimdə həmişə fikirləşirdim ki, kaş o bizim müəllimimiz olaydı. Səsi məlahətli, baxışları mənalı bu xanımın bizimlə də həmsöhbət olacağını düşünürdüm. Bizə dərs deyən pedaqoqların əksəriyyəti yaxşı əməlləri, sadə və mehriban rəftarları ilə yadımda qalıb. Mehribanlıq və səmimiyyət mənim üçün həmişə ən gözəl cəhətlər olub.**

Bəxtim onda gətirib ki, birinci sinifdən bu günə qədər mənə dərs deyən müəllimlərin hamısı bizimlə həmişə səmimi və mehriban davranıblar. Amma bu müəllimə səbəbini özüm də bilmədən daha çox rəğbət bəsləyirdim. Çox sevinirəm ki, arzuma çatdım və Əntiqə müəllimlə yaxın ünsiyyət imkanı qazandım. Onu mənə sevdirən təbii ki, hədsiz mehribanlığı idi. Yanımızdan keçəndə mütləq əhvalımızı xəbər alır, dəyərli məsləhətlər verirdi: " Necəsiniz qızım? Dərslərinizi yaxşı oxuyun. Məktəb illərindən səmərəli istifadə edin. Sonra peşiman olarsınız. Yarışlara qatılın. Olimpiadalarda iştirak edin. Nə qədər ki, gec deyil, bilik qazanın. Çalışın dərslərinizi yaxşı oxuyun." Sonralar öyrəndim ki, bu xanım məktəbdə tədris işləri üzrə direktor müavini vəzifəsində çalışan, filoloq Əntiqə Qasımovadır. Onun funksiyasına daxil olan və məsuliyyət daşıdığı işlər onu çox yorsa da, səbri, təmkini ilə çoxlarına nümunədir. Anam deyir ki, pedaqoji fəaliyyət insanın əsəblərini və gücünü tükədir. Mən isə Əntiqə müəllumi heç vaxt əsəbi vəziyyətdə görməmişəm. Məktəbdə dəcəl şagirdlərin çoxluğuna baxmayaraq, Əntiqə müəllim onların hər biri ilə çox asanlıqla dil tapır. Dəfələrlə bir neçə şagirdin dalaşdığını, bir-biri ilə sözlərinin çəp gəldiyinin şahidi olmuşam. Ancaq Əntiqə müəllimin gəldiyini görəndə hamı tez özünü yığışdırıb. Sanki bayaqdan qəzəblə bir-birinin üstünə atılan onlar deyildi. Adətən şagirdlər rəhbərlikdən çəkinirlər. Amma mən dəfələrlə şahidi olmuşam ki, yuxarı sinif şagirdləri sıxılmadan Əntiqə Qasımovadan məsləhət alır, onun tövsiyələrindən yararlanırlar. Bu, Əntiqə müəllimə böyük sevginin nümunəsi idi. Hətta məktəbi bitirən məzunlar belə Əntiqə müəllimi unutmur, görüşünə gəlirlər. Ülviyyə, Xuraman, Vaqif, Qəmər, Şəfəq, Arif, Fuad, Elçin, Vüqar, Kamran, Eyyub, Kəmalə, Şəfəq, Gunay, Anar və digərləri məhz həmin şagirdlərdəndir. Onlardan Azədə, Könül, Bilqeys, Afət, Validə bu gün sevimli müəllimləri ilə çiyin-çiyinə çalışırlar. Araz İmaməiyev, Fidan Hüseynova, Fidan Əhmədova, Aişə Hüseynzadə, Xalıqverdi Məmmədzadə, Zəhra Abdullayeva və digər bu ilki onbirlər tez-tez ona baş çəkir və dəyərli məsləhətlərini sevə -sevə dinləyirlər. Bu səmimi səhnələri görəndə düşünürəm ki, mən də məktəbi bitirəndən sonra yəqin ki, unutmaq mümkün olmayan Əntiqə müəllimlə tez-tez görüşəcək, onun səmimi, gülərüz simasını görəcəyəm. Nə yaxşı ki, mənim hələ bir neçə ilim var və sevimli müəllimimlə hələ çox ünsiyyətdə olacaq, onun dəyərli məsləhətlərindən yararlanacağam. Bir müddət əvvəl şahidi olduğum bir səhnə heç vaxt yadımdan çıxmaz.



Məktəbin bir neçə keçmiş şagirdi dərsdən sonra Əntiqə müəllimin yanına gəlmişdilər. Otağının yanından keçəndə onun bu sözləri dediyini eşitdim: "Ay bala, nə vaxt istəsəniz zəng edin, nə vaxt istəsəniz gəlin görüşün, sizi görəndə şad oluram. Mən də məsləhətlərimi sizdən əsirgəmərəm. Nəyi öyrənmək istəsəniz, çəkinmədən mənə müraciət edin.Təki sizdə öyrənmək həvəsi yüksək olsun. Oxuduğunuz ali təhsil ocağında bizim üzümüzü həmişə ağ edəcəyinizə inanıram. Mən əminəm ki, siz bizim etimadımızı doğruldub, hər yerdə parlaq nəticələr göstərəcəksiniz. "Ana dilimizi şagirdlərinə böyük məhəbbətlə tədris edən Əntiqə müəllim həm də vətənpərvərliyi, yurd sevgisi ilə də seçilir. Təkcə bilik verməklə kifayətlənməyən və şagirdlərini vətənpərvər, cəsur insan kimi yetişdirən, onlara doğma övladı kimi yanaşan Əntiqə müəllimə mənim böyük hörmətim var. Bir çox tədbirlərdə iştirak edəndə onun səmimi münasibəti məni həmişə sevindirib, bəzən kövrəldib.

Toplantılarda, tədbirlərdə mahnı oxuyarkən, fortepianoda ifa edərkən mənə məhəbbətlə baxdığının şahidi olanda çox sevinmişəm. Əntiqə müəllim çıxışımı hər zaman diqqətlə dinləyib alnımdan öpüb öz təşəkkürünü bildirib. Artıq biz də Əntiqə müəllimin şagirdləri hesab olunuruq. Bəli, Əntiqə müəllim kimi savadlı və mehriban pedaqoqlar həmişə gözəl nəsillər yetişdirirlər. Məhz onların verdiyi təlim-tərbiyənin nəticəsidir ki, həmin keçmiş məzunlar 44 günlük Vətən müharibəsində xarüqələr yaradıb qanları-canları bahasına torpaqlarımızı düşmən tapdağından azad etdilər. Ona görə də bu qələbədə müəllimlərin misilsiz rolu var. Məktəbin keçmiş məzunu, Şəhidlik zirvəsinə yüksələn, qəhrəmanlıqları ilə ölkəmizin, məktəbimizin, ailəsinin adını ucaldan və Milli Qəhrəman adını almış Nadir Mahmudov Əntiqə müəllimin şagirdlərindən biri olub. Birinci Qarabağ savaşı zamanı ölümündən 4 gün əvvəl məktəbə gəlib sevimli müəllimi ilə görüşüb, cəbhədə olan durumlardan söz açan Nadir üzünü məktəblilərə tutaraq deyib ki, fəxr edin ki, belə fədakar müəlliminiz var, bizə vətəni elə sevdirib ki, tərəddüd etmədən onun üçün canımızı verməyə hazırıq. Nadir barədə xatirələrini söylərkən Əntiqə müəllim hər dəfə kövrəlir, göz yaşlarını saxlaya bilmir.

**Bir neçə gün əvvəl məktəbimizdə keçirilən "Son zəng" tədbirində direktorumuz Ziba Rzayeva da çıxışında bu amilə toxunaraq məzunları həmişə Vətəni çox sevməyə və əməlləri ilə ona layıq olmağa səslədi. Onları məktəbi bitirmələri münasibətilə təbrik edib onlara gələcək həyatda uğurlar arzuladı. Əntiqə Qasımovaya da söz veriləndə öz ürək sözlərini sevimli şagirdləri ilə bölüşdü: "Əziz balalar, tarixdə iz buraxan "məzun" adı sizə də qismət oldu. Siz qalib ölkənin ilk məğrur məzunlarısınız. Öncə sizə şərəfli ömür arzu edirəm. Bir insan kimi vətən, xalq, el-oba dil, din- bir sözlə əsil vicdan haqqınızı uca tutun. Sizə qarşıdakı enişli-yoxuşlu həyat yollarında uğurlar arzu edirəm." Sonra direktor müavini Kubra Əliyeva, 11-cilərin ibtidai sinif müəllimləri və digər pedaqoqlar da çıxış edərək məzunları təbrik etdilər və ali təhsil yollarında nailiyyətlər arzuladılar. Sonra məzunlar həyacanlı duyğularını ifadə edərək müəllimlərinə təşəkkürlərini çatdırdılar. Məktəbin bayramsayağı bəzədiilmiş həyətində təşkil edilən tədbir acılı-şirinli xatirələrin ab-havası ilə başa çatdı.**

**Aysu Quliyeva**
**Xətai rayon 204 nömrəli**
**tam orta məktəbin şagirdi**

---

## *"Qarabağ"ın yeni transferi: "Bakıda heyrətləndim"*



*"Futbolçular, məşqçi heyəti, klubun digər əməkdaşları və ofis işçiləri ilk gündən mənə isti yanaşdılar. Böyük ailəyə gəldiyimi hiss edirəm. 1 həftədir ki, məşqlərə başladıq. İlk günlərdəki təəssüratlarıma görə deməliyəm ki, məşqlərimiz çox maraqlı və dinamikdir. Hazırlığa yeni başlamışıq, hər şeydən razıyam. Futbolçular məşqdə çox işgüzar və motivasiyalıdır".*

*Qol.az xəbər verir ki, bu sözləri "Qarabağ"ın yeni transferi Kadi Yuri Borqes Malinovski deyib. Braziliyalı yarımmüdafiəçi komandaya uyğunlaşma prosesindən və yeni mövsümün hədəfləri barədə danışarkən bildirib ki, hazırda əsas fikrini məşqlərə yönəldib: "Bakı şəhərini gəzməyə fürsətim olmayıb. Ümid edirəm ki, burada olduğum müddətdə Bakını kəşf etməyə zamanım olacaq. Burada gördüklərim məni heyrətləndirib. Çoxmərtəbəli binalar, insanların xoş münasibəti diqqətimi çəkib. Hər şey ürəyimcədir və Bakını yaxından tanımağa vaxtım olacaq".*

*O bildirib ki, "Qarabağ"a titullar qazanmaq üçün gəlib: "Güclü və keyfiyyətli futbolçulardan təşkil olunmuş komandaya gəldiyimi bilirəm. Mən də öz bacarığımla komandanın gücünə güc qatacağam. Ürəyi komandamızla döyünən, bizə nəfəs verən azarkeşləri qələbələrimizlə sevindirəcəyimizə inanıram. Yeni mövsümdə əlimdən gələni edəcəyəm".*

---

# Evlilik sənəti öldürür, ya ona yol açır?..

*Rəssam Aynur Aydınla müsahibəni təqdim edirik.*

**- Aynur xanım, "şeir nədir, ədəbiyyat nədir" sualı şairin, yazıçının cavab tapa bilmədiyi sualdır. Bu sualın konkret cavabı yoxdur. Bəs, rəssamlarda necə, varmı? Rəsm nədir?**

- Düşünürəm, bunu konkretləşdirsək, qəlibə salmış oluruq. Ola bilsin, söz, cümlə olaraq tərifi çoxdur.

Çox şey demək də olar. Amma yeni heç nə. İçində bildiyimiz, bilmədiyimiz çox şeyi əhatə etdiyi üçün tərif, rəsmin şəxsiyyət vəsiqəsi kimi bir şey olar.

**- Şairə, yaradıcı adama "şeiri hansı vəziyyətdə yazırsınız" kimi suallar veriləndə adətən "darıxanda, yazmaq istəyəndə, ehtiyac duyanda" kimi cavablar verilir. Hətta yazı elə bir şeydir ki, bəzən yazmaq istəyib, yaza bilmirsən. Bəs, rəsm necə? Biri beyin məhsuludur, biri daha çox əl. Rəssamlarda belə hisslər olurmu ki, bir rəsmi çəkmək istəyir, amma alınmır və bu hiss daxildən olur, yoxsa bacarmamaqdan?**

- Çox olub. Məsələ, məncə, xəyalda qurduğun şeyin, düşündüyün fantaziyanın daha sehirli, gözəl və ya cəlbedici olmasıdır. Çəkmək istədikdə alınmama səbəblərindən biri, əlin bunu beyindəki kimi təsvir edə bilməməsi, bu işin bacarmamaq tərəfidir. İkinci bir tərəf isə daxil məsələsi, ruhsal sakitlik, özünü həmin məqamda hiss etmək. Zamanla düşündüyün şeyi çəkərəm deyib, həmin anda çəkmirsənsə, bir də o məqama qayıtmaq çətin olur.

**- Maraqlıdır, sərhədləriniz varmı? Çəkmək istədiyiniz, amma nəyəsə, kiməsə görə çəkə bilmədiyiniz rəsm, məsələn.**

- Nəyəsə görə, kiməsə görə yox. O nəyə məsələsi isə, sənətin içinə həddən artıq daxil olduqda insanı məhv etmə gücünə malikdir. O qədər aşırı ki, heç nədən zövq ala bilməyəsən, mənə tapa bilməyəsən. Mənə görə bu sənətin dibi, quyusudur. Ola bilsin, sən o quyuya enməklə unudulmayacaq əsərlər yarada bilərsən. Bəhs etdiyin şey ən dərində yatan fikirlər, ideyalar, düşüncələrdir.



Bir növ beynin düşüncəsinin bir üst mərhələsi kimi. Bunun var olduğunu bilirəm.

Ancaq ora enmək istəmərəm. Çünki sənətlə yaşam daha vacibdi, nəinki orda ölmək.

**- Bəs, xırda bir misal, məsələn, nude rəsmlər. Qadın rəssamlar adətən bu şeylərdən qaçırlar. Məlum məsələdir ki, ətrafdakı insanların fikri də rol oynayır. Sizdə də belədir? Kişiləri nude çəkə bilirsiniz, sifarişlər olurmu?**

- Sadəcə, sevmirəm. Yəni, nude artı qəbul edirəm, çəkinməlik də bir durum yoxdur. Amma irəliləmək istədiyim istiqamət bu deyil. Nə vaxtsa çəkərəmmi, əlbəttə. Amma mütləq sehirli bir tərəfi olmalıdır.

**- Sehirli bir tərəf, yəni necə?**

- Hər kəsin görüb, amma duymayacağı bir detal ola bilər, məsələn.

**- Azərbaycan reallığını nəzərə alsaq, bəzən yaradıcı insanların qarşısını evlilik də kəsir. Bu, həm sosial problemlərdən qaynaqlanır, həm də dominant tərəfin istəklərindən. Siz də evlisiniz. Bu, problem olurmu? Ailə daxilində qısqanclıq, məsələn. Çünki ən azından sosial şəbəkələrdə aktivlik, ətrafın daha çox kişilər olması, hətta sifarişlərin belə kişilər tərəfindən çox olması buna zəmin yarada bilər...**

- Məndə evlilik yol açıb sənətə doğru. Bəlkə də, daha çox cəsarətim olub deyə bilərəm. Qarşınıza kimin çıxmasından, kiminlə həyatı bölüşməyinizdən çox şey asılıdır. Bu mövzuda şanslı olduğumu düşünürəm.

**- Aynur xanım, dünya hansı "rəngdədir?" Kim nə görürsə o, yoxsa bir rəng var və onu müəyyən adamlar, hiss edənlər duya bilir?**

- Buna bir az real yanaşıram. Mənə görə 4 fəslin rəngindədir. Hiss etdiyimiz, duya bildiyimiz şeylərin rəngi varmı desək, çoxçalarlıdır. Sadəcə, insanlar rəngə mənə yükləməyi sevirlər. Öz adımıza, soyadımıza, peşəmizə yüklənən şeylər kimi.

**- Sərgilərdən danışaq, Aynur xanım. İki sərginiz olub. Necə keçmişdi, ürəyinizcə oldumu? Yenə olacaqmı davamı?**

- İki sərgi olub, bəli. Biri həmkarımla 2014-cü ildə. "A-dan Z-yə" adlı. İkincisi, ilk fərdi sərgim olmuşdu. "Sandıq". İlk sərgidə demək olar, mövzum yox idi. Yəni, sadəcə çəkdiklərimi sərgiləmişdim demək olar.

Anlayışım az, bacarığım da o qədər deyildi. İlk təcrübə olduğu üçün yeri məndə xüsusidir. "Sandıq" isə həyatımda iz buraxmış sərgidir. Bol həyəcanlı, xüsusi mövzulu. Bacardığımı etdiyimi düşünürəm bu sərgi üçün. Növbəti fərdi sərgiyə hazırlaşıram. Ümid edirəm, daha uğurlu olacaq.

**- Nə vaxt olacaq sərgi? Sizin bu sərginizi digər rəsm sərgilərdən fərqləndirən nəsə olacaqmı? İnsanlar ora niyə gəlməlidir?**

- Sərginin vaxtı hələ dəqiqləşməyib. İşlərin ölçüsü böyük və mövzusu çətindir. Nə qədər vaxt alacağı barədə bir şey bilmirəm hələ ki.

Sərginin fərqi məsələsi, özündən razılıq kimi çıxmazsa, fərqli bir beyinə, ruha sahib olduğumu düşünürəm və bunu mümkün qədər rəsmlərdə yansıtmağa çalışacam. Hər kəsi çəkərmi bilmirəm, ancaq ötən sərgidən təcrübə etdiyim qədər heç gözləmədiyim sayda insan gəlmişdi.

**- İşlərinizdə uğurlar, müsahibə üçün də təşəkkür edirik.**

- Xoş oldu. Minnətdaram.

**Söhbətləşdi:**
**Orxan Saffari**

---

"Spartak Peşəkar Futbol Klubu" MMC-yə məxsus (Mülkiyyətin ünvanı: Quba şəhəri, Nəriman Nərimanov küçəsi) torpaq sahəsinə aid 303011000229 qeydiyyat nömrəli Daşınmaz Əmlakın Dövlət Reyestrindən "Çıxarış" itdiyi üçün etibarsız sayılır.

***

Astara rayonu Giləkəran kənd sakini Quliyev İlyas Məmməd oğluna 2 iyul 1999-cu il 18 saylı qərarı ilə verilmiş Torpaq sahəsinin plan və ölçüsü (A№229544) itdiyi üçün etibarsız sayılsın.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 109
Çapa imzalanmışdır: 23.06.2021